Xalqın qəzeti!
# Xalq qəzeti
№ 97 (30791) 13 may 2025-ci il, çərşənbə axşamı
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Zəfərin Ağdamından İrəvana mesajlar



**"Buraya gələrkən yeddi il əvvəl Quzanlı qəsəbəsində Muğam mərkəzinin açılışını xatırlayırdım. O vaxt Ağdam şəhəri və rayonun böyük hissəsi işğal altında olduğu üçün biz Quzanlı qəsəbəsini Ağdam rayonunun mərkəzi elan etdik, orada mənim iştirakımla Muğam mərkəzinin təməli qoyuldu və 2018-ci ilin noyabr ayında açılışı oldu. Mən orada incəsənət xadimləri ilə görüş əsnasında demişdim ki, biz ədalət tələb edirik. Demişdim ki, əgər Ermənistan bizim torpaqlarımızdan öz xoşu ilə çıxmasa, biz istənilən varianta hazırıq. Ermənistan rəhbərliyi buna məhəl qoymadı. Onlara dəstək olan dairələr onlara pis məsləhət verdilər və Azərbaycan xalqı haqqında yanlış təsəvvür yaradılmışdı. İndi onlar peşmandırlar".**

Bu fikirləri Prezident İlham Əliyev mayın 10-da Ağdam Muğam Mərkəzinin açılışında səsləndirib. Əminliklə deyə bilərik ki, dövlətimizin başçısının açılış mərasimində bildirdikləri özündə Ermənistana və havadarlarına növbəti mesaj idi. Dövlətimizin başçısı İrəvana və dəstəkçilərinə həm tarixi xatırlatdı, həm yaxın keçmişdə yaşananları yada saldı, həm də yaşanmışlardan nəticə çıxarılmasının vacibliyini diqqətə çatdıraraq, gələcəyə optimal baxış üçün şans verdi. Qalır bu şansı dəyərləndirmək.

Bəli, Ermənistan rəhbərliyi olanlardan dərs götürməlidir. Rəsmi İrəvan Azərbaycanın qarşısına qoyduğu bütün hədəflərə çatdığını anlamalıdır. Anlamalıdır ki, ölkəmizin müəyyənləşdirdiyi kurs hay təfəkkürünün heç vaxt düşünə bilmədiyi və bilməyəcəyi strateji struktura malikdir. Həmin struktur sanki saat mexanimzi kimi dəqiqdir, onda hər şey yüksək məharətlə ölçülüb-biçilib. Ermənistan rəhbərliyi onu da dərk etməlidir ki, belə bir düşüncənin qarşısına çıxarılacaq istənilən əks məntiq iflasa məhkumdur. Bu düşüncənin qarşısına yalnız səmimiyyət nümayişi və sağlam yanaşma ilə çıxılması lazımdır ki, mövcud xarakter haylarda yoxdur. Hər halda, indiki mənzərə bunu söyləməyə əsas verir.

*(ardı 3-cü səhifədə)*




## Sülh prosesinə raketdən ataş

*Silah ticarətinə bürünmüş geosiyasi maraqlar Cənubi Qafqazda yeni gərginliyə yol açır*

**Son illər Cənubi Qafqazda geosiyasi maraqlar toqquşur. Bölgəyə yeni güc mərkəzləri daxil olur. Bu kontekstdə Ermənistanın müxtəlif güc mərkəzləri arasında manevr etməsi, Avropa İttifaqının mülki adlanan yarımhərbiləşmiş missiyasını Azərbaycanla sərhəd ərazilərə yerləşdirməsi, bəzi dövlətlərlə hərbi əməkdaşlığı və silah tədarükü ciddi narahatlıq doğurur. Ölkəmizin suverenliyinə və regional sabitliyə yönəlmiş bu addımlar, təkcə ikitərəfli münasibətlər çərçivəsində deyil, eyni zamanda, beynəlxalq hüququn və geosiyasi tarazlığın pozulması baxımından da təhlükəli tendensiyanın göstəricisidir.**

Ermənistanın 2020-ci ilin payızında İkinci Qarabağ müharibəsindəki ağır məğlubiyyəti, müharibə zamanı Rusiyadan və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından istədiyi dəstəyi ala bilməməsi İrəvanı yeni hərbi tərəfdaşlar axtarmağa vadar etdi. Sözsüz ki, bu tərəfdaşlığın bir məqsədi də silah tədarükünə nail olmaq idi. Məhz bu axtarışların nəticəsi olaraq, Hayastan son illərdə Hindistanla yaxınlaşaraq oradan müxtəlif təyinatlı silah-sursat alışına başladı. Mətbuatda geniş yayılmış məlumatlara əsasən, Ermənistan qısa müddətdə Hindistandan artilleriya sistemləri, çoxsaylı raket buraxılış sistemləri ("Pinaka"), pilotsuz uçuş aparatları, snayper tüfəngləri, optik və elektron sistemlər, digər müdafiə texnologiyaları əldə edib. Məlumatlara görə, Hindistan artıq Ermənistana yüz milyonlarla dollar dəyərində silah ixrac edib. Bu silahların əsas məqsədi Ermənistan ordusunun modernləşdirilməsi və Azərbaycanla mümkün hərbi qarşıdurmalarda üstünlük əldə etmək cəhdidir.

*(ardı 10-cu səhifədə)*



## PKK özünü buraxdığını elan etdi

Səhifə ⇨ 15

## Prezident İlham Əliyev: Erməni faşizmi faşizmin ən yüksək nöqtəsidir



**Prezident İlham Əliyev mayın 10-da Ağdam Muğam Mərkəzinin açılışında bildirdi ki, erməni faşizmi Azərbaycanın bölgələrini daim işğal altında saxlamaq istəyirdi və onların arxasında duran bəzi xarici dövlətlər Ermənistan hakimiyyəti ilə həmrəy idilər: "Açıq olmasa da, gizli kanallarla onlara verilən mesajlar ondan ibarət idi ki, Azərbaycan cürət edib heç vaxt azadlıq müharibəsinə başlamayacaq, biz sizin arxanızdayıq, biz sizə dəstək olacağıq, sizə silah veririk, mənəvi dəstək veririk, sizin üçün mənəvi dayağıq. Bütün bu amillər Ermənistanı faktiki olaraq öz işğalçılıq siyasətində daha da gücləndirirdi. Ancaq onlar bir şeyi hesablaya bilməmişlər: o da Azərbaycan xalqının iradəsi, milli ruhu, xalqımızın əyilməz ruhu və bu torpağa olan bağlılığımız".**

*(ardı 10-cu səhifədə)*

## Azad Qarabağ "ağıllı" layihələrlə dirçəldilir

**Prezident İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə əldə edilən tarixi Qələbədən sonra işğaldan azad olunan ərazilərimizdə dövlət səviyyəsində həyata keçirilən bərpa və yenidənqurma işləri regionun simasını dəyişir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən bu irimiqyaslı layihələr təkcə infrastrukturun bərpasını deyil, həm də milli kimliyin, tarixi yaddaşın və sosial rifahın bərpasını əhatə edir. Tariximizə, mədəniyyətimizə, iqtisadi və sosial inkişafımıza əsaslanan bu Böyük Qayıdış modeli gələcək nəsillərə güclü və müasir Qarabağ mirası qoyur.**



Bu proses yalnız dövlət siyasəti deyil, həm də milli ruhun, birliyin, dözümlülüyün və inkişaf strategiyasının təcəssümüdür. Azərbaycanın bu tarixi qayıdışı artıq reallıqdır və bu reallıq Prezident İlham Əliyevin siyasi iradəsi, qətiyyəti və uzaqgörənliyinin nəticəsidir.

İşğal dövründə erməni vandalizminə məruz qalan mədəni irsimizin bərpası bu gün ölkə rəhbərliyinin diqqət mərkəzindədir. Dövlətimizin başçısı dəfələrlə bəyan edib ki, Azərbaycanın tapdaq altından xilsas olunan torpaqlarında xalqımızın çoxəsrlik tarixi və mədəniyyəti yenidən dirçələcək. Bu məqsədlə Şuşada Yuxarı və Aşağı Gövhər Ağa məscidləri, Saatlı məscidi, Mehmandarovların malikanə kompleksi, Natəvanın evi, həmçinin Ağdam və Zəngilan məscidləri bərpa olunaraq xalqın ixtiyarına verilib. Bu prosesdə əsas məqsəd təkcə abidələrin restavrasiyası deyil, həm də həmin yerlərin əvvəlki funksiyasının – mədəni və dini mərkəz kimi fəaliyyətinin bərpasıdır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın mayın 9-da Şuşa rayonunun Daşaltı kənd məscidinin açılışında iştirakları isə dövlətimizin başçısının işğaldan azad olunmuş ərazilərdə maddi-mədəniyyət abidələrimizin, dini ocaqlarımızın bərpası və yenilərinin tikilməsi ilə bağlı verdiyi tapşırıqların uğurla davam etdirilməsindən xəbər verir.

*(ardı 9-cu səhifədə)*



## Qlobal güc paritetinin dəyişən koordinatları

Səhifə ⇨ 12

# Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 21 fevral tarixli 535 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 21 fevral tarixli 535 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 234 (Cild I); 2024, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş "İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyası haqqında Əsasnamə"nin 5.15-ci bəndinin ikinci cümləsi çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 may 2025-ci il**

# "İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 29 mart tarixli 3851 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 29 mart tarixli 3851 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 3, maddə 571 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

**1** 1-ci hissə aşağıdakı redaksiyada verilsin:

"1. Aşağıdakı tərkibdə İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyası (bundan sonra – Komissiya) yaradılsın:

**Komissiyanın sədri**

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri

**Komissiyanın üzvləri:**

Azərbaycan Respublikası daxili işlər nazirinin müavini
Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini
Azərbaycan Respublikası müdafiə nazirinin müavini
Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini
Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini
Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti rəisinin müavini
Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti rəisinin müavini
Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidmətinin rəisi".

**2** 2-ci hissədə "Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinə" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə" sözləri ilə əvəz edilsin.

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 may 2025-ci il**

# Prezident İlham Əliyev PKK terror qruplaşmasının özünü ləğv etməsi ilə əlaqədar Türkiyə xalqını təbrik edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev PKK terror qruplaşmasının özünü ləğv etməsi ilə əlaqədar Türkiyə xalqını təbrik edib.**

Dövlətimizin başçısı "X" sosial şəbəkə hesabında bununla bağlı etdiyi paylaşımda bildirib: "Başda əziz Qardaşım, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan olmaqla bütün qardaş Türkiyə xalqını PKK terror qruplaşmasının özünü ləğv etmək və silahı yerə qoymaq qərarı münasibətilə ürəkdən təbrik edirəm.

Əziz Qardaşımın bəyan etdiyi "Terrorsuz Türkiyə" hədəfinə çatmaqda vacib mərhələ olan bu hadisə dövlətçilik yolunda ölkədə aparılan qətiyyətli siyasətin nəticəsi, güclü liderliyin və sarsılmaz iradənin, milli birliyin və həmrəyliyin təntənəsidir.

Alınmış qərarın tam icrası istiqamətində Türkiyə dövlətinə və xalqına uğurlar arzulayıram".

***AZƏRTAC***

# A.M.Şirinovun Azərbaycan İlahiyyat İnstitutunun rektoru təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.13-cü bəndinə uyğun olaraq **qərara alıram:**

Aqil Muxtar oğlu Şirinov Azərbaycan İlahiyyat İnstitutunun rektoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 may 2025-ci il**

# Avropa Komissiyası rəsmisi ilə görüş



**Azərbaycan Respublikasının İqtisadiyyat naziri Mikayıl Cabbarov Avropa Komissiyasının Qonşuluq və Genişlənmə Danışıqları üzrə baş direktoru Gert Yan Koopman ilə görüşüb.**

Görüşdə müasir yanaşmaların tətbiqi, yaşıl və rəqəmsal inkişafa keçidin sürətləndirilməsinin önəmi qeyd olunub.

Müzakirələrdə, həmçinin dayanıqlı həllər istiqamətində tərəfdaşlığın əhəmiyyəti vurğulanıb.

***XQ***

# Energetika nazirinin vətəndaş qəbulu



**Energetika naziri Pərviz Şahbazov nazirlikdə vətəndaşların müraciətlərini dinləyib.**

Aidiyyəti struktur bölmə rəhbərlərinin iştirakı ilə təşkil edilmiş görüşdə Bakı şəhəri, Biləsuvar və Kürdəmir rayonlarından olan vətəndaşların elektrik dirəklərinin istismar vəziyyəti, enerji verilişində fasilələr, enerjidən istifadəyə görə borcun yaranması, tikintiyə icazə rəyi, işlə təminat və digər məzmunlu müraciətləri dinlənilib, qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həlli üçün müvafiq tapşırıqlar verilib.

***XQ***

# Ceyhun Bayramov Bəhreyndə

**Mayın 12-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Bəhreyn Krallığına rəsmi səfəri çərçivəsində bu ölkənin vəliəhdi və Baş naziri Salman ibn Həməd ibn İsa Əl-Xəlifə ilə görüşüb.**



Görüşdə Azərbaycan-Bəhreyn ikitərəfli və çoxtərəfli əməkdaşlığının hazırkı durumu, ikitərəfli və çoxtərəfli münasibətlərin inkişaf perspektivləri, habelə regional və beynəlxalq vəziyyət müzakirə olunub.

Ceyhun Bayramov göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkür edib, bugünkü səfərin iki ölkə arasında əməkdaşlığın inkişafına töhfə olacağına dair ümidvarlıq ifadə edib. Ölkələrimiz arasında ali və yüksək səviyyədə siyasi dialoqun səviyyəsindən məmnunluq ifadə olunub, bu dinamikanın iqtisadiyyat, ticarət, investisiyalar, turizm, logistika, informasiya və kommunikasiya texnologiyaları üzrə konkret təşəbbüslər vasitəsilə daha da inkişaf etdirilməsinin vacibliyi vurğulanıb.



Gələn ilin Azərbaycan və Bəhreyn arasında diplomatik münasibətlərin 30 illiyi ilə əlamətdar olacağı məmnunluqla qeyd edilib, bu illər ərzində münasibətlərimizin əsaslandığı prinsiplərin bundan sonra da əməkdaşlığımızın inkişafında rəhbər tutulmasının əhəmiyyəti diqqətə çatdırılıb.

*

**Həmin gün xarici işlər naziri Ceyhun Bayramov Bəhreyn Krallığının Şura Məclisinin sədri Əli bin Saleh Al Saleh ilə də görüşüb.**

Görüşdə Azərbaycan–Bəhreyn əməkdaşlığının parlamentlərarası müstəvidə inkişafı və davam etdirilməsi imkanları, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

İki ölkə arasında dostluq, qardaşlıq, qarşılıqlı hörmətə və anlayışa əsaslanan ikitərəfli, həmçinin çoxtərəfli münasibətlərin daha da inkişaf etdirilməsi, xalqlarımız arasında bağların daha da gücləndirilməsi istiqamətində parlament diplomatiyasının, qanunvericilik orqanlarının üzvləri arasında qarşılıqlı səfər və mübadilələrin genişləndirilməsinin əhəmiyyəti qeyd olunub.

Azərbaycanla Bəhreyn arasında BMT, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı kimi platformalarda əməkdaşlıq məmnunluqla qeyd edilib. Azərbaycanın Qoşulmama Hərəkatı çərçivəsində təsis olunmuş Parlament Şəbəkəsinə Bəhreyn tərəfindən göstərilən dəstəyə, habelə Parlament Şəbəkəsinin 2-ci iclasının Manamada müvəffəqiyyətlə təşkilinə görə təşəkkür ifadə edilib.

*

**Dünən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Bəhreyn Krallığının xarici işlər naziri Əbdüllətif bin Rəşid Əlzəyani ilə də görüşüb.**

Nazirlər arasında baş tutan təkbətək görüş daha sonra hər iki tərəfdən nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib.

Görüş zamanı Azərbaycan ilə Bəhreyn arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri, münasibətlərin perspektivləri, həmçinin regiondakı və beynəlxalq inkişaflar müzakirə olunub.

Növbəti il Azərbaycan və Bəhreyn arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunacağı məmnunluqla qeyd edilib, bu illər ərzində bir sıra sahələr üzrə qarşılıqlı faydalı əməkdaşlığın, o cümlədən çoxtərəfli platformalar çərçivəsində göstərilən qarşılıqlı dəstəyin və həmrəyliyin əhəmiyyəti vurğulanıb.

Əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində mövcud potensialdan istifadə olunmasının, habelə bu xüsusda qarşılıqlı yüksəksəviyyəli səfərlərin və görüşlərin intensivləşdirilməsinin, Xarici İşlər nazirlikləri arasında mütəmadi siyasi məsləhətləşmələrin aparılmasının və ikitərəfli hüquqi bazamızın zənginləşdirilməsinin vacibliyi qeyd edilib.

Görüş zamanı Yaxın Şərqdə vəziyyət də geniş müzakirə edilib.

***XQ***

# Siz mənə “dayanma!” deyirdiniz

## Prezident İlham Əliyev düşmən üzərində zəfər və tam qələbədə lider–xalq tandemini belə xatırladı

**Qürurdan kövrəlmək onun özü qədər möhtəşəm hissdir – desək, yəqin yanılmarıq. Qismətimizdə bu cür tarixi məqama şahidlik etmək də var imiş. Bu duyğusallığın ifadəsini işğalçı düşmən üzərində Zəfərin müəllifi olan ölkə rəhbərinin, Ali Baş Komandanın timsalında görməyin özü də qürurverici anlar idi. Azərbaycan tamaşaçısının mayın 10-da mavi ekrandan izlədiyi bu epizod onların və tarixin yaddaşına yazılacaq unudulmaz an idi. Prezident İlham Əliyevin Ağdamın Kəngərli kəndinə köçən sakinlərlə görüşündə dediyi bu səmimi sözlər yurd həsrəti sona çatmış bir valideynin – atanın qəlbindən qopan hisslərin ifadəsi idi: “Əlbəttə, Ali Baş Komandan, bütün əməliyyatlara və bütün işlərə rəhbərlik edən şəxs kimi mənim də payım var. Təbii olaraq, hər birimizin. Çünki xalq arxamda durmasaydı, əgər müharibə dövründə hər hansı bir tərəddüd hiss olunsaydı, yaxud da ki, cəmiyyətdə hər hansı bir fikir ayrılığı olsaydı, bu Qələbəni belə şəraitdə, belə ağır vəziyyətdə qazanmaq mümkün olmazdı. (pauza) ...Şəhidlər dəfn olunurdu, şəhidlərin anaları, ataları, yaxınları deyirdilər ki, dayanma! Bilirsiniz bu nədir?!”. Bunun nə demək olduğunu həm müəllifin özü, həm də Azərbaycan xalqı yaxşı bilir.**



### Qələbəni şərtləndirən “üçlüy”ün vəhdəti

Dövlətimizin başçısının nida işarəli “Siz mənə “dayanma” dediniz!” kəlamının altında nələrin dayandığını 30 ilini doğma Qarabağsız keçirmiş, gözləri yolda, qulaqları xoş xəbərə möhtac qalmış təkcə məcburi köçkünlərimiz deyil, bütün Azərbaycan xalqı yaşayıb, bilir və hiss edir. Çıxışının davamında “dayanma!”nın başqa adının vətənpərvərlik və milli birlik olduğunu zərgər dəqiqliyi ilə izah edən Prezidentin dörd il yeddi ay bundan əvvəl o barıt qoxulu günlərdə canından çox sevdiyi xalqına arxalandığını, yağı üzərində tam və mütləq qələbənin məhz bunun sayəsində əldə edildiyini bildirməsi dünyaya ünvanladığı növbəti mesajı kimi qəbul oluna bilər.

Bəli, biz yalnız irəli getməli idik. Bunu bizdən Xocalıda, Bağanıs-Ayrımda, Başlıbeldə süngüyə keçirilən, tonqalda yandırılan körpələrin ah-naləsi, qayadan atılan qız-gəlinlərimizin, Kəlbəcərdə diri-diri basdırılan soydaşlarımızın fəryadı tələb edirdi. Biz Birinci Qarabağ savaşında şəhid olmuş oğullarımızın qisasını mütləq almalı idik. Bakıda, bölgələrdə hərbi komissarlıqların qapılarını döyəcləyən, cəbhəyə can atan, Qarabağ uğrunda ölümə getməyə hazır, “Öncə Vənəndir!” hayqıran gənclərin qarşısında dayanmaqmı olardı? Xeyr! Ali Baş Komandan özündən çox özgələrə arxalanmış Ermənistan rəhbərliyinin danışıqlarda Heydər Əliyevə, sonradan özünə qarşı aşağıdan-yuxarı baxmalarını, saymaz və ironiyalı davranışlarını necə unuda bilərdi? Bunları unutmaq və qarşısında dayanmaqmı olardı?

Abad Kəngərlidə rahat və xoşbəxt yaşayacaq sakinlərlə söhbətində Prezident İlham Əliyev Xalq–Lider–Ordu birliyinin Zəfəri şərtləndirdiyini vurğulamağı unutmadı: “Bunlar cəmiyyətdə birmənalı qəbul edilir: siyasi iradə, iqtisadi güc, müstəqil siyasət, güclü Ordu, vətənpərvərlik və gənc nəsil – milli ruhda tərbiyə olunan, bu torpaqları heç vaxt görməyən gənc nəsil. Bu torpaqları heç vaxt görməyənlərin, müharibədə iştirak edənlərin əksəriyyəti işğal dövründə doğulmuş insanlar idi. Onları doğma torpağa çəkən o tarixi bağlar – bütün bu və digər amillər bizim Qələbəmizi şərtləndirdi və biz mütləq və tam Qələbə qazandıq. Nə bizdən qabaqkı onilliklər ərzində, nə bizdən sonrakı dörd il yarım ərzində heç kim mütləq və tam Qələbə qazanmamışdı və elə görünür ki, qazanmayacaq. Bunu mən müqayisə üçün demirəm. Amma dünyada hər şey müqayisə ilə ölçülür”.

Ali Baş Komandan təvazökarlıq göstərərək, dörd il yeddi ay əvvəlki tarixi hadisəni ona qədərki on illərlə müqayisə edir. Amma tarix və xalqımız şahiddir ki, İlham Əliyev son iki yüz ildə millətimizin boynuna kəndir kimi dolandırılmış erməni separatizminin Qarabağda kökünü kəsmiş, 30 il yağı tapdağında qalmış yeddi rayonumuzla yanaşı, Xankəndiyə də üçrəngli bayrağımızı sancmış ilk və sonuncu milli liderdir. Düşünürük ki, qarabağlılarla budəfəki görüşdə müzəffər Prezidenti kövrəldən bəlkə də başlıca səbəb məhz bu tarixi xidmətinin miqyasını diplomat fəhmi ilə duyması və fəxr etməsidir. Bununla, o, ən həssas məqamlarda belə ali insani keyfiyyətləri gözləməyi bacaran yüksək mənəviyyata malik istedadlı strateq olduğunu bir daha nümayiş etdirdi.

### Ləyaqətli xalqla düşmən də hesablaşır

Nə gizlədək, Prezident İlham Əliyevin Ağdam görüşlərində qəlbləri riqqətə gətirən epizodlar, məqamlar az olmadı. Hesab edirik ki, onun şəhid anaları, qazilərlə səmimi dialoqu Qarabağı heç vaxt görməyən gənc nəsil üçün çox qiymətli örnəyə, heç vaxt unudulmayacaq xatirəyə çevriləcək. Dövlətimizin başçısının bu gün Azərbaycan xalqı ilə onun düşmənlərinin belə hesablaşmağa məcbur olmaları barədə dedikləri isə təkcə yaddaşlara yox, tarix kitablarına yazılmağa layiq mesaj idi: “Biz 44 gün ərzində hər gün irəli gedirdik, hər gün itkilər verirdik, şəhidlər verdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Hər gün yeni uğurlar əldə edirdik, hər gün hansısa kəndləri azad edirdik. Bu, bizə əlavə ruh verirdi, əlavə güc verirdi. Xalqımız tam birləşdi. Bu, mənə Ali Baş Komandan kimi əlavə mənəvi ruh verirdi. Bu, bizim hamımızın Qələbəsidir. Azərbaycan xalqı bu Qələbəni əldə etməklə öz tarixi böyüklüyünü bütün dünyaya nümayiş etdirdi. Təsadüfi deyil ki, Azərbaycana dünyada olan münasibət, – hətta bizimlə düşmənçilik edən dairələr, qüvvələr, ölkələr bilirlər ki, biz ləyaqətli xalqıq, hörmətə layiq olan xalqıq və bizimlə hesablaşmaq lazımdır. Ən azı, yaşadığımız bölgədə bizimlə bu gün hesablaşmayan sabah peşman olur”.

Bəli, tərəddüdə, fikir ayrılığına zərrə qədər yer olmayan həmin günlərdə Ali Baş Komandan sərkərdə dəqiqliyi ilə hazırladığı qurtuluş savaşının hər gününün xronologiyasını şəxsən özü xalqa çatdırırdı. Bu xronologiya isə bir qayda olaraq, Azərbaycan əsgərinin növbəti şəhər, qəsəbə və kəndlərimizi işğaldan azad etdiyi barədə Qələbə soraqlı xəbərlərlə zənginləşirdi.

### Arzuları çin olanın sevinmək haqqı

...Bakı, 8 noyabr 2020-ci il. Ali Baş Komandan müzəffər Ordumuzun Şuşanı işğaldan azad etməsi barədə xoş müjdəni canlı efirdə xalqı çatdırır: “Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!!” – nidasından sonra sevincdən kövrəlməsi ilə bütün xalqa eyni hissi yaşatmışdı. Bu fakta 44 günlük müharibədə Azərbaycana mənəvi dəstəyini bir an belə əsirgəməyən qardaş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan da biganə qalmamış, duyğularını şairanə tərzdə ifadə etmişdi: “Şuşanın dağlarının başındakı duman artıq dərdli deyil. Girov qalmış Xarı bülbül artıq azaddır və daha gözəl açacaqdır. Köndələnçay artıq daha coşqun axacaq. Araz nəğməsini daha güclü oxuyacaq. Qarabağ şikəstəsini oxuyan nəfəslər daha yüksək, daha güclü olacaqdır”.

Yazımızı Prezident İlham Əliyevin Ağdam Muğam Mərkəzinin açılışına həsr olunan konsert proqramından sonra incəsənət ustaları və müharibə veteranları ilə söhbətində dediyi sözlərlə yekunlaşdırırıq: “Qarabağda, Azərbaycanın hər bir guşəsində qoy həmişə toy-bayram olsun!”.

***İmran BƏDİRXANLI***
***XQ***

# Zəfərin Ağdamından İrəvana mesajlar

## Xalq–dövlət vəhdətinin Qarabağ əzmi

**(əvvəli 1-ci səhifədə)**

Əlbəttə, Ermənistan və havadarları peşmandırlar. Amma, bir qayda olaraq, onlar bu hissi sonradan yaşayırlar. Atalarımız isə yaxşı buyurub ki, sonrakı peşmançılıq fayda verməz. Fayda vermədiyi üçün Ermənistanın itkiləri çoxdur və çoxalmaqdadır. Çünki peşmanlıqları ani hissdir. Onlar təhlükə azacıq sovuşan kimi avantürizmə qapılırlar. Bu gün də eyni “ampluadadırlar”. Ona görə də Prezident İlham Əliyev keçmişi xatırladaraq belə bir mesaj verir: “İşğal dövründə – 30 il ərzində biz hər gün bu müqəddəs azadlıq gününü yaxınlaşdırırdıq. Hər birimiz öz iş yerində vahid amal uğrunda birləşərək, azadlıq üçün, azadlıq müharibəsi üçün yorulmadan çalışırdıq. Bütün cəmiyyət bir amal uğrunda birləşəndə o cəmiyyət böyük işlərə qadirdir. Heç bir qüvvə xalq qarşısında dura bilməz. Xalqımızın böyüklüyü məhz bundadır. Biz açıq-aydın başa düşürdük və görürdük ki, hansı qüvvələr Ermənistana dəstək verir, hansı qüvvələr onların arxasındadır, hansı qüvvələrlə biz üz-üzə gələ bilərik və gəlmişik də. Amma bu, bizi çəkindirmədi. Artıq biz “öldü var, döndü yoxdur” şüarı ilə yaşayırdıq və 44 günlük Vətən müharibəsi həm peşəkarlıq, həm qəhrəmanlıq, həm milli ruh salnaməsidir”.



Prezident İlham Əliyev Ağdamda 44 günlük müharibəyə doğru gedən yolun heç də rəvan olmadığını da vurğulayıb. Dövlətimizin başçısı üzləşdiyimiz çətinlik və məhrumiyyətləri sadalayıb, onların aradan qaldırılması yolundakı cəhdlərimizin müxtəlif təzahürləri üzərində dayanıb. Hesab edirik ki, ölkəmizin liderinin mövcud istiqamətdə bildirdikləri də haylara dərs olmalıdır. Onlar Azərbaycanın müasir dünyada heç bir dövlətin görə bilməyəcəyi işi reallaşdırdığının fərqində olmalıdırlar. Fərqində olmalı və ölkəmizin müəyyənləşdirdiyi sülh gündəliyindən faydalanmalıdırlar: “Nə bizdən qabaqkı onilliklər ərzində, nə bizdən sonrakı dörd il yarım ərzində heç kim mütləq və tam Qələbə qazanmamışdır və elə görünür ki, qazanmayacaq”.

Azərbaycan hərbçiləri faşizm üzərində qələbənin 80 illiyi ilə bağlı mayın 9-da Moskvada baş tutmuş təntənəli paradda qalib ölkənin hərbçiləri olaraq keçid etdilər. SSRİ-nin varisi kimi Rusiyadan sonra belə bir mütləq müzəffərliyə heç bir dövlət nail ola bilməyib. Paradı Qırmızı meydanda seyr edən Ermənistanın baş naziri Nikol Paşinyan bunu düşünməlidir. Ən çox da ölkədəki revanşist və şovinist kəsim mövcud məqamı nəzərə almalıdır. Prezident İlham Əliyevin bildirdiyi kimi, dünyada hər şey müqayisə ilə ölçülür. “Biz 44 gün ərzində hər gün irəli gedirdik, hər gün itkilər verirdik, şəhidlər verirdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Hər gün yeni uğurlar əldə edirdik, hər gün hansısa kəndləri azad edirdik. Bu, bizə əlavə ruh verirdi, əlavə güc verirdi. Xalqımız tam birləşdi. Bu, mənə Ali Baş Komandan kimi, əlavə mənəvi ruh verirdi. Bu, bizim hamımızın Qələbəsidir. Azərbaycan xalqı bu Qələbəni əldə etməklə öz tarixi böyüklüyünü bütün dünyaya nümayiş etdirdi. Təsadüfi deyil ki, Azərbaycana dünyada olan münasibət, – hətta bizə düşmənçilik edən dairələr, qüvvələr, ölkələr bilirlər ki, biz ləyaqətli xalqıq, hörmətə layiq olan xalqıq və bizimlə hesablaşmaq lazımdır. Ən azı yaşadığımız bölgədə bizimlə bu gün hesablaşmayan sabah peşman olur”.

Ermənistan və havadarları otuz ildən də artıq müddətdə özləri üçün saxta müqəddəslik uydurdular, “Artsax” deyib dünyaya olmayan həqiqətlərini sırımağa çalışdılar. Gün gəldi, həmin “Artsax” onsuz da sonu ölüm olacaq aqibətini yaşadı. Prezident İlham Əliyevin bildirdiyi kimi: “Əlbəttə ki, biz 2020-ci il noyabrın 10-dan 2023-cü il sentyabrın 20-nə qədər yenə də hər gün, hər saat siyasi, diplomatik, hərbi və digər alətləri işə salaraq bax bu günü - 20 sentyabr gününü yaxınlaşdırırdıq. Nəhayət 2023-cü il sentyabrın 20-də Azərbaycanın dövlət suverenliyi tam bərpa edildi və 30 il ərzində qanunsuz fəaliyyət göstərən dırnaqarası “Dağlıq Qarabağ Respublikası” artıq tarixin zibilxanasına göndərildi”.

Prezident İlham Əliyev Ağdamdakı çıxışında azad Qarabağda yaşadığımızı xüsusi vurğuladı. Hesab edirik ki, dövlətimizin başçısı bu məqamı qabartması da Ermənistan və havadarlarına mesajdır. Axı azad Qarabağ ruhu təkcə müharibə və döyüş əzmində yaşamır: “Bu gün Ağdam və bütün digər şəhərlərimiz bərpa edilir. Bu gün səhər Ağdam dəmir yolu vağzalının açılışını qeyd etdik. Bakıdan, Gəncədən, digər bölgələrdən Ağdama rahat gəlmək üçün indi gözəl imkanlar var. Eyni zamanda, biz Ağdam–Xankəndi dəmir yolunun bərpası istiqamətində işlərə başlamışıq və yəqin ki, bir il yarım, maksimum iki il ərzində Xankəndi şəhərində vağzal kompleksi tikiləcək. Bildiyiniz kimi, artıq Xankəndidə Qarabağ Universiteti fəaliyyət göstərir, 8 mindən çox insan yaşayır və eyni zamanda, Xankəndidən, həmin o vağzal kompleksindən Şuşaya gedən yol qısalır. O yolu da biz qısaldırıq. Həm genişləndiririk, həm qısaldırıq ki, maksimum 10 dəqiqə ərzində Xankəndidən Şuşaya gəlmək mümkün olsun. Bir fikrimiz də var. Onu ilk dəfə mən ictimaiyyətlə bölüşürəm. Biz Şuşanı Xankəndi ilə birləşdirən “Kanat yolu” layihəsi üzərində işləyirik. Onu da bildirməliyəm ki, Laçın şəhərində kanat yolunun tikintisinə yəqin ki, bu il başlanılacaq. Kəlbəcərdə də belə layihə var. Yəni ki, bu, həm turizm baxımından, həm insanların rahat gediş-gəlişi üçün çox gözəl bir vasitə olacaq”.

Sonda Prezident İlham Əliyevin diqqətə çatdırdığımız fikirləri fonunda onu da bildirək ki, hazırda Ağdam, bütövlükdə Qarabağ böyük bir tikinti meydançasını xatırladır və bu barədə Ermənistanda da söz açılır, etiraflar edilir. Nəzərə alaq ki, işğal illərində haylar Qarabağda ancaq qarətlər və talanlar törətdilər. Bir daşı daş üstə qoymadılar, bir ağacı belə sulamadılar. Onu da nəzərə alaq ki, dövlətimizin başçısının Ağdamdakı çıxışı əzmimizin, iradəmizin, qətiyyətimizin və prinsipiallığımızın ayrı-ayrı təzahür formaları ilə zəngindir. Bu əzmdə güclü və qüdrətli Azərbaycan dövlətini canlandıran zənginlik var.

***Ə.CAHANGİROĞLU***
***XQ***

Günün sözü

# 1994-cü ildə atəşkəs hər iki tərəf üçün sərfəli idi

## *Bizə ordumuzu gücləndirmək, Ermənistana isə "işğalı xalqımıza qəbul etdirmək" üçün...*

**Mayın 10-u həm Ulu öndərin dünyaya gəldiyi tarix, həm də Ağdam Muğam Mərkəzinin açılışı təntənəsini yaşadığımız gün olduğuna görə dövlət başçımız erməni xislətinin çirkin rəngləri barədə o qədər də açıq danışmaq istəmədi. Eləcə doxsanıncı illər Azərbaycanının sosial-siyasi mənzərəsini xatırlarmaqla kifayətləndi: "O günləri yaşayan insanlar bunu çox yaxşı xatırlayırlar. Ölkə, demək olar ki, idarəolunmaz vəziyyətdə idi. Ölkədə özbaşınalıq, xaos, anarxiya hökm sürürdü. İqtisadiyyat iflic vəziyyətdə, torpaqlarımız isə işğal altında idi və işğal davam edirdi. Ermənistan xarici dəstək ilə Azərbaycana qarşı öz işğalçılıq siyasətini həyata keçirirdi. Nizami ordu, demək olar ki, yox idi. Belə bir böhranlı vəziyyətdə – daxili çəkişmələr, müxtəlif bölgələrimizdə xoşagəlməz hadisələr baş verdiyi bir dövrdə xalqın tələbi ilə Ulu öndərin hakimiyyətə gəlməsi bizim üçün nicat yolunu açdı və o vaxtdan bu günə qədər Azərbaycan inkişaf yolu ilə gedir".**



**O vaxt müharibəni dayandırmaq gənc dövləti xilas etmək üçün yeganə yol idi. Ağır bir qərar idi. Torpaqlarımızın böyük hissəsi işğal altında idi, bir milyondan çox insan evsiz-eşiksiz qalmışdı. Ancaq müharibə dayanmasaydı, biz daha böyük faciə ilə üz-üzə qala bilərdik. Bu, çox müdrik, amma çətin qərar idi. Bu, bizə imkan verdi ki, Azərbaycan inkişaf yoluna qədəm qoysun. İmkan verdi ki, sabitlik bərpa edilsin, nizami ordu qurulsun, iqtisadi inkişaf üçün ilkin imkanlar yaransın...**

**Azərbaycan Prezidenti**
**İlham Əliyevin Ağdam Muğam**
**Mərkəzinin açılışındakı çıxışından**
**10 may 2025-ci il**

Ancaq cənab Prezident 2020-ci il oktyabrın 16-da Türkiyənin "A Haber" televiziya kanalına verdiyi müsahibədə erməni xislətinin iyrəncliklərini məhz olduğu kimi xarakterizə etmişdi. Qardaş ölkədən olan həmkarımız 44 günlük İkinci Qarabağ müharibəsinin ikinci ongünlüyü başa çatmamış ermənilərin atəşkəs təklifi ilə müraciət etməsinin siyasi mahiyyətini öyrənmək istəmişdi: "Cənab Prezident, 1993-cü ildə, xüsusilə noyabr ayında yenə o dönəmdə atəşkəs elan edilmişdi. Atəşkəsi yenə Ermənistan pozmuşdu, qətliamlar törətmişdi. İndi baxdığımız zaman atəşkəsi pozan yenə Ermənistandır. Bu atəşkəslə Azərbaycan Ordusunun irəliləyişinin dayandırılmasımı istənilir?

Fikrimizcə, Prezidentin bu sualı cavablandırarkən səsləndirdiyi arqumentlər erməni xarakterinin açılması baxımından olduqca dəyərli bir mənbədir. Cavab belə idi: "Bilirsiniz, bu, onların taktikasıdır. Atəşkəsi istəyən Ermənistan oldu. Onlar görəndə ki, artıq döyüş meydanında işğal edilmiş torpaqları qoruya bilmirlər, onları saxlaya bilmirlər... atəşkəs üçün müraciət etdilər. Bizə də belə müraciət gəldi, – bilirsiniz ki, Rusiya bu missiyanı öz üzərinə götürmüşdür, – biz də dedik ki, humanitar məqsədlər üçün, cəsədlərin dəyişdirilməsi, əsirlərin dəyişdirilməsi üçün atəşkəs elan oluna bilər. Amma, eyni zamanda, Moskvanın açıqlamasında göstərildi ki, müzakirələr mahiyyət üzrə bərpa edilməlidir. Həmçinin müzakirələrin formatı da dəyişməz qalmalıdır. Ancaq görünür ki, onlar bu atəşkəsdən istifadə etmək istəyiblər, bir gün keçməmiş Gəncəyə bu namərd hücumu təşkil etdilər. Ondan sonra bizim digər şəhərlərimizi vurmağa başladılar və faktiki olaraq bu atəşkəsi kobudcasına pozdular. Ona görə, bu, onların taktikasıdır. Görünür, onlara bu atəşkəs ona görə lazım idi ki, öz qüvvələrini toparlasınlar, səfərbərlik tədbirləri görülsün və bizə yeni hücum təşkil edilsin".

Yəni ermənilər tarix boyu belə şərəfsiz, riyakar və namərdcəsinə yaşayıblar. Əgər buna yaşamaq demək olarsa. Onlar 1994-cü ilin may ayında imzalanan atəşkəsi işğalı əbədiləşdirmək və işğal olunmuş ərazilərin qarət edilməsini başa çatdırmaq üçün möhlət kimi qəbul edirdilər. Həmin məqsədlərinin birinci bəndinə çata bilməsələr də, ikinci bəndini tamamilə "həyata keçirdilər". Yəni işğal etdikləri ərazilərin hamısını qarət və talan edərək dünya tarixinə ən murdar məxluqat kimi düşdülər. Halbuki, hamının lənətlədiyi alman faşistləri işğal etdikləri ərazilərdə heç vaxt dağıntı törətməmişdilər. Ermənilər isə işğal edilmiş Azərbaycan ərazisindən vəhşi qəbilə kimi, qaniçənlər sürüsü şəkilində keçmişdilər. Elə ona görə də indi regiona gələn dünya səyyahları, siyasətçi, diplomat və jurnalistlər Ağdamda "Qafqazın Xirosiması"nı görərək dəhşətə gəlirlər.

Bəs Azərbaycan 1994-cü il atəşkəsindən necə bəhrələnmişdi? Ulu öndər Heydər Əliyev 1997-ci il oktyabrın 15-də Azərbaycan Respublikasının Hərbi təyyarəçilər məktəbinin ilk buraxılışına həsr olunmuş təntənəli mərasimdəki çıxışında demişdi ki, biz son illər, xüsusən Ermənistan – Azərbaycan münaqişəsində atəşkəs əldə ediləndən sonra yaranmış şərait nəticəsində respublikamızın ordusunun, silahlı qüvvələrinin yaradılması ilə ciddi məşğul olmağa imkan əldə etdik: "Eyni zamanda, Azərbaycan Silahlı Qüvvələrinin tərkibinə ilk illərdə soxulmuş və silahlı qüvvələrimizi içəridən dağıtmağa, parçalamağa, ölkəmizin milli mənafelərinə zərər vurmağa cəhd edən dəstələr, qüvvələr artıq zərərsizləşdiriliblər... Bizim müstəqilliyimizə qısqanclıq edən, bəlkə də daha doğru olar desəm ki, bu müstəqilliyimizi pozmaq istəyən xarici və daxili qüvvələr hələ mövcuddur. Ona görə də biz dövlət quruculuğu işlərini həyata keçirərək, ordumuzun bundan sonra da inkişaf etdirilməsi tədbirlərini həyata keçirərək heç vaxt sayıqlığı itirməməliyik və özümüzü bütün mümkün bəlalardan daim qorumalıyıq".

Bəli, heç kəsin bir qarış torpağına iddiası olmayan, öz torpaqlarının isə bir metrini belə kimlərəsə verməyəcəyini dəfələrlə bəyan etmiş Azərbaycan bədnam qonşularından fərqli olaraq, sülhməramlı, əmin-amanlıq məqsədli istənilən təklifə razılıq verir, qoşulur, bu fürsətdən öz torpağını və dövlətini qorumaq üçün bəhrələnir.

Məhz elə ona görə də daim inkişaf edir, uğurlara imza atır, tərəqqi yolunu davam etdirir. Dövlət başçımız Ağdam Muğam Mərkəzinin açılış mərasimində həmin məqamları daha dürüst şəkildə dilə gətirmişdir: "Biz bütün keçmiş tarixə nəzər salarkən, təbii ki, görürük, nə qədər məqsədyönlü, düşünülmüş addımlar atılmışdır. O addımlar ki, bugünkü Azərbaycan reallıqlarını təmin edir".

Azərbaycan reallıqlarının bir sıra mühüm istiqamətlərini isə 2021-ci il iyunun 15-də Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında Şuşada imzalanan Bəyannamədə gördük. Hər iki ölkənin ümumi maraqlarının möhkəmləndirilməsində bütün imkanların birləşdirilməsinə, eləcə də, müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərinin qarşılıqlı şəkildə əlaqələndirilməsinə istiqamətlənən bu bəyannamə iki qardaş ölkənin – Azərbaycan və Türkiyənin başçılığı altında yeni regional geosiyasi düzənin qurulmasının başlanğıcıdır.

Həmin sənəddəki vacib məqamlardan biri isə hərbi sahədə əməkdaşlıq və müttəfiqliklə bağlıdır. Bəyannamədə qeyd edilir: "İki dövlətin ərazi bütövlüyünə, suverenliyinə üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, bir-birini qoruyacaqlar". Fikrimizcə, həmin müddəanın qeydə alınması bu gün Ermənistandakı seperatçı-revanşist qüvvələrdən tutmuş, ayrı-ayrı qonşu və qeyri-regional dövlətlər üçün çox mühüm ismarıcdır.

Şuşa Bəyannaməsi ilə Türkiyə açıq şəkildə Azərbaycanın ərazi bütövlüyünün pozulması, dövlət sərhədlərinə təhdid kimi halların baş verməsi nəticəsində, öz ordusu ilə ölkəmizin yanında yer alacağını beynəlxalq ictimaiyyətin diqqətinə çatdırır. Müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələlərinin sənəddə əks olunması tarixi nailiyyətdir.

Yəni Avropa müşahidəçilərinin gəlib harada sülənməsinin və ya Ermənistandakı hansısa Qareginin gorbagor olmuş "Artsax" nağılının dirçəldilməsi haqqında sərsəmləməsinin heç bir mənası yoxdur.

Sonda. Biz hansı sazişə nə zaman qoşulacağımızı çox yaxşı bilirik. İstər atəşkəs sazişi olsun, istər də ermənilərin "Bir neçə saatdan sonra" imzamağa hazır olduqlarını dedikləri sülh sazişinə.

*İttifaq MİRZƏBƏYLİ*

# Kristofer Landau: Cənubi Qafqaz xalqlarının sülh şəraitində yaşamaq haqqı var

**"Azərbaycan və Ermənistan arasında sülhü dəstəkləmək düzgün addımdır və bu bizim milli təhlükəsizlik marağımıza uyğundur. Cənubi Qafqaz xalqlarının sülh şəraitində yaşamaq haqqı var. Bu iki dövlət arasında sülh bərpa olunduqdan sonra bizim əməkdaşlığımız daha da vacib hal alacaq. Regionun çiçəklənməsinə və rifahına imkan verəcək".**



Bu cür açıqlamalar rəsmi Vaşinqton tərəfindən tez-tez səsləndirilir. Növbəti belə açıqlama isə ABŞ dövlət katibinin müavini Kristofer Landaudan gəlib: "Mən son günlərdə dövlət katibi Rubionun Hindistan və Pakistan liderləri ilə telefonda əlaqə saxladığının şahidi olmaq şərəfinə nail oldum... ABŞ Prezidenti Donald Tramp və vitse-prezident J.D.Vens öz administrasiyasında hamımıza açıq şəkildə bildirdilər ki, məqsədimiz istər Hindistan və Pakistan, istər Rusiya və Ukrayna, istərsə də İsrail və onun qonşuları, Konqo Demokratik Respublikası və Ruanda, Azərbaycan və Ermənistan və ya digər ölkələr arasında sülhü təşviq etməkdir. Diplomatlar və səmimi desək, insanlar kimi biz bu gün müharibələrin qarşısını almağa və ya dayandırmağa səy göstəririk".

Beləliklə, ABŞ tərəfinin təbirincə, Azərbaycan və Ermənistan arasında uzun illər davam edən münaqişədən sonra sülhün və təhlükəsizliyin təminatı üçün tarixi imkan yaranıb. Bu imkandan da səmərəli istifadə edilməlidir: "Son məqsədimiz bütün bu regionda sülhün, təhlükəsizliyin, hüquqlara hörmətin olmasıdır".

Bəs Azərbaycan və Ermənistan arasında sülh danışıqlarında vəziyyət nə yerdədir? Qeyd edək ki, bu sahədə müəyyən irəliləyişlər olsa da, həllini gözləyən problemlər hələ də var. Hazırda bəzi əsas məsələlər üzrə danışıqları davam etdirilir. Sülh müqaviləsinin imzalanması isə bu danışıqların nəticəsindən asılı olacaq. Bu barədə Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramov jurnalistlərə müsahibəsində deyib ki, bir neçə istiqamət kontekstində martda Azərbaycanla Ermənistan arasında sülh sazişi mətni üzrə danışıqlar yekunlaşıb: "Azərbaycanın Ermənistan tərəfindən bəlli bir gözləntiləri var. Həmin gözləntilər Azərbaycanın ərazi bütövlüyünə olan iddiaların Ermənistan konstitusiyasından çıxarılması, o cümlədən uzun illər tamamilə iflic bir vəziyyətdə olan və münaqişənin tamamlanması ilə məntiqi bir ehtiyac duyulmayan Minsk qrupunun ləğv edilməsidir. Bu istiqamətdə prosesləri izləyirik, təmaslar var. Ancaq bizim üçün önəmli addımlar əhəmiyyət kəsb edir".

Nazirin sözlərinə görə, delimitasiya prosesi ilə bağlı artıq bir neçə təmas olub: "Bildiyimiz kimi delimitasiya üzrə iki ölkənin baş nazirlərinin müavinlərinin rəhbərliyi ilə komissiyalar mövcuddur. İşlər davam edir və düşünürəm ki, orada təmaslar olacaq. Digər istiqamət Azərbaycanın qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat-kommunikasiya xətlərinin açılmasıdır. Burada da Azərbaycanın mövqeyi bəllidir. Biz Ermənistanın üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsini gözləyirik".

Ermənistan tərəfi də sülh müqaviləsinin imzalanması ilə bağlı öz mövqeyini açıqlayıb. Mayın 9-da Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan bəyan edib ki, tezliklə sülh müqaviləsinin imzalanması ilə bağlı xoş xəbər gələ bilər.

Açıqlamalardan da aydın olur ki, Azərbaycan tərəfi sülh müqaviləsinin imzalanması üçün iki önəmli məsələnin həllində maraqlıdır. Bu barədə Milli Məclisin deputatı Elşad Musayev bildirdi ki, sülh sazişinin əldə olunması üçün konkret təkliflər irəli sürüb: "Bu, Cənubi Qafqazda daimi sülhün bərqərar olmasını təmin edəcək addımlardır və onlar Ermənistana yaxşı məlumdur. Birincisi, bu tələb, Ermənistanın öz konstitusiyasından Azərbaycana ərazi iddialarını özündə əks etdirən Müstəqillik bəyannaməsinə istinadın çıxarılmasıdır. Sözsüz ki, Azərbaycan və Ermənistan sülh sazişi layihəsi üzrə razılığa gəlsələr də, bu, sənədin imzalanması qarşısında duran əsas maneədir.

Digər tərəfdən, ərazi iddiası əsas qanundan çıxarılmassa, Ermənistan Azərbaycanla sülh müqaviləsi imzalasa belə, rahat şəkildə konstitusiyasına istinad edərək sənədin ratifikasiyasından imtina edə bilər. Çünki Ermənistan konstitusiyasının 116-cı maddəsinin 3-cü bəndində göstərilib ki, Ermənistanın imzaladığı beynəlxalq sənəd konstitusiya ilə ziddiyət təşkil edə bilməz. Yəni faktiki olaraq Ermənistanla sülh müqaviləsi imzalansa, onun qüvvəsi olmayacaq. Ona görə də yetkin sülh sazişinin imzalanması üçün, Ermənistan konstitusiyasında müvafiq dəyişikliklər edilməlidir. Deməli, konstitusiya dəyişdirilmədən sülh sazişi imzalana bilməz.

İkincisi, ATƏT tərəfindən yaradılmış Minsk qrupunun ləğvidir. Ermənistan tərəfindən artıq fəaliyyətsiz olan ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı da konkret addımların atılması gözlənilir. Bu məsələ konsensusla həll edildiyinə görə, formal olaraq Ermənistanın razılığı olmalıdır. Hərçənd ATƏT-in Minsk qrupu artıq çoxdandır fəaliyyətsizdir, amma formal olaraq mövcuddur. Əgər Ermənistan Qarabağı Azərbaycanın bir hissəsi olaraq tanıyıbsa, Minsk qrupu isə Qarabağ məsələsinin həlli üçün yaradılıbsa, onda o nəyə lazımdır? Yəni Ermənistanın ATƏT-in Minsk qrupunun ləğv edilməsi üçün ATƏT-ə müraciət etməyi istəməməsi onu göstərir ki, revanşistlərin planları kifayət qədər ciddidir. Bu isə o deməkdir ki, Ermənistan sülhə hazır deyil. Havadarları tərəfindən silahlandırılır.

Bəli, İrəvan 2020-ci ildə ağır məğlubiyyətə uğradıqdan sonra yenidən aktiv şəkildə silahlanır. O vaxtdan Ermənistan hərbi büdcəsini tədricən, demək olar ki, iki dəfə artırıb. Məsələn, 2020-ci ildə ölkənin hərbi xərcləri 785 milyon dollar təşkil edib. Bu büdcə 2023-cü ildə 1,3 milyard dollara çatıb və 2024-cü ildə 1,4 milyard dollar olub. Onu da qeyd edim ki, İrəvan real hərbi büdcəsinin 30 faizini gizlədir.

Hayastan üçün əsas silah və hərbi texnika tədarükçüləri isə Rusiya, Fransa və Hindistandır. Son vaxtlar Hindistan daha fəal görünür. Artıq iyulda Nyu-Dehli İrəvana "Akaşh" hava hücumundan müdafiə raket sistemlərinin ikinci partiyasını göndərəcək. 2022-ci ildə Ermənistan Hindistanla təxminən 60 milyard rupi (710 milyon dollar) dəyərində 15 "Akaşh" raket kompleksinin alınmasına dair müqavilə imzalayıb və bu raket sistemini alan ilk xarici ölkə olub. Bu isə o deməkdir ki, Ermənistan silahlanmaya üstünlük verir. Ölkədə revanşizm əhval-ruhiyyəsi artır və onu məhvə doğru aparır".

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin baş məsləhətçisi Mətin Məmmədli** isə XQ-yə dedi ki, Azərbaycanın bütün əraziləri üzərində suverenliyini bərqərar etməsi, uzun illər Qarabağda mövcud olmuş



qondarma – cinayətkar rejimin ləğv edilməsi iki ölkə arasında davam edən danışıqlar prosesində Ermənistan tərəfindən qaldırılan "Qarabağda yaşayan ermənilərin hüquq və təhlükəsizliyi" məsələsi öz aktuallığını itirib. Bakı və İrəvan arasında normallaşma prosesinə töhvə verən amillərdən biri də danışıqların son aylarda vasitəçilərsiz, ikitərəfli müstəvidə aparılması olub. Hazırda iki ölkə arasında sülh sazişinin imzalanmasına mane olan əsas məsələ Ermənistan konstitusiyasında və digər qanunvericilik sənədlərində Azərbaycana qarşı ərazi iddialarını özündə ehtiva edən məqamlardır. Rəsmi Bakının mövqeyi ondan ibarətdir ki, xüsusilə Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları aradan qaldırılmasa iki ölkə arasında sülh sazişi imzalana bilməz. Azərbaycan həm də Ermənistana ATƏT- in Minsk qrupunun buraxılması ilə bağlı birgə müraciət olunmasını təklif edir. Ermənistan Xarici İşlər Nazirliyinin məsələ ilə bağlı verdiyi açıqlamada bildirilir ki, ATƏT-in Minsk qrupunun fəaliyyətinin davam edib-etməyəcəyi məsələsinə Azərbaycanla imzalanacaq sülh müqaviləsi kontekstində baxıla bilər.

Beləliklə, sülh prosesində yaranmış vəziyyət o qənaətə gəlməyə əsas verir ki, iki ölkə arasında sülhün əldə olunması üçün real imkanlar olmaqla bərabər, həm də ciddi problemlər də qalır. Ermənistan hakimiyyəti Azərbaycanın konkret tələbinə qeyri-müəyyən və yaxud neqativ cavab verməklə, o cümlədən də, danışıqlarda yeni əsassız tələblər irəli sürməklə sülh prosesinin ləngiməsinə səbəb olur. Sülh prosesinə mane olan digər amillər isə revanşizm meyilləri fonunda Ermənistanın sürətlə silahlanmasıdır. Eyni zamanda, regionda maraqları və təsir imkanları olan bəzi güc mərkəzləri Ermənistanı şirnikləndirmələri ilə gərginlik yaradırlar.

Nəhayət, Ermənistan hakimiyyəti aydın dərk etməlidir ki, yalnız özünün milli maraqlarını, təhlükəsizliyini nəzərə almaqla, qeyri-konstruktiv, qeyri-rasional yanaşmalardan imtina etməklə Azərbaycanla danışıqlar prosesini uğurla apara və yaxud yekunlaşdıra bilər. İki ölkə arasında davamlı sülhün əldə olunması isə regionda inkişafın, inteqrasiya proseslərinin və güclü təhlükəsizlik sisteminin formalaşmasının əsas şərtidir".

*Pünhan ƏFƏNDİYEV*
*XQ*



# Ümid körpüsü üzərində ucalan sarsılmaz dostluq

**Azərbaycan ümummilli lider Heydər Əliyevin həyatının mənası idi. Doğulub böyüdüyü Naxçıvan onu Azərbaycan sevgisi ilə böyük siyasətə qanadlandırmışdı. Ulu öndər keçən əsrin 90-cı illərində blokada şəraitində yaşayan Naxçıvanın əhalisi ilə birgə ağır, məşəqqətli həyat yaşayanda çıraq işığında, lampa közərtisində Azərbaycanın gələcəyini düşünmüş, müstəqil dövlətimizə vəfa borcunu verməyi qarşısına məqsəd qoymuşdu.**

Bu dahi insanın zamanın ağır sınağı dövründə Əli Naci Tuncərlə qarşılaşması da həmin illərin tale yazısıdır. Sonralar bu dostluğun izi ilə görkəmli dövlət xadimi Əli Naci Tuncəri görmək, onunla söhbət etmək üçün çəkiliş qrupu ilə qardaş Türkiyə Respublikasının paytaxtı Ankara şəhərinə getdim. Əli Naci bəyin iş otağında diqqətimi ilk çəkən divardakı saat oldu. Burada saat Bakı vaxtı ilə işləyirdi. Divardakı tablolar da Heydər Əliyev və Əli Naci Tuncərin münasibətlərinin aynası idi.

Əli Naci Tuncər 1939-cu ildə Trabzonun Çaykara rayonunun Taşören kəndində doğulub. Ankara Universitetinin hüquq fakültəsinin məzunudur. Türkiyənin 10-cu Prezidenti Əhməd Necdət Sezərlə tələbə yoldaşı olub. Doğru Yol Partiyasından Türkiyə Böyük Millət Məclisinə millət vəkili seçilib. Türkiyə Cümhuriyyətinin 9-cu Prezidenti Süleyman Dəmirəlin baş nazir və prezidentlik illərində onun baş məsləhətçisi vəzifəsini icra etmişdir.

Əli Naci Tuncərlə video-müsahibənin mətnini “Xalq qəzeti”nin oxucularına təqdim edirik.



**– Əli Naci bəy, Heydər Əliyevlə necə tanış oldunuz, dostluğunuzun təməl körpüsünü necə və nə vaxt qurdunuz?**

– Mənim ürək dostumun adını tutub gələn hər kəsə könül qapılarım açıqdır. Mən ixtisasca hüquqşünasam. Ankaranın baş prokuroru işləmişəm. Ədliyyə Nazirliyində yetişmişəm. Ali Məhkəmənin üzvü olarkən, o zamankı Doğru Yol Partiyasının rəhbəri olan Süleyman Dəmirəl hələ baş nazir seçilməmişdən əvvəl məni yanına dəvət etdi. O mənə dedi ki, sən seçkilərə qatılacaqsan. Böyük Millət Məclisinə millət vəkili seçilmək üçün namizədliyimi versəm də qalib gəlmək üçün səs toplaya bilmədim. Amma Süleyman Dəmirəlin rəhbərlik etdiyi Doğru Yol partiyasında onunla birgə çalışırdım.

Süleyman Dəmirəl seçkilərdə qalib gəlib baş nazir oldu. Bir gün məni yanına çağırıb dedi ki, sənin Qarsa getməyin lazımdır. Mənim çox hörmətli qonağım – Heydər Əliyevi qarşılayıb, Ankaraya gətirməlisən. Baş nazirin şəxsi təyyarəsi ilə Qarsa gəldim. O zaman Naxçıvan Ali Məclisinin sədri olan Heydər Əliyev haqqında ətraflı məlumat topladım. Öyrəndim ki, bu insan keçmiş Sovetlər Birliyində ən yüksək vəzifələrə yüksəlmiş, hətta Sovet dövlətinin başında duran 3–4 nəfərdən biri, Siyasi Büronun üzvü, DTK generalı olub. Fikirləşdim ki, mən təkrar millət vəkili seçkilərinə qatılsam, Sovet DTK generalı ilə görüşüm seçkilərdə qalib gəlməyimə mane ola bilər. Elə bu səbəbdən təkrar Süleyman Dəmirələ müraciət etdim. Baş nazir dedi ki, Heydər Əliyevi mənim yanıma gətirməyindən mətbuatın xəbəri olmamalıdır. Sən get onu qarşıla, görəcəksən ki, o, necə bir insandır, onu tanıyandan sonra özün ondan ayrılmayacaqsan.

Heydər Əliyevlə birgə Naxçıvanda çıraq işığında görüşümü, onunla bağlı qiymətli xatirələrimi İhsan Doğramacı Vakfının Heydər Əliyev haqqında nəşr etdirdiyi “Böyük dövlət adamı” kitabında qələmə almışam. Bu kitab Heydər Əliyevin anadan olmasının 80 illiyinə həsr olunub.

Beləliklə, mən Heydər Əliyevi Qarsdan Ankaraya gətirdim. Həmin anlar fotolarda əksini tapıb. Otağımın divarlarına baxanlar Heydər Əliyevlə görüşlərimin fotolarda necə əbədiləşdiyini görə bilərlər.

Heydər Əliyevlə ilk dəfə qarşılaşdıqdan sonra ondan ayrılmaq istəmirdim, sanki onu illər idi ki, tanıyırdım. Bu necə bir böyük insan, böyük ürək sahibi imiş?!

Heydər Əliyev həyatın hər üzünü görmüşdü. Qarşısına çıxan çətinliklərə adi bir həyat hadisəsi kimi baxırdı. Sözün böyük mənasında o, başdan-ayağa Həyat idi. Hər dəfə onunla söhbətdən sonra təəccübümü gizlədə bilmirdim: İlahi, insanda bu qədər yaşamaq, yaratmaq eşqi ola bilərmi? Mən onun özünə də deyirdim ki, siz düşüncənin, zəkanın, mənəviyyatın, insanlığın Xəzinəsisiniz! Hər kəlməsində hikmət, aforizm var idi. İnsanın qəlbini oxuyurdu. O, ən yüksək həyatdan ən aşağı yaşama qədər bütün imtahanlardan keçmişdi. Qarşımda həyatın acılarından polad kimi sərtləşən, fəqət sınmayan böyük şəxsiyyət görürdüm. Heydər Əliyevi tanıyıb onu sevməmək mümkün deyildi. Ciddi olanda da, əmr verəndə də, zarafat edəndə də o, Dahi idi.

Heydər Əliyevlə Süleyman Dəmirəlin görüşündən sonra, Naxçıvandakı bütün danışıqlara məni göndərirdilər. Ona görə də, Heydər Əliyevlə çox tez-tez təmasda olurdum.

– “Ümid” körpüsünün layihəsini Heydər Əliyev hazırlamışdı. Bu körpü “Həsrət” körpüsü adını almışdı.

Yadımdadır, Heydər Əliyev Süleyman Dəmirəllə layihəni müzakirə edərkən dedi ki, bu körpü bizi bir-birimizə bağlayacaq. Beləliklə, Naxçıvanla Türkiyə arasında Heydər Əliyevin səyi ilə ilk əbədi körpü tikildi. Təntənəli açılışda mən də iştirak edirdim.

**– Mən də həmin tarixi günlərdə Azərbaycan radiosunun əməkdaşı kimi iştirak etmişəm. Türkiyə jurnalistləri ilə xatirə şəkli də çəkdirmişəm.**

– Şadam ki, siz bizim “Həsrət” körpüsündəki izdihamı görmüsünüz. Həmin gün Heydər Əliyevin sevincinin həddi-hüdudu yox idi. Onun gözlərindəki həyəcanı gördüm, o, bir az da doluxsunmuşdu, kövrəlmişdi. Beləliklə, Naxçıvanla Türkiyə arasında böyük layihələr həyata keçməyə başladı. O körpü könülləri bir-birinə bağladı. İqtisadiyyat sürətlə inkişaf etməyə başladı.

Bir kədərli hadisə haqqında da danışmaq istəyirəm. Bu dünyanın möcüzəsini kimsə bilməz... Naxçıvana getmişdim, gördüm ki, Heydər Əliyev çox sıxıntı içindədir. Öyrəndim ki, çörək çatışmır. Un yoxdur. Heydər Əliyevlə birgə nahar edəndə gördüm ki, o, çörəyin böyük hissəsini mənim qabağıma qoyub. Bu hadisə mənə çox təsir etdi. Heydər bəy dedi ki, çıraq işığında isinən camaatı çörəklə imtahan etmək olmaz, bizə kömək lazımdır. Mən bu barədə təcili olaraq Süleyman Dəmirələ məlumat verdim. O valilərə göstəriş verdi ki, Naxçıvana kömək etmək lazımdır. Naxçıvana yaxın olan Qars, İğdır, Ağrı, Ərzurum valilərinə təlimat verildi ki, maşınlara un yükləyib tez Naxçıvana göndərsinlər. Baş nazirə dedim ki, orada əhali çoxdur, bir həftə içində un qurtarır.

Təcili olaraq, Ekzimbankdan Naxçıvana 20 min dollar kredit ayırdıq. Bunun 10 min dolları ilə əhalinin 6 aylıq ehtiyacının qarşısını ala bildik. Sonrakı 10 min dolları isə geri almadıq. Biz qardaş ölkə olaraq Naxçıvana bu yardımı etdik, həmin borcu da bağışladıq.

Sonra mən Naxçıvana tez-tez getdiyimə görə, elektrik işığının da olmamasının şahidi olurdum. Camaat, xüsusilə, kəndlərdə yaşayanlar soyuqdan qızınmaq üçün ağacları kəsib yandırırdı. İnsanlar suyun olmamasından belə əziyyət çəkirdilər. Əhali çox ağır, məşəqqətli günlər yaşayırdı. Heydər Əliyevlə gecələr çıraq işığında oturub bu vəziyyətdən çıxış yolları axtarırdıq. Məhz bu dahi insanın sayəsində İğdırdan Naxçıvana işıq xətti çəkdirdik. Gümüşgöldən də bir xətt çəkildi və qısa bir vaxtda çətinliklər aradan qalxmağa başladı.

Heydər Əliyev Türkiyəyə ziyarət edəndə onunla mətbuat işçilərinin görüşünü təşkil etdim. İstanbuldakı bütün görüşlərdə təşkilatçılıq işlərinə rəhbərlik edirdim. Mən hər toplantıda Heydər Əliyevi Naxçıvan Cümhuriyyətinin rəhbəri kimi təqdim edirdim. Bir gün məni Xarici İşlər Nazirliyindən aradılar. Dedilər ki, siz Heydər Əliyevi cümhurbaşqanı kimi təqdim etdiyinizə görə Moskva bizə etirazını bildirib. O, Ali Məclis sədridir, cümhurbaşqanı deyil. Mən də bu etiraza cavab olaraq bildirdim ki, bizim –Türkiyə dövlətinin də zəmanət verdiyi Ankara anlaşması ilə Naxçıvan muxtar cümhuriyyət adlandırılmışdır. Cümhuriyyətin başında olan insan cümhurbaşqanı sayılır.

**– Siz, yəqin ki, Qars müqaviləsini nəzərdə tutursunuz?**

– Bəli,1923-cü ildə imzalanan Qars müqaviləsində Türkiyənin də təminatı vardır. Həmin anlaşmada Naxçıvan muxtar cümhuriyyət adlanır. Mən öz mövqeyimi beynəlxalq hüquq qaydalarına əsasən, müdafiə etdim və sonda qalib çıxdım.

Heydər Əliyev mənimlə tez-tez əlaqə saxlayırdı. O böyük insan mənim hər bir sözümə, davranışıma dəyər verirdi. Mənimlə məsləhətləşmələr aparırdı. Yeni Azərbaycan Partiyasının qurulmasında da onun dəvətini qəbul etdim və partiyanın iclaslarında iştirak etdim. Axşamlar baş-başa qalırdıq. Bizim dostluğumuz belə başlandı və davam etdi. Yəni Heydər Əliyevi tanıyıb ondan qopmaq, onu sevməmək mümkün deyildi. Onun simasında Azərbaycan mənim 2-ci Vətənimdir.

Bir gün axşam ondan soruşdum ki, siz Sovetlər İttifaqında bir neçə ali rəhbərdən biri olmusunuz, hətta elə zamanlar olub ki, ölkənin 1-ci şəxsi olmaq şansınız olub. Moskvada da qalıb yaşaya bilərdiniz. Naxçıvana niyə gəldiniz? – Bu qədər problemlərə necə dözürsünüz? Sualım onu, sanki, uzaq bir səfərə apardı. Mən onun baxışlarında dərin bir kədər oxudum. Əziz dostum danışmağa başladı: “Türk qardaşların bizim ağrı-acılarımızdan xəbəri olmayıb. Uzaqdan həqiqəti görmək mümkün deyil. Atam Əlirza fəhlə işləyirdi. Oxudum, təhsil aldım. Çalışa-çalışa Sovet imperiyasının Siyasi Bürosuna qədər bir yol keçdim, harada və hansı mərtəbədə olmağımdan asılı olmayaraq, kimliyimi, milli düşüncəmi, azərbaycanlı olmağımı heç vaxt unutmadım. Bir də hər zaman düşüncəmdə bu oldu ki, mənim xidmətim, ilk növbədə, Azərbaycana olmalıdır. Azərbaycan sözü mənim üçün o qədər müqəddəsdir ki, onun qiymətini, dəyərini həyatım boyu ürəyimdə, əməlimdə yaşatmışam. Azərbaycan dilinin varlığı, dövlət səviyyəsində işlənməsi, xüsusi status alması naminə mübarizədən çəkinməmişəm”.

Bəli, əziz, qiymətli dostum mənə çox həqiqətləri anladırdı. Sovetlərin başında duranlardan biri də Mixail Qorbaçov olmuşdur. Onun Heydər Əliyevə qarşı ədalətsiz mövqe nümayiş etdirməsi ilə bağlı eşitdiklərimdən dəhşətə gəldim. Dedi ki, Sovet İmperiyasının yıxılacağını hiss etmişdim: “Qanlı 20 Yanvar hadisəsi baş verən günün səhərisi Moskvada Azərbaycan nümayəndəliyinə gəldim, kütləvi informasiya vasitələri qarşısında Qorbaçov hakimiyyətinin əlinin qana batmasını bütün dünyaya bəyan etdim. Bilirdim ki, özümün və övladlarımın həyatı təhlükə qarşısındadır. Amma xalqımın taleyi olan bir məsələdə susa bilməzdim. Bakıya gəldim. Burada hakimiyyətdə olanlar Moskvadan qorxaraq mənim Azərbaycana qayıtmağımdan narahat olmağa başladılar. Vəziyyətin mürəkkəbləşdiyini, siyasi ab-havaya yönləndirildiyini görüb doğulduğum Vətənimə – Naxçıvana gəldim”.

Bizim dostumuz İhsan Doğramacının qurduğu Vəqfin təşəbbüsü ilə Heydər Əliyevlə canlı olaraq əlaqələri olan məşhur insanların xatirələrindən ibarət “Böyük dövlət adamı” kitabı hazırlananda mənə də müraciət olundu və mən Böyük İnsan haqqında vəfa borcumu ağ kağızlara köçürdüm. Bütün bu səhifələr ömrümün çıraq işıqlı günlərindən xəbər verir. Bu kitabda İhsan Doğramacı, Süleyman Dəmirəl və başqa dəyərli insanlar, Heydər Əliyevlə birgə keçirdiyi görüşlər, onların dostluğu əksini tapıb. Mən onunla ilk tanışlığımdan başlayan tarixi qələmə alsam, xatirələrim 4–5 kitaba sığmaz, Türkiyə tarixində yeganə dövlət adamıyam ki, Heydər Əliyevlə demək olar ki, hər gün telefon əlaqəsi saxlamışam, onun bir çağırışına Naxçıvana uçmuşam.

Süleyman Dəmirəlin Baş nazir və prezidentlik illərində onun baş məsləhətçisi olduğuma görə, bu səlahiyyətləri mənə vermişdi. Hərdən fikirləşirəm ki, İlahi, Sən məni bəşəriyyətin qibtə etdiyi böyük dövlət xadimi ilə ürək- könül bağı qurmağa sövq etdin. Heydər Əliyevlə gecələr çıraq işığında baş- başa qalıb söhbət etmək Tanrının mənə misilsiz mükafatıdır. Onu tanıdıqca kəşf edirdim. Heydər Əliyev elə bir şəxsiyyət idi ki, onunla bir yerdə olduqda, dərdləşdikdə İnsanlığını kəşf edirdin. Hafizəsi o qədər güclü idi ki, bir hadisəni mənə danışanda onun saatını, tarixini də deyirdi. Rusiyanın bütün siyasət adamları haqqında mükəmməl bilgiləri var idi, hətta Türkiyəni, onun siyasət adamlarını, diplomatlarını o qədər dərindən tanıyırdı...

**– Heydər Əliyev kimi bir şəxsiyyətlə belə bir ünsiyyətiniz sizə nə verdi?**

– İlk olaraq, sədaqətli bir Dost qazandım. Adım çəkiləndə belə tanınmış siyasətçilər onun necə reaksiya verməyinin şahidi olublar. Onunla mənim aramdakı bağlılıq çox sınaqlardan çıxdı, hər ikimiz bir-birimizi qoruduq. Mən ondan etibarı, vəfanı hər addımda uca tutmağı, qətiyyəti öyrəndim. Siyasət aləmində Türkiyənin yollarını əbədi olaraq Azərbaycana bağladı. Bir mühüm faktı deyəcəm. Biz Türkiyədə elə təsəvvür edirdik ki, 70 il əsarətdə qalan, diktə ilə idarə olunan Azərbaycan sovetlər zamanında türklüyündən, varlığından, dinindən, dilindən ayrı düşüb, amma yollar açılanda bunun əksini gördük.

Bütün ömrünü Sovet dövlət aparatında keçirən, DTK generalı olan Heydər Əliyevin ana dilinə, dininə, türkçülüyünə bağlılığını, inancını müşahidə edəndə nəinki mən, bütün Türkiyə, siyasətçilər çaş-baş qalmışdı. Bizim düşüncəmiz hara, gördüklərimiz hara...

Heydər Əliyevdə elə bir Vətən sevgisi gördüm ki, onu illər boyu bizim dövlət adamlarında da duymaq istəmişəm. Heydər Əliyevdən eşitdiyim və qələmə aldıqlarımdan yenə də sizlərə anlatmaq istəyirəm. O, deyirdi: “İmperiyanın içində işləmək siz təsəvvür etdiyinizdən də ağır idi. Amma mən ruhən özümdə elə bir güc toplamışdım ki, ağlımda olanları həyata keçirməyə, istədiyimə çatmağa çalışırdım. SSRİ bütün respublikalara, o cümlədən Azərbaycana büdcə ayırırdı. Çalışırdım ki, xalqım üçün cox imkanlar yaradım, buna görə də daha çox maliyyə vəsaitinin verilməsini istəyirdim. Buna mənim xalqımın haqqı var idi. Biz Sovetlər birliyinin büdcəsinin formalaşmasına çox pay verdik. Ona görə də imkan düşən kimi, Azərbaycanın büdcəsinə maliyyə vəsaitini artırmağa çalışırdım. Bütün bu mübarizələrimin sayəsində Bakıda nəhəng zavodların tikilməsinə nail oldum. Hara gedirdimsə, Azərbaycanı düşünürdüm. Bir də mən azərbaycanlı balalarının Rusiyanın ali təhsil ocaqlarında təhsil alması, dünyagörüşünün mükəmməl formalaşması üçün çox çalışırdım. Moskvada olanda da tez-tez onlarla görüşə gedərdim və hər dəfə deyirdim ki, unutmayın, siz gələcəkdə böyük adamlar olacaqsınız və ən əsası yadda saxlayın ki, siz azərbaycanlısınız”.

Heydər Əliyevi dinlədikcə gözlərimin yaşardığını görüb o da doluxsundu və qəhərlənərək dedi: “Əli Naci, mən azərbaycanlı balalarının potensialını kəşf etməklə yanaşı, onların son dərəcə mədəni insanlar kimi yetişməsinə çalışırdım. Onların hamısını övladlarım bilirdim. Kremldə işlədiyim illərdə bu gənclərin hər birinin haqqında tərtib olunmuş kitabçanı saxlayırdım. Yazı masamda saxladıqlarımın ən qiymətlisi həmin qeydiyyat kitabçam idi. Hətta ən ağır günlərimdə Kremli tərk edərkən həmin bloknotu özümlə götürmüşdüm. O gənclər əkdiyim ağacın meyvələri idi. Zaman göstərdi ki, mən səhv etməmişəm. Müstəqil Azərbaycanın milli kadrları kifayət qədər idi. Deməli, mənim arzularım həyata keçmişdi”.

Heydər Əliyev Azərbaycanın Prezidenti seçiləndə onu təbrik etməyə gəldim. Aparatın yaxınlığında qonaq evində qalırdım. Bir gün axşam Heydər Əliyevlə söhbət edirdik. Dedi ki, bura L.İ.Brejnevin sovetlər ittifaqına rəhbərlik etdiyi zaman tikilmişdi. Brejnev Bakıya gələndə bu qonaq evində qalmışdı. Bir gün onunla yuxarı mərtəbəyə qalxanda dedi: – Qonaq evinin tikintisi aparılarkən divara bayrağımızın ulduzunu həkk elətdirmişəm.

Bəli, Heydər Əliyev bir cəsarət fenomeni, Vətən aşiqi olan Dövlət adamı idi. Sovet dönəmində belə bir milli addım atmaq böyük cəsarət tələb edirdi. Onun türkçülük sevgisi ilə bağlı şahidi olduğum bir hadisəni də danışmaq istəyirəm: “Naxçıvanda bir axşam qonaq evində idik. Oğlu İlham Əliyev də bizimlə bir yerdə idi. Süfrə hazırlandı. İki nəfər də müğənni gəldi, onlar həm də saz çalırdılar. Diqqətimi o cəlb etdi ki, Heydər Əliyev və İlham Əliyev də onların ifa etdikləri mahnıların sözlərini əzbər bilirdilər. Heydər Əliyev kimi Dahinin gücü onda idi ki, o, milli kökündən heç zaman ayrılmadı, imperiyanın içində belə. Heydər Əliyev Zərifə xanım kimi köklü Azərbaycan ailəsi ilə həyatını qurdu. Oğlunu, qızını yenə də azərbaycanlı ailələri ilə evləndirdi. Sovet İmperiyasının içində bir millətin milli heysiyyətini qorumaqdan güclü nə ola bilərdi?

Heydər Əliyev haqqında xatirələrim danışmaqla qurtarmaz. Onun ruhu daima mənimlədir. Hər il Heydər Əliyevin doğum və anım günlərində əziz Dostumu ziyarət etmək üçün Bakıya gəlirəm. Azərbaycan mənim ikinci Vətənimdir!

*Söhbəti hazırladı:*
*Kəmalə ABDİNOVA*
*XQ*

# Heydər Əliyev: şəxsiyyət və lider



V MƏQALƏ

### Milli ideya və regional siyasi ritorika

Ulu öndərin siyasi ritorikasının semantikası ilə funksionallığının baza sistemi haqqında əvvəlki məqalədə bəhs etmişik. Burada "güclü müstəqil milli dövlət", "güclü iqtisadiyyat", "güclü cəmiyyət", "güclü ordu", "müstəqil hüquqi və demokratik dövlət", "dünyada münaqişələrin dinc yolla həllinə tərəfdar dövlət", "milli ideya", "suverenlik", "ərazi bütövlüyü" və digər anlayışların Azərbaycanın daxili və xarici maraqlarının məntiqi kontekstində sistemləşdirilməsində və onun praktiki müstəvidə funksionallığını saxlamasında xüsusi rol oynadığını bir daha vurğulamağa ehtiyac görürük.

Bu, əslində, Azərbaycanın daxili mühitinin siyasi konseptuallaşmasının terminoloji bazasını təşkil edir. Eyni zamanda, onların sırasında regional miqyasda Heydər Əliyev siyasi konsepsiyasının substantiv və funksional aspektlərdə ifadəsinə çıxış olan anlayışlar da mövcuddur. Onlar "dünyada münaqişələrin dinc yolla həllinə tərəfdar dövlət", "milli ideya", "suverenlik", "ərazi bütövlüyü"dür. Bunların region miqyasında semantik və funksional özəlliklərinin mərkəzində "milli ideya" anlayışı dayanır. Çünki milli ideya Heydər Əliyev üçün yalnız yığcam və düzgün müəyyən edilmiş siyasi anlayış deyildi – o, konkret fəaliyyət istiqamətini göstərən və buna uyğun dövlətçi fəaliyyətin feili gerçəkləşməsini tələb edən ideyadır! Bu tezisin konseptual anlamını izah edək.

Milli ideyanın mərkəzi müddəası ərazi bütövlüyünün bərpasıdır. Burada siyasi anlamda Heydər Əliyev "ərazi bütövlüyünün bərpası" anlayışına milli və regional miqyaslar arasında konseptual məna bağlantısı yaratmalı olan məzmun vermişdir. Yəni milli ideyanın reallaşması (siyasi-nəzəri müstəvidə əyaniləşməsi) özündə iki mühüm şərti ehtiva edirdi: Birincisi, Azərbaycan müstəqil dövlət kimi ərazi bütövlüyünü bərpa etməli, ikincisi, ərazi bütövlüyü o zaman bərpa olunmuş sayılmalı idi ki, o, Azərbaycanın suverenliyini tam təmin etməsinə imkan verən regional və qlobal mühit formalaşdırmağı stimullaşdırsın.

Bu iki şərtin məna, məzmun və funksional vəhdəti siyasi konseptual anlayışlar sisteminin milli miqyasdan regional miqyasa proyeksiyasının nəzəri keçidini təmin etmişdir. Bununla Azərbaycan liderinin müstəqillik mərhələsinin siyasi-konseptual sisteminin ikinci pilləsinə keçidinin əsasları hazırlanmışdır. Onun fonunda siyasi konsepsiyanın anlayışlar sisteminin ikinci (regional səviyyəsinin) başlıca fəlsəfi məqamlarını müəyyən etmək olar.

### Enerji strategiyası

Siyasi konseptual sistemin regional miqyasda reallaşmasının başlıca stimulverici və təminedici faktoru kimi enerji strategiyası çıxış etmişdir. Niyə məhz enerji strategiyası? Hansı səbəblərdən siyasi institutlaşma və cəmiyyətin multikultural dəyərlər əsasında birliyinin təmini regional miqyasda enerji strategiyasını əvəz edə bilməzdi? Əlbəttə, vurğulanan son iki faktor regional miqyasda olduqca əhəmiyyətli konseptual və praktiki rol oynamışdır. Ancaq onların da təməlində enerji strategiyası dayanırdı.

Məsələnin kökü Azərbaycanın müasir mərhələdə dövlət identikliyinin mərkəzi anlamı ilə bağlıdır. Onu ilk dəfə Ulu öndər, faktiki olaraq, 1993-cü il iyunun 15-də Azərbaycan Respublikasının Milli Məclisindəki çıxışı zamanı konseptual səviyyədə dəqiq ifadə etmişdir. Onu fəlsəfi olaraq iki əsas tezisdə birləşdirmək mümkündür.

Birincisi, "Ali Sovetin sədri kimi, Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında, müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır".

İkincisi, "...mənim fikrimcə, Azərbaycan Respublikası bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcəkdir. Keçmiş Sovetlər İttifaqının bərpa olunması, Azərbaycan Respublikasının da ora daxil olması ehtimalı haqqında bəzi şaiyələr, fikirlər gəzir. Bunlar xülyadır. Mən bu fikirləri rədd edirəm və bütün Azərbaycan vətəndaşlarını bu fikirlari rədd etməyə dəvət edirəm".

Bu iki tezisi vahid mətn kimi təsəvvür edərək, onun siyasi ritorikasının semantik və funksional aspektlərini təhlil edək. Onu vurğulayaq ki, müasir siyasi, fəlsəfi, sosioloji, kulturoloji və informasiya nəzəriyyələrində liderin siyasi ritorikasının mətndən çıxış edərək substantiv (yəni mahiyyət, məna) və funksional (yəni nəzəri və praktiki müstəvilərdə yerinə yetirdiyi feili funksiyalar) kontekstlərdə təhlili geniş yayılmışdır. Onun əsasında siyasətçinin siyasi məqsədi ilə yanaşı, onun lider kimi kimliyi, strateji hədəflərinə çatmaq üsulları haqqında fəlsəfi və elmi nəticələr çıxarırlar. Azərbaycanda Heydər Əliyevin siyasi konseptual sisteminin həmin kontekstdə ciddi araşdırılmasına böyük ehtiyac vardır. Bu, faktiki olaraq Ulu öndərin yeni səviyyədə fəlsəfi dərkinin bünövrəsini qoya bilər.

Burada biz baxdığımız kontekst və miqyasda məhdud sayda açar məqama toxunacağıq.

### Siyasi ənənənin konseptual ifadəsinin semantikası

Ulu öndər qeyd edilən tezisində vurğulayır: Birincisi, Azərbaycan Respublikasının dövlət müstəqilliyi xalqın tarixi nailiyyətidir, ikincisi, əsas vəzifə bu müstəqilliyi (yəni xalqın tarixi nailiyyətini) qorumaq, möhkəmləndirmək və inkişaf etdirməkdən ibarətdir, üçüncüsü, bu zaman, Azərbaycanın dövlət kimi, 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında mövcud olması mütləq şərtdir, dördüncüsü, həmin konkret dövlət müstəqil dövlət identikliyi müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı müəyyən edilməlidir.

Vurğulanan dörd müddəanın siyasi ritorikasının yaratdığı ümumi mətn məntiqinə siyasi nəzər salaq. Hər şeydən öncə, Heydər Əliyev üçün dövlət xalqın tarixi uğurudur ki, bu da "dövlət xalqa xidmət etməlidir" tezisində yığcam ifadə edilmişdir. Ulu öndər dəfələrlə bu kəlamı demişdir.

Sonra, Azərbaycan siyasətçilərinin, o cümlədən dövlət başçısı və liderin müqəddəs vəzifəsi müstəqilliyi qorumaq və inkişaf etdirməkdən ibarət olmalıdır. Bu müddəanın məntiqi özəlliyinin bir tərəfi müstəqilliyi əbədi qorumaqdırsa, digər xüsusiyyəti dövləti daim inkişaf etdirərək, həmişə güclü etməkdən ibarətdir. Bununla müstəqilliyi qorumaqla güclü dövlət yaratmanın konseptual konteksti verilir. Həmin semantik və kommunikasiya sahəsində isə güclü iqtisadiyyat, güclü dövlətçi siyasət, sabit daxili və regional mühit eyni məntiqdə birləşirlər.

Bu əsasda siyasi ritorikanın növbəti səviyyəsi regional kontekstdə çox əhəmiyyətlidir. Heydər Əliyevin siyasi konseptual anlayışlar sistemində Azərbaycan Demokratik Respublikasının ənənələri ilə müasir tələblərin sintezi mərkəzi yer tutur. Bu tezisi Ulu öndər BMT-nin yüksək tribunasından 1994-cü il və 1995-ci illərdə rəsmi olaraq bəyan etmişdir. Orada Heydər Əliyev "hüquqi, demokratik, daim inkişaf edən, dünyada sülh və barış tərəfdarı olan Azərbaycan Respublikası" tezisini irəli sürmüşdür ki, onun da təməlində "Azərbaycan müstəqilliyindən heç bir halda imtina etməyəcək və kimsənin təsiri altında olmayacaq" məntiqi dayanır.

### Regional miqyasın siyasi konseptual sistemi

Vurğulanan məqamlardan görünür ki, regional miqyasda siyasi konseptual sistemin əsas anlayışları kimi "milli ideya" və "neft strategiyası" çıxış edirlər. Neft strategiyası milli ideyanın reallaşmasına xidmət edən başlıca mexanizmdir. Bu iki anlayış bir yerdə isə regional səviyyədə praktiki fəaliyyət bazasını yaratmalı idi. Həmin baza rolunda Azərbyacanın təşəbbüsü ilə formalaşan layihələr infrastrukturu çıxış etmişdir. "Layihələr infrastukturu" siyasi anlam kimi regional miqyasda siyasi konseptual sistemin əhəmiyyətli struktur parametridir. Çünki Azərbaycan Respublikasının dövlət kimi regional miqyasda statusunu məhz bu faktor müəyyənləşdirə bilərdi. "Layihələr infrastrukturu" anlayışı ilə yanaşı, "regional əməkdaşlığın yeni platformaları" anlayışı ciddi yer tutmuşdur. Bu aspekt özünün yeni səviyyədə reallaşmasına Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüs etdiyi "ikitərəfli, üçtərəfli, dörtərəfli əməkdaşlıq formatları"nda çatmışdır.

1993-2003-cü ilə qədər isə Ulu öndərin təşəbbüsü ilə müxtəlif əməkdaşlıq platformaları yaradılmışdır. O baxımdan "Qafqaz evi" platformasının regional miqyasda əməkdaşlıq və təhlükəsizlik üçün əhəmiyyətini vurğulamaq lazımdır. Bundan başqa, məhz Heydər Əliyevin böyük səyləri nəticəsində Gürcüstanın Azərbaycanın enerji strategiyasında yerini və rolunu dəqiqləşdirmək mümkün olmuşdur. Ulu öndər siyasi çıxışlarında Cənubi Qafqaz miqyasında əməkdaşlıq və təhlükəsizliyə xidmət edən ritorikadan istifadə edirdi. Heydər Əliyev regionun heç bir dövlətinə qarşı aqressiv terminlərdən istifadə etmədi və ədalətli tənqidi ilə müəyyən məqamlara çatdırdı.

Beləliklə, regional miqyasda siyasi konseptual sistem milli səviyyədən gələn "güclü müstəqil milli dövlət", "güclü iqtisadiyyat", "güclü cəmiyyət", "güclü ordu", "müstəqil hüquqi və demokratik dövlət", "dünyada münaqişələrin dinc yolla həllinə tərəfdar dövlət", "milli ideya", "suverenlik", "ərazi bütövlüyü" anlayışlarına "neft strategiyası", "layihələr infrastukturu", "regional əməkdaşlığın yeni platformaları", "Qafqaz evi", "enerji təhlükəsizliyi ilə milli təhlükəsizliyin vəhdəti" və digər anlayışların əlavə edilməsi əsasında formalaşmışdır. Onların ümumi mahiyyəti Azərbaycanın dövlət identikliyinin hüquqi, demokratik, milli maraqlara əsaslanan müstəqil dövlət olmaq xüsusiyyətləri ilə bağlıdır. Bununla 2003-cü ilə Azərbaycan milli və regional miqyaslarda müstəqil, sülhsevər, barışcıl və müasir tələblərə cavab verən dövlət identifikasiyasını liderin siyasi ritorikasında tam ifadə edən ölkə kimi daxil oldu.

Lakin Ulu öndərin yaratdığı siyasi konseptual anlayışlar sisteminin ən yüksək – qlobal miqyasda Azərbaycanın dövlət kimi statusunu xarakterizə edəcək ritorik özəllikləri ayrıca əhəmiyyət daşıyır. Həmin siyasi ritorik xüsusiyyətlər, faktiki olaraq, müstəqil Azərbaycanın siyasi konseptual sistemini məna və funksiya tamamlayır. Çünki bununla dövlətin milli, regional və qlobal miqyaslarda başlıca özəlliklərinin sistematik ifadəsi reallaşmış olur.

Onu vurğulayaq ki, vahid siyasi konseptual sistemin üçüncü semantik və funksional pilləsi regionlararası və qlobal miqyaslarda Azərbaycanın geosiyasi statusunu fəlsəfi dərk etməyə yardım edir. Burada başlıca tezis bütün bu uğurların kökündə Ulu öndərin liderlik məharəti və yüksək şəxsi keyfiyyətlərinin dayandığının sübut edilməsi ilə bağlıdır.

(ardı var)

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# YAP–VKP əlaqələri qarşılıqlı siyasi etimadı yüksəldir

**Azərbaycan ilə Vyetnam arasında diplomatik münasibətlərin 30 il ərzində mövcud olmasına baxmayaraq, ölkələrimizin dostluq təmasları hələ keçən əsrin 50-ci illərinin sonlarından başlayaraq qurulub. Bu dostluğun əsası 1959-cu ildə Vyetnam Demokratik Respublikasının Prezidenti Ho Şi Minin Azərbaycan SSR-ə səfər etməsi ilə qoyulub. Ümummilli lider Heydər Əliyev SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini işləyərkən, 1983-cü ildə Sovet nümayəndə heyətinin rəhbəri kimi Vyetnama səfəri isə xalqlar arasında qarşılıqlı rəğbət və əməkdaşlığın daha da inkişafına yeni impuls verib.**

Qeyd edək ki, Ulu öndərin bu səfəri müharibədən sonra ölkənin bərpasında və quruculuq işlərində Vyetnam xalqına dəstək verməsi bu gün də vyetnamlılar tərəfindən minnətdarlıqla xatırlanır.

Ümumiyyətlə, bu ölkənin müharibədən sonrakı bərpasında, xüsusən də neft-qaz sənayesinin qurulmasında Azərbaycan xalqının çox böyük dəstəyi olub. Və bu kömək Vyetnama təkcə neft sənayesi mütəxəssisləri və avadanlıq göndərməkdən ibarət olmayıb. Sovet dövründə minlərlə vyetnamlı gənc Azərbaycanda müxtəlif sahələr üzrə təhsil alıb. Onlar ölkələrinə qayıtdıqdan sonra müxtəlif vəzifələrdə çalışaraq, Vyetnamın inkişafına töhfələr veriblər.



Bütün bu sadalananlar Azərbaycan ilə Vyetnam arasında uzun illərə əsaslanan böyük dostluq körpüsünün təməlinin qurulmasında, Vyetnam xalqının Azərbaycana isti münasibətinin formalaşmasında əhəmiyyətli rol oynayıb.

*

Prezident İlham Əliyevin 2014-cü ildə Vyetnama dövlət səfəri və 2015-ci ildə Vyetnam Sosialist Respublikasının Prezidenti Çıonq Tan Şanqın Azərbaycan Respublikasına rəsmi səfəri iki dövlət arasında münasibətlərdə yeni səhifə açaraq, əlaqələrin gələcək inkişafına təkan verib.

Bakıda "Vyetnam günləri"nin təşkili, Vyetnamda Azərbaycanla bağlı mədəni tədbirlər, konsert proqramları, kulinariya festivalları xalqlarımızın bir-birini daha yaxından tanımasına və dostluğun möhkəmlənməsinə xidmət edib. Bu mənada, Vyetnamda ümummilli lider Heydər Əliyevin 100 illiyinin və Vyetnama tarixi səfərinin 40 illiyinin, habelə Ho Şi Minin ölkəmizə səfərinin 65 illiyinin qeyd olunması tarixi şəxsiyyətlərin xalqlar arasında dostluğun möhkəmlənməsindəki xidmətlərini vurğulamaqla yanaşı, onların irsinə sadiqliyi də nümayiş etdirir.

Ötən müddətdə Azərbaycan və Vyetnam milli maraqlara hörmət və beynəlxalq hüquq normalarına sadiqlik prinsipləri əsasında sıx əməkdaşlıq ediblər. Beynəlxalq və regional təşkilatlarda, o cümlədən BMT-də, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə bir-birinə dəstək veriblər. Eyni zamanda, Qoşulmama Hərəkatı çərçivəsində də birgə fəaliyyət davam etdirilir.

İki ölkə arasında hakim partiyalararası dialoqun inkişafı da xüsusi önəm daşıyır. Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam ilə görüşündə bu məsələ də geniş müzakirə mövzusu olub.

Yeni Azərbaycan Partiyası (YAP) ilə Vyetnam Kommunist Partiyası (VKP) arasında əməkdaşlıq iki ölkənin münasibətlərinin inkişafına təkan verir. Xatırladaq ki, 2023-cü ilin noyabrında Hanoyda YAP ilə VKP arasında əməkdaşlıq sazişi imzalanıb.

44 günlük Vətən müharibəsində Zəfər qazanan Azərbaycan regionda yeni geostrateji reallıqlar yaradıb. Yeni Azərbaycan Partiyası bu tarixi mərhələdə yeni dövrün çağırışlarından, eləcə də dövlətin və partiyanın qarşısında duran prioritetlərdən irəli gələrək beynəlxalq əlaqələrin inkişafına da böyük önəm verir. YAP ilə VKP arasında əlaqələrin genişləndirilməsi və əməkdaşlığın dərinləşdirilməsi də bu siyasətin mühüm tərkib hissəsidir.

Partiyalararası əlaqələr qarşılıqlı siyasi etimadın təzahürüdür. Bu fəaliyyət, xüsusilə də qarşılıqlı səfərlər fonunda daha da güclənməkdədir.

Bu baxımdan Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın Azərbaycana dövlət səfəri xüsusi önəm daşıyır.

Qeyd edək ki, bu diplomatik münasibətlər quruldandan sonra Vyetnam Kommunist Partiyasının Baş katibinin Azərbaycana ilk səfəridir. Bu səfər siyasi və ideoloji zəmində qarşılıqlı fəaliyyətin yüksək səviyyəsini təsdiq edir. Azərbaycanla bütün sahələrdə əməkdaşlığın bundan sonra da inkişaf etdirilməsində Vyetnamın qətiyyətli olduğunu nümayiş etdirir. Səfər çərçivəsində "Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında Strateji Tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanat" qəbul edilib. Bu isə hər iki tərəfin münasibətləri daha yüksək səviyyəyə qaldırmaq istəyinin əyani göstəricisidir.

Əlbəttə, dövlət başçılarının siyasi iradələrinə uyğun olaraq Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında əməkdaşlığın genişləndirilməsi yönündə müvafiq addımlar atılır. Qarşılıqlı səfərlərin həyata keçirilməsi, fikir və təcrübə mübadiləsinin aparılması da bu baxımdan olduqca əhəmiyyətlidir.

Strateji tərəfdaşlıq statusu Azərbaycan və Vyetnam arasında siyasi, iqtisadi və mədəni sahələrdə birgə fəaliyyətin genişləndirilməsi üçün yeni imkanlar açır. Baş katib To Lamın Bakıya səfəri, sadəcə iki ölkə arasında münasibətlərin inkişafı deyil, həm də regionlararası inteqrasiya və qlobal əməkdaşlığın uğurlu nümunəsidir.

*Azər MUSTAFAYEV*

# Ulu öndərə sonsuz sevgi ilə

**Mayın 10-da OCEAN Tədris Kursunda ulu öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş bilik yarışı keçirilib. Tədbirin məqsədi ümummilli liderin zəngin irsini şagirdlərə daha dərindən tanıtmaq, onların vətənpərvərlik duyğularını gücləndirmək idi.**



Bilik yarışında Qaradağ rayonu Lökbatan qəsəbəsindəki orta məktəblərin 250 şagirdi iştirak edirdi. Yarış 4 mərhələdən ibarət idi: "Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti", Ulu öndərin müstəqil Azərbaycanın hərtərəfli inkişafında rolu, "Heydər Əliyev və Azərbaycan gəncləri", "Ümummilli liderin mədəniyyət siyasəti". Hər bir mərhələdə iştirakçılar həm fərdi, həm də komanda şəklində sualları cavablandıraraq biliklərini nümayiş etdirdilər.

Yarışın sonunda qalib gələn şagirdlər sertifikat və hədiyyələrlə təltif olundular. Tədbirdə, həmçinin dahi siyasətçi Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirildi, şagirdlər tərəfindən ədəbi-bədii kompozisiyalar səsləndirildi.

*Leyla HADİ,*
*tələbə*

# Heydər Əliyev və Ukrayna hetmanları: dövlət rəhbərliyi tipologiyası

(əvvəli ötən sayımızda)

Heydər Əliyev, milli, tarixi və sivilizasiya miqyasında düşünən lider-dövlətçi obrazını təcəssüm etdirirdi. Onun müasir Azərbaycan tarixindəki fəaliyyəti Ukraynanın hetmanlıq ənənəsi ilə, xüsusilə Boqdan Xmelnitski, İvan Mazepa və Kiril Razumovski kimi şəxsiyyətlərlə dərin tarixi paralellər təşkil edir. Əliyev də, hetmanlar kimi, dövlətin çökmə təhlükəsi ilə üz-üzə qaldığı bir anda fəaliyyətə keçmişdir. Onların hər biri aşağıdakı tarixi vəzifələrin öhdəsindən gəlmişdir: 1) dərin siyasi və hərbi böhrandan sonra dövləti stabilizə etmək; 2)müasir milli ideyanı formalaşdırmaq və həyata keçirmək; 3) Konstitusiya bazasında hüquqi dövlətin əsaslarını qoymaq;

idarəetməni və dövlət institutlarına inamı bərpa etmək;

suverenliyin qorunmasını təmin edən səmərəli xarici siyasət həyata keçirmək; 4) milli identiklik forması kimi siyasi varisliyi möhkəmləndirmək (azərbaycançılıq konsepsiyası vasitəsilə).

Tarix sübut edir: həqiqi liderlik zamanın sınağından keçir. Necə ki, ukraynalılar bu gün də hetmanlara milli dövlətçiliyin simvolu kimi müraciət edirlər, azərbaycanlılar da Heydər Əliyevi müasir Azərbaycanın banisi kimi dərin ehtiramla yad edirlər. Ukrayna hetmanları ilə Heydər Əliyevin tipoloji müqayisəsi bir daha göstərir ki, uğurlu dövlət quruculuğu həmişə dərin milli ideya, güclü siyasi iradə, strateji diplomatiya və xalq qarşısında tarixi məsuliyyət üzərində qurulur.

### Heydər Əliyev təcrübəsinin Ukrayna üçün aktuallığı

Heydər Əliyevin dövlət rəhbərliyi təcrübəsi təkcə Azərbaycanın tarixi kontekstində deyil, həm də postsovet məkanında, xüsusən də Ukraynada baş verən dövlət quruculuğu proseslərinin müqayisəli təhlili üçün qiymətli materialdır. XXI əsrdə bir çox dövlətlər siyasi parçalanma, xarici müdaxilə, kimlik böhranı və effektiv institutların formalaşması ilə bağlı çətinliklərlə üzləşdikcə, Heydər Əliyevin timsalında təcəssüm olunan liderlik modeli xüsusi diqqətə layiqdir.

Burada söhbət yalnız liderin fərdi keyfiyyətlərindən deyil, həm də postkolonial xaos şəraitində dövlət quruculuğuna sistemli yanaşmadan gedir – bu yanaşma Ukraynanın tarixi təcrübəsi ilə səsləşir. Ən başlıcası, Heydər Əliyev daxili destabillik, müharibə, iqtisadi iflas və faktiki idarə olunmazlıq şəraitində Azərbaycanı bütöv, müstəqil və fəaliyyət qabiliyyətli bir dövlət kimi qoruyub saxlaya bildi. O, hakimiyyətin vertikalını bərpa etdi, siyasi nizamsızlığa son qoydu və gələcək inkişaf üçün möhkəm təməl yaratdı. Bu təcrübə müasir Ukraynanın reallığına çox yaxındır, çünki ölkə son illərdə dəfələrlə dövlət idarəçiliyinin və ərazi bütövlüyünün qorunmasının əhəmiyyətinin kəsb etdiyi vəziyyətlərlə qarşılaşıb. Əliyev modelinin mühüm komponentlərindən biri də birləşdirici milli ideyanın formalaşdırılması idi. Onun "azərbaycançılıq" konsepsiyası cəmiyyəti parçalamır, əksinə – bütün sosial, etnik və mədəni komponentləri vahid dövlət kimliyində inteqrasiya edirdi. Oxşar çağırışlar bu gün Ukrayna cəmiyyətinin qarşısında da dayanır – xüsusən müharibə və daxili parçalanmanı hədəfləyən hibrid təhlükələr fonunda. Azərbaycan təcrübəsi göstərir ki, milli birlik bənzərliyin deyil, siyasi müdrikliyin və birləşdirici ideologiyanın nəticəsidir – bu ideologiya istisna etmir, əksinə birləşdirir. Heydər Əliyevin xarici siyasətdə strateji uzaqgörənliyi də ayrıca vurğulanmalıdır. O, mürəkkəb regional şəraitdə bir tərəfdən Qərblə sıx tərəfdaşlıq, digər tərəfdən isə qonşularla konstruktiv dialoq əsasında balanslı bir kurs qurmağa nail oldu. Azərbaycan başqalarının geosiyasi oyunlarının obyektinə çevrilmədən, beynəlxalq münasibətlərdə müstəqil subyekt olaraq çıxış etdi. Bu kontekstdə Ukraynanın da xarici siyasəti prinsiallıq ilə çevikliyin, strateji tərəfdaşlıq ilə realizmin uzlaşdırılmasının vacibliyini nəzərə almalıdır. Bütün bu keyfiyyətlər – kritik anda siyasi qətiyyət, milli ideyanın yaradılması, diplomatik elastiklik və institusional modernləşmə – Heydər Əliyevi Ukraynanın hetmanlıq ənənəsinə yaxın olan dövlətçi lider obrazı kimi təqdim edir. Məhz Boqdan Xmelnitski, İvan Mazepa və Kiril Razumovski kimi şəxsiyyətlər bir zamanlar xalqın taleyinə məsuliyyətlə yanaşaraq şəxsi maraqla deyil, tarixi missiya hissi ilə hərəkət edirdilər. Heydər Əliyev də müasir dövrün belə liderlərindən biridir.



Heydər Əliyevin həyat və fəaliyyəti haqqında çoxları məlumatlıdır. Dünyanın istənilən yerində onun haqqında danışanda dərhal Azərbaycanı xatırlayırlar, Azərbaycandan danışanda isə mütləq Heydər Əliyevi xatırlayırlar. O, sadəcə öz dövrünün qəhrəmanı deyildi, dövrün adamı oldu. Onun tarixi mahiyyəti və böyük tərbiyəvi əhəmiyyətə malik ibrətlərlə dolu ömür yolunun tədqiqi keçmişimizə qiymət vermək̇lə yanaşı, gələcəyə gedən yolumuzu da müəyyənləşdirərək siyasət və diplomatiya müstəvisində Heydər Əliyevin yaşadığı kimi yaşamaq, Vətəni Heydər Əliyev kimi sevmək istiqamətlərinə yönəldildi. Bu nöqteyi nəzərdən də Ukraynada Əliyevə görkəmli siyasi xadim kimi hörmət və minnətdarlıqla yanaşırlar. O, Yaroslav Müdrik ordeni ilə təltif edilib, Kiyev şəhərinin fəxri vətəndaşı və Ukrayna Prezidenti yanında Milli Dövlət İdarəçilik Akademiyasının fəxri doktoru adını layiq bilinib. Kiyevdə Azərbaycan səfirliyinin yaxınlığındakı park onun adını daşıyır. 2004-cü il iyunun 4-də Kiyevdə Heydər Əliyevin dünyada ilk abidəsinin açılışında Ukrayna Prezidenti Leonid Kuçma demişdir: "Heydər adı qədim türkcədə qabağa çapan atlı kimi tərcümə olunur – bu ad Ulu öndərin ruhunu və qətiyyətini tam əks etdirir".

Xalq Heydər Əliyevdən böyük və müdrik siyasətçi kimi danışır. Ondakı parlaq natiqlik istedadı aydın və möhkəm, addım-addım, qarşıya qoyulan məqsədə əməl etmək bacarığı ilə birləşirdi. Ən yüksək intellektual potensiala malik dövlət rəhbəri, həm də mükəmməl insani keyfiyyəti bir insan xarakterlərini təsdiqlədi. Onun prinsiplərə sadiqliyi və fədakarlığı, xeyirxahlığı və nəcibliyi bütün həyat vəziyyətlərində özünü göstərirdi. O, həmişə əmin idi ki, "həyatda hər kəs şöhrət və ya alçaqlığı, şəxsi rifahı və ya ictimai vəzifəni, tamah və ya vicdanı seçir". Onun "Dövlətçilikdə Günahlı şəxsin cəzalandırılmaması, əksinə günahsızın cəzalandırılması ən baxışlanılmaz şərtdir" sözləri də diqqətdə olmalıdır. Bu barədə görkəmli liderimizin mənalı, aydın, ziyalı, dəmir məntiqli, qətiyyətli ictimai çıxışları hamımızın yadındadır.

Məşhur bir məsəl var ki, insan həyatında üç şey etməlidir: ev tikmək, ağac əkmək, oğul böyütmək. Yalnız bundan sonra onun həyatını başa çatmış hesab etmək olar. Heydər Əliyev ölkədə – müstəqil Azərbaycanı qurdu, onu gül-çiçək bağına çevirdi, ölkənin tərəqqi və səadət yolunu davam etdirən layiqli davamçını yetişdirdi.

Mənim şəxsi görüşlərim zamanı bir neçə dəfə qarşısında çıxışlarımla və Heydər Əliyev ili olan 2023-cü ildə Ukraynada çap olunan "Millət Atası" elmi-monoqrafiyamdakı fikirlərimi böyük şərəflə qeyd etmək şərəfdir ki, Heydər Əliyev həmişə Vətənə, xalqına həddsiz məhəbbət, onu xoşbəxt, əmin-amanlıq və mehriban yaşamaq, insanpərvərlik və ədalətli görmək arzusunu rəhbər tuturdu. Bu gün elə bir sahə yoxdur ki, Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilən islahatlar ona toxunmasın. O, çox böyük siyasi irs qoyub, öz siyasi kursunun layiqli davamçılarını yetişdirib. Bu gün Azərbaycan dövləti, Azərbaycan xalqı Ulu öndərin göstərdiyi yolla Prezident İlham Əliyevin və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə gələcəyə inamla addımları nəticəsində Ulu Öndərimiz Heydər Əliyevin vəsiyyətini yerinə yetirilərək, onillər boyunca davam etmiş haqsızlığa, ədalətsizliyə, hüquqsuzluğa son qoylaraq, ikili standartlar zərərsizləşdirilərək bütün türk dünyasında qürur hissi ilə qarşılanır.

Ulu öndərin ruhunun ən dəyərli rəmzi vasitəsi kimi üç rəngli bayrağımız Ali Baş komandanın və Azərbaycan xalqının yekdilliyi ilə 30 illik müddət ərzində suveren və ərazi bütövlüyümüzün tam təminatı, BMT Təhlükəsizlik şurasının 30 illik 4 Qətnaməsi yerinə yetirilərək "Qarabağ Azərbaycandır" sözlərini təsdiqləyərək işğaldan azad edilən bütün Qarabağımızda ucaldıldı. 2025 -ci ilin Azərbaycanda Respublikasında "Konstitusiya və Suverenlik" ili elan olunması da dövlətçilik səviyyəsində əldə olunan dəyərləri bir daha təsdiqləyir.

Ümumbəşəri məhəbbəti qazanmaq üçün təkcə yaxşı siyasətçi olmaq kifayət deyil, müstəsna universal insani keyfiyyətlərə malik olmaq lazımdır. "Böyük siyasət xırda hisslərə, maraqlara tabe edilə bilməz" deyən xalq məhəbbətini qazanan Heydər Əliyev buna əmin idi. Onun tükənməz enerjisi Azərbaycan xalqını yenilaşən, qurucu, xoşbəxt Azərbaycana inamla ruhlandırdı. Heydər Əliyev xalqa heç vaxt icrası mümkün olmayan vədlər vermmiş, əksinə, əldə edilə biləcək nəticələri həmişə bəyan etmişdir. Onun əsas keyfiyyətləri müstəsna dürüstlük və güclü iradə, eləcə də ən yüksək təşkilatçılıq və tələbkarlıq, xüsusən özünə qarşı, hər bir insanı dinləmək və eşitmək bacarığı idi.

Belə bir dövlətçilik təcrübəsi bu gün Ukrayna dövlətini qurmaqda olanlar üçün də praktik mayak funksiyası daşıyır.

***Arif QULİYEV,***
***Kiyev Əqli Mülkiyyət və Hüquq Universitetinin professoru,***

***Veronika ÇEKALYUK,***
***Kiyev Milli Universitetinin əməkdaşı***

**Xuntaçıların məhkəməsi**

# Başlıbel qırğınının şahidləri erməni hərbçiləri ittiham edirlər

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası mayın 12-də davam etdirilib.**





Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə məhkəmə heyətini, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Məhkəmədə Ermənistanın işğal siyasətinin tərkib hissəsi olaraq həmin ölkənin silahlı qüvvələri tərəfindən Kəlbəcər rayonunda, o cümlədən rayonun Başlıbel kəndində, "Tunel" adlanan ərazisində və digər ərazilərində azərbaycanlıların kütləvi şəkildə məhv edilməsi, azərbaycanlı olduğuna görə dinc sakinlərə qarşı xüsusilə ağır cinayətlərin törədilməsi ilə bağlı zərərçəkmiş şəxslər ifadə verib.

Zərərçəkmiş şəxs Elşad Alışov ifadəsində Kəlbəcər işğal olunandan sonra Başlıbeli tərk etmək məcburiyyətində qaldıqlarını, bu zaman anası, bacısı, balaca qardaşı, əmisi qızları və əmisi gəlini ilə birlikdə maşınla tunel istiqamətindən rayonu tərk etmək istədiklərini deyib.

Baş Prokurorun böyük köməkçisi Vüsal Əliyevin sualına cavabında zərərçəkmiş şəxs deyib ki, müdafiə üçün heç bir silahı olmayıb, hadisə zamanı Ermənistan ordusu tərəfindən atılan güllələrdən biri anasının ayağına dəyib: "Onlar bütün tuneli mühasirəyə almışdılar. Oradan keçərkən maşınımızı atəşə tutdular. Nəticədə anam ayağından yaralandı, güllə bacımın ağzının içindən girib o biri tərəfdən çıxmışdı. Anamı kürəyimə alıb 300 metr apardım. Yusifgilin (qonşusu – red.) maşını da vurulmuşdu. Maşını yoxlamaq məqsədilə ora çatanda anamı yerə qoyub, Yusifgilin maşınına baxdım. Amma qardaşım istisna nə onu (anasını nəzərdə tutur – red.), nə də digərlərini çıxara bilmədim. Onlardan indiyədək xəbər yoxdur".

Yola qonşuları Yusiflə birgə çıxdıqlarını bildirən zərərçəkmiş şəxs onların olduğu maşının vurulduğunu da diqqətə çatdırıb. O, daha sonra deyib: "Yusif maşından 50–60 metr kənarda yaralı idi. Onun qardaşı ölmüşdü, həyat yoldaşı və bacısı qızı isə yaralı idi".

Digər zərərçəkmiş şəxs Elşad Əzizov Ermənistan silahlı qüvvələrinin Başlıbelə hücumu nəticəsində qolundan güllə yarası aldığını, hücum nəticəsində 12 nəfərin şəhid olduğunu diqqətə çatdırıb. Bildirib ki, Ermənistan ordusu kənd sakinlərinin evlərini talayır, mal-qaralarını aparırdılar.

O qeyd edib ki, Ermənistan silahlı qüvvələrinin hücumundan sonra Kəlbəcər demək olar bütün istiqamətlərdə mühasirədə olduğu üçün əhali Murov yolu ilə qaçmağa məcbur olub. E.Əzizov qaça bilməyənlərin isə dağlıq ərazidəki kahalarda məskunlaşdıqlarını və iyul ayına qədər Kəlbəcərdə qaldıqlarını vurğulayıb. Zərərçəkmiş şəxs vurğulayıb ki, kənd işğal olunanda Ermənistan silahlı qüvvələri mülki əhaliyə kəndi tərk etməyə imkan verməyib.

E.Əzizov bildirib ki, 113 gündən sonra gizli yolla Daşkəsən rayonuna gəlib çıxıblar.

O, Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun sualına cavabında bildirib ki, ermənilərin Kəlbəcərə ərazi iddiası 1987–1988-ci ildən başlamışdı: "Ermənilər azərbaycanlılara evlərini tərk etməsi üçün təzyiq göstərirdi. Kəlbəcər işğal olunanadək rayonda müxtəlif faciələr törədilib. Kənd işğal edilənədək isə Başlıbelin 1500-dən çox sakini var idi".

Dövlət ittihamçısı Təranə Məmmədovanın sualını cavablandıran zərərçəkmiş şəxs deyib ki, Kəlbəcər işğal olunandan sonra Ermənistan silahlı qüvvələri mülki əhalini 4 tərəfdən mühasirəyə alıb: "Məqsəd əhalini məhv etmək idi. Çünki çıxış üçün mülki azərbaycanlılara yol verilmədi. Əhalinin yeganə çıxışı Murov istiqamətində dağ yolu oldu".

İfadə verən zərərçəkmiş şəxs Habil Ələsgərov bildirib ki, aprelin 5-də Başlıbeldə güllə səsləri eşidilməyə başlayıb. "Kəndə hücum edən Ermənistan silahlı qüvvələrinin hərbçiləri evləri qarət edirdilər. Biz özümüzü müdafiə etmək məqsədilə kahalarda gizləndik. Onlar gizləndiyimiz yeri müəyyən etdikdən sonra bizi atəşə tutmağa başladılar. Gizləndiyimiz kahalara qazlı bombalar atdıqdan sonra içəridə qalmaq olmurdu. Çölə çıxıb içəridə hər kəsin öldüyünü desəm də, inanmadılar. Məndən tələb etdilər ki, kahada gizlənən insanları çağırıb çölə çıxarım", – deyə H.Ələsgərov vurğulayıb.

Zərərçəkmiş şəxs əlavə edib ki, Ermənistan ordusunun kahaya hücumu nəticəsində anası qolundan güllə yarası alıb: "Anamı gətirməyə gedəndə onu güllələdilər. Yanımızda olanların çoxu yaşlı və qadınlar idi. Ermənistan silahlı qüvvələri mülki əhaliyə heç bir sual vermədən görən kimi öldürürdülər. Orada xarici ölkələrdən muzdlular da var idi. Girov düşməmək üçün qaçdım ki, bəlkə məni öldürərlər. Amma qaça bildim. Yaşlı bir kişini mədəniyyət evində yandırmışdılar, sadəcə, başı qalmışdı. Bir qadını suya atmışdılar, hava soyuq olduğu üçün donaraq ölmüşdü. Onlar hətta heyvanları belə amansızlıqla öldürürdülər".

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin sualına cavab olaraq H.Ələsgərov deyib ki, Başlıbel üçün yeganə çıxış "Tunel" kimi tanınan yol olub. Lakin Ermənistan ordusu orada pusqu quraraq yolu bağlayıb. Ərazidə gizlənmək üçün meşə də olmadığından ümid kahalara qalıb. O, həmin kahalarda günlərlə ac-susuz, qaranlıqda qaldıqlarını deyib. Bildirib ki, onlar ya kahalarda acından ölməli, ya da həyatlarını təhlükəyə ataraq gecə gizli şəkildə kəndə ərzaq dalınca getməli idilər.

Sonra məhkəmədə dövlət ittihamını müdafiə edən prokurorlar tərəfindən Başlıbel əhalisinin müdafiə olunduqları kahaların və hadisə yerinin dronla çəkilmiş görüntüləri nümayiş etdirilib, zərərçəkmiş şəxslər məhkəmədə gizləndikləri kahanı tanıyıb.

Dövlət ittihamını müdafiə edən prokurorun Ermənistan ordusunun hansı istiqamətlərdən hücum etdiyi barədə sualına cavabında H.Ələsgərov onların Ağdabandan və Basarkeçərdən hücuma keçdiyini deyib.

İfadə verən zərərçəkmiş şəxs Tacirə Ələsgərova aprelin 18-də Başlıbeldə yaşanan faciədə sol qolundan güllə yarası aldığını və 8 gün ailəsindən ayrı düşdüyünü deyib.

Zərərçəkmiş şəxs dövlət ittihamçısı Vüsal Abdullayevin sualına cavabında bildirib ki, onlar kahalarda 113 gün soyuqda, ac-susuz vəziyyətdə sanki cəhənnəmi yaşayıblar.

Şahid qismində dindirilmiş Ədalət Abbasov ifadəsində bildirib ki, 1993-cü ilin aprelində onlar mağaralarda gizləndikləri vaxt Ermənistan ordusunun hərbçiləri kənddə qalan sakinləri amansızlıqla öldürüblər.

"Hüseyn adlı sakini kəndin mədəniyyət evinin içərisində üzərinə yanacaq töküb yandırıblar. Biz kəndin içərisinə gizlincə ərzaq dalınca gedəndə meyitləri gördük", – deyə o bildirib.

Ə.Abbasov əlavə edib ki, 1993-cü il aprelin 18-də Ermənistan ordusunun silahlanmış 30-a yaxın hərbçisi onların olduğu mağaralara yaxınlaşıb 10 nəfər Başlıbel kənd sakinini, 1 nəfər Laçın rayon sakini Əhliman adlı şəxsi və xidmət yoldaşı Vüqar Abdullayevi öldürüblər.

Dövlət ittihamçısı Fuad Musayevin "kahalara nə vaxt getdiniz?", "neçə nəfər idiniz?" sualına cavab verən zərərçəkmiş deyib: "Biz aprelin 5-də kahalara sığınıb orada qaldıq. 7-8 kaha var idi, hərəsində təxminən 10 nəfər yerləşirdi".

İfadə verən zərərçəkmiş şəxs Rüstəm Ələsgərov Başlıbeldə yolun kənarında Qənaət adlı sakinin meyitini gördüklərini deyib. O, Ermənistan ordusunun bölmələrinin insanlara hər cür işgəncə verdiklərini diqqətə çatdırıb.

"Ermənistan ordusunun hərbçilərinin öldürdüklərinin hamısı yaşlılar, qocalar, uşaqlar, ümumilikdə isə mülki insanlar idi", – deyə o əlavə edib.

Zərərçəkmiş şəxslərin nümayəndələrinin suallarına cavabında R.Ələsgərov hücum edənlər arasında xarici ölkələrdən muzdluların da olduğunu deyib. "Girov götürülənlərin bəziləri sonradan dəyişdirilib. Həmin insanlara girovluqda dəhşətli işgəncələr verilib", – deyə o əlavə edib.

Zərərçəkmiş şəxs Əli Zeynalov "Tunel" adlanan yerdə Ermənistan ordusunun pusqusuna düşdüklərini, hadisə nəticəsində qohumlarının itirdiyini bildirib.

O vurğulayıb ki, Ermənistan silahlı qüvvələri heç kimə aman vermədən yaşlıları, qadınları, uşaqları güllələbaran edib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarına cavabında Ə.Zeynalov Kəlbəcəri iki günə Murov istiqamətindən tərk edə bildiklərini deyib.

Daha sonra məhkəmədə ifadə verən zərərçəkmiş şəxs Arif Süleymanov aprelin 1-də mühasirədə qalan ailə üzvlərinə kömək etmək üçün piyada yolla Murov dağını aşaraq Kəlbəcər istiqamətinə getmək istədiyini, lakin ərazinin Tərtər çayı boyunca Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduğu üçün gedə bilmədiyini deyib.

"Buna görə də Yanşaq kəndi ərazisindən geri qayıtmaq məcburiyyətində qaldıq. Bir gün əvvəl isə Kəlbəcərdən qalxan sonuncu vertolyot da Ermənistan ordusu tərəfindən vurulmuşdu. Ermənistan silahlı qüvvələri "Tunel" deyilən ərazidə azərbaycanlıları pusquya salmaq üçün mövqe tutub, tuneli keçməyə cəhd edən bütün avtomobilləri atəşə tuturdular. Ona görə də insanlar məcburən Murova doğru istiqamət götürdü. Həmin yolu isə şaxtalı, qarlı havada getmək olduqca çətin idi. Kəndi tərk edən əhalinin böyük əksəriyyəti yaşlı olduğundan irəliləyə bilmədi", – deyə o, diqqətə çatdırıb.

Zərərçəkən əlavə edib ki, Başlıbel kəndi işğal olunan zaman itirib.

Məhkəmənin növbəti iclası mayın 15-nə təyin olunub.

# Xəzər – Qara Dəniz Yaşıl Enerji Dəhlizi

## *Bu layihə ölkəmizin qlobal enerji xəritəsini genişləndirəcək*

**Asiya İnkişaf Bankının (AİB) Mərkəzi və Qərbi Asiya Departamentinin regional əməkdaşlıq və əməliyyatlar üzrə koordinasiya şöbəsinin direktoru Ləzizə Sabırova Azərbaycan mediasına müsahibəsində təmsil etdiyi qurumun Xəzər – Qara Dəniz Yaşıl Enerji Dəhlizi layihəsini iqtisadi cəhətdən səmərəli hesab ediləcəyi təqdirdə daha da dəstəkləməyə hazır olduğunu bildirib.**

L.Sabırova qeyd edib ki, bu gün layihə üzrə ilkin texniki-iqtisadi əsaslandırmanın hazırlanması prosesi davam edir və sözügedən sənəd layihənin texniki, iqtisadi və tənzimləyici cəhətdən uyğunluğunu qiymətləndirmək məqsədi daşıyır.

Onun fikrincə, layihənin böyük həcmdə investisiya tələb edəcəyi şübhəsizdir və burada beynəlxalq maliyyə institutları ilə yanaşı, özəl sektor üçün də imkanlar mövcuddur. Əgər texniki-iqtisadi əsaslandırma layihənin kommersiya baxımından sərfəli olduğunu sübut edərsə, AİB maliyyələşmədə iştiraka daha çox maraqlıdır.

AİB-in şöbə direktorunun bildirdiyinə görə, təmsil etdiyi maliyyə qurumu Biləsuvar və Ələtdəki günəş elektrik stansiyalarını da əhatə edən bir sıra "yaşıl" enerji layihələrini təsdiqləyib. Bundan əlavə, elektrik enerjisinin ötürülməsi və paylanması ilə bağlı 160 milyon və 250 milyon dollar dəyərində iki kredit, eləcə də istilik və energetika sektorunun karbonsuzlaşdırılması üçün texniki yardım göstərib.



Qeyd edək ki, "yaşıl" enerjiyə keçidin qlobal trendləri fonunda Xəzər regionunun strateji əhəmiyyəti artmaqdadır. Azərbaycanın təşəbbüskarı olduğu Xəzər – Qara Dəniz Yaşıl Enerji Dəhlizi layihəsi bu baxımdan regionun enerji təhlükəsizliyi və iqlim gündəliyinə verdiyi töhfənin bariz nümunəsidir.

BMT-nin iqlim dəyişikliyi ilə bağlı çağırışları və Avropa İttifaqının (Aİ) "Yaşıl razılaşma" proqramı "yaşıl" enerjiyə keçidi geosiyasi prioritetlər sırasına çıxarıb. Bu transformasiya prosesində Azərbaycan yalnız karbohidrogen ixracatçısı kimi deyil, həm də bərpa olunan enerji mənbələrinin strateji tədarükçüsü kimi çıxış edir. 2022-ci ilin dekabrında Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanan "Yaşıl Enerji Dəhlizi üzrə Strateji Tərəfdaşlıq Sazişi" bu baxımdan dönüş nöqtəsi oldu.

Layihənin əsas mahiyyətinə gəldikdə isə deyə bilərik ki, Xəzər – Qara Dəniz Yaşıl Enerji Dəhlizi təşəbbüsü Azərbaycanın zəngin külək və Günəş enerjisi potensialının Qərb bazarlarına çatdırılmasını nəzərdə tutur. Layihənin əsas komponenti Qara dənizin dibi ilə çəkiləcək 1195 kilometr uzunluğunda dərin dəniz elektrik kabelidir. Bu kabel vasitəsilə ildə təxminən 4 GW gücündə "yaşıl" enerjinin Avropaya ötürülməsi planlaşdırılır.

Azərbaycan tərəfi əsasən Qaradağ, Abşeron və xüsusilə Qarabağ və Şərqi Zəngəzurda qurulacaq Günəş və külək elektrik stansiyalarından enerjini Gürcüstana, oradan isə Qara dəniz vasitəsilə Aİ ölkələrinə ötürməyi nəzərdə tutur. Bu, təkcə iqtisadi deyil, həm də siyasi baxımdan əhəmiyyətli bir addımdır: Azərbaycanın enerji ixracı portfeli şaxələnir, Avropanın isə enerji asılılığı azalır.

Layihənin həyata keçirilməsi üçün artıq ilkin texniki-iqtisadi əsaslandırma mərhələsi tamamlanır. Avropa İttifaqı bu təşəbbüsü "ümumi maraq doğuran layihə" kimi tanıyıb və maliyyə dəstəyi göstərməyə hazır olduğunu bildirib. Ümumilikdə kabelin çəkilməsi və enerji sistemlərinin inteqrasiyası üçün, təqribən, 2,5 milyard avrodan çox vəsait tələb olunduğu bildirilir.

Azərbaycan Prezidenti İlham Əliyev layihəyə xüsusi diqqət ayıraraq onun ölkənin enerji siyasətində növbəti mərhələ olduğunu dəfələrlə bəyan edib. Dövlətimizin başçısının vurğuladığı kimi, "yaşıl" enerji ixracı Azərbaycanın artıq qaz və neftdən ibarət olmayan yeni iqtisadi modelə keçdiyini göstərir.

Xəzər – Qara Dəniz Yaşıl Enerji Dəhlizi yalnız Azərbaycan üçün deyil, bütün Cənubi Qafqaz regionu üçün transformativ potensiala malikdir. Gürcüstan bu layihə vasitəsilə enerji tranzit ölkəsi rolunu gücləndirir, Rumıniya isə Qara dənizin enerji dəhlizinə çevrilməsində maraqlıdır. Macarıstan və digər Mərkəzi Avropa ölkələri isə alternativ, dayanıqlı və ekoloji təmiz enerji mənbələrinə çıxış əldə edirlər.

Eyni zamanda, layihə Azərbaycanın işğaldan azad olunan ərazilərinin dirçəldilməsi və iqtisadi inteqrasiyası üçün yeni imkanlar açır. Məsələn, Cəbrayıl, Zəngilan və Laçında qurulan "yaşıl enerji zonaları" bu böyük enerji sisteminə qoşulmaqla iqtisadi fəallığı artıracaq.

Layihə bölgədə sabitliyin və əməkdaşlığın möhkəmləndirilməsinə xidmət etsə də, geosiyasi çağırışlardan da tam sığortalanmayıb. Rusiya – Ukrayna müharibəsi, Qara dənizdəki təhlükəsizlik problemləri və bəzi texniki infrastruktur məhdudiyyətləri layihənin icra tempinə təsir göstərə bilər. Buna baxmayaraq, Aİ və tərəfdaş ölkələr bu təşəbbüsə sadiq qalaraq siyasi dəstəklərini davam etdirirlər.

Beləliklə, Xəzər – Qara Dəniz Yaşıl Enerji Dəhlizi təşəbbüsü Azərbaycanın regional enerji mərkəzindən qlobal yaşıl enerji tədarükçüsünə çevrilmək iradəsini ortaya qoyur. Bu layihə enerji təhlükəsizliyi, ekoloji dayanıqlıq və iqtisadi şaxələndirmə baxımından həm ölkə, həm də region üçün mühüm strateji üstünlüklər vəd edir. Bərpa olunan enerji sahəsində atılan bu addımlar Azərbaycanın qlobal iqlim gündəliyinə töhfəsini artırmaqla yanaşı, onun enerji diplomatiyasına da yeni məzmun gətirir.

### EKSPERT RƏYİ

**Yədulla HƏSƏNLİ,**
**İqtisadiyyat İnstitutunun professoru**



Asiya İnkişaf Bankı Xəzər dənizi vasitəsilə "yaşıl enerji dəhlizi"nin yaradılması layihəsinin həyata keçirilməsi üçün Texniki Yardım Xüsusi Fondu vasitəsilə 225 min ABŞ dolları ayırıb.

Bu layihə Azərbaycan, Qazaxıstan və Özbəkistanın enerji sistemlərini birləşdirəcək sualtı kabel çəkilişini nəzərdə tutur ki, bu da regional enerji əməkdaşlığının gücləndirilməsi və davamlı transsərhəd elektrik enerjisi ticarətinin yaradılması istiqamətində mühüm addım olacaq.

Layihənin icrasını nəzərə tutan Anlaşma Memorandumu 3 ölkənin hökumətləri tərəfindən 2 may 2024-cü il tarixində imzalanıb və layihə regionda enerji təhlükəsizliyinin təmin edilməsinə, davamlı enerji təcrübələrinin inkişafına və iqtisadi artımın dəstəklənməsinə yönəlib. Layihə çərçivəsində, eləcə də bərpa olunan enerjinin Xəzər regionundan Qara dənizdəki kabel vasitəsilə Avropaya ötürüləcəyi "yaşıl dəhliz"in yaradılması nəzərdə tutulur.

Texniki yardım əhəmiyyətli investisiyalar tələb edəcək bu regional layihənin araşdırılması və hazırlanması üçün təqdim edilib. AİB layihəyə müxtəlif tədbirlər vasitəsilə texniki dəstək göstərir, o cümlədən hökumətlərarası işçi qrupların formalaşdırılmasına, xüsusi təyinatlı müəssisənin və ya birgə müəssisənin yaradılmasına, şəffaf və səmərəli idarəetmə strukturunun, hüquqi və kommersiya çərçivələrinin işlənib hazırlanmasına və əlavə məsləhət dəstəyinin göstərilməsinə, yüksək keyfiyyətli texniki qiymətləndirmələrin, habelə texniki-iqtisadi əsaslandırmaların reallaşdırılması üçün ölkə nümayəndələrinin potensialının artırılmasına kömək edəcək.

Bu layihə təkcə Mərkəzi Asiyada enerji əməkdaşlığını gücləndirməyəcək, həm də Paris sazişinin məqsədlərini və "yaşıl" enerji infrastrukturunun inkişafını dəstəkləyərək istixana qazı emissiyalarının azaldılmasına kömək edəcək.

# İslam Korporasiyası özəl sektora dəstəyini davam etdirir

**Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyasının fəaliyyətində ölkəmizdə dağ-mədən sənayesi, tikinti, sement istehsalı, pambıqçılıq və sənayenin digər sahələrində strateji investisiya imkanlarının araşdırılmasına hər zaman xüsusi önəm verilib. Qurumun baş investisiya direktoru Baa Aldin Yəhya Kirimlinin rəhbərlik etdiyi nümayəndə heyətinin Bakıya səfəri zamanı da bu məsələ diqqət mərkəzində saxlanılıb.**

Hazırda korporasiyanın fəaliyyətində yod hasilatı, Günəş enerjisi, dayanıqlı tikinti və kənd təsərrüfatı məhsullarının emalı kimi sahələrdə birgə investisiyalar potensialına xüsusi diqqət yetirilir. Bundan məqsəd isə kiçik və orta sahibkarlığı dəstəkləmək, özəl sektoru inkişaf etdirmək və bütün ölkə üzrə iqtisadi artımı stimullaşdırmaqdır.

Qeyd edək ki, respublikamızın iqtisadi inkişaf strategiyasında özəl sektorun gücləndirilməsi və diversifikasiya hazırda əsas prioritetlərdən biri olaraq qalır. Bu istiqamətdə ölkə beynəlxalq maliyyə institutları ilə əməkdaşlığa xüsusi önəm verir. Həmin qurumlardan biri də İslam İnkişaf Bankı Qrupuna daxil olan Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyasıdır. 1999-cu ildə yaradılan bu qurumun əsas məqsədi üzv ölkələrdə özəl sektorun inkişafına dəstək vermək, investisiyaların cəlbi və İslam maliyyə alətlərinin tətbiqini təşviq etməkdir.

Azərbaycanla sözügedən korporasiya arasında əməkdaşlıq 2000-ci illərin əvvəllərindən başlayıb və indiyədək bir neçə mühüm layihəni əhatə edib. Korporasiya Azərbaycanda əsasən kiçik və orta sahibkarlığın inkişafı, İslam maliyyə institutlarının yaradılması və yerli bank sektoruna kapital yatırımı vasitəsilə fəaliyyət göstərib.

Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası tərəfindən Azərbaycanın müxtəlif maliyyə institutlarına ayrılan resurslar xüsusilə kiçik və orta sahibkarlıq sektoruna yönəlib. Məsələn, bir neçə yerli bank sözügedən korporasiyası ilə əməkdaşlıq çərçivəsində İslam maliyyə prinsiplərinə uyğun kredit məhsulları təqdim etməyə başlayıb. Bu isə regionlarda fəaliyyət göstərən sahibkarların maliyyə resurslarına çıxış imkanlarını genişləndirib və qeyri-neft sektorunun canlanmasına şərait yaradıb.

2020-ci ildən sonra korporasiya ilə əməkdaşlıq yeni mərhələyə qədəm qoyub. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası və bu ərazilərdə sahibkarlığın inkişafı gündəmə gəldikcə, haqqında danışılan qurum bu istiqamətdə də dəstəyini təklif edib. Xüsusilə halal turizm, aqrar sənaye və logistika sahələrində investisiya təşəbbüsləri aktuallaşıb.

Bununla yanaşı, Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası Azərbaycanın İslam maliyyəsi sisteminə inteqrasiyası baxımından da mühüm tərəfdaş hesab olunur. Bu sahədə potensial böyükdür: İslam bankçılığı, sukuk (İslam istiqrazları) və digər alternativ maliyyə alətləri həm xarici investisiyaların cəlbinə, həm də yerli maliyyə sektorunun dərinləşməsinə xidmət edə bilər.

Nəticə etibarilə, korporasiya ilə əməkdaşlıq Azərbaycanın iqtisadiyyatında özəl sektorun dayanıqlı inkişafı, maliyyə alətlərinin şaxələndirilməsi və beynəlxalq təcrübənin tətbiqi baxımından mühüm rol oynayır. Gələcəkdə bu əməkdaşlığın genişlənməsi, xüsusən də Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası, eləcə də rəqəmsal iqtisadiyyat sahələrində yeni layihələrin reallaşması gözlənilir.

# Avropa İttifaqı ilə enerji əməkdaşlığının hədəfləri



**Energetika naziri Pərviz Şahbazov və Avropa Komissiyasının Şərq Qonşuluğu və Genişlənmə Danışıqları üzrə Baş direktoru Qert Yan Kupman arasında görüş olub.**

Energetika Nazirliyinin məlumatına görə, görüşdə Azərbaycanla Avropa İttifaqı arasında enerji əməkdaşlığının prioritet istiqamətləri müzakirə edilib. Söhbət zamanı 2021-2024-cü illər ərzində Azərbaycanın Aİ-yə qaz ixracının 57 faizdən çox artdığı vurğulanaraq Cənub Qaz Dəhlizinin genişləndirilməsi və tədarük həcmlərinin artırılması üçün investisiyalar və uzunmüddətli müqavilələrin vacibliyi qeyd olunub. Aİ-nin qaz layihələrinin maliyyələşdirilməsinə dair siyasəti nəzərdən keçirilib.

Baş direktor Qert Yan Kupman tərəfindən Orta Dəhliz kontekstində regionla Aİ arasında enerji və elektrik ticarətini artırmağa yönəlmiş planlar çərçivəsində Azərbaycanla əməkdaşlığa, xüsusilə "Xəzər – Qara Dəniz – Avropa Yaşıl Enerji Dəhlizi"nə xüsusi maraq ifadə edilib. Söhbət əsanasında layihənin texniki-iqtisadi əsaslandırma mərhələsində olması, Avropa Elektrik Ötürücü Sistem Operatorları Şəbəkəsinin (ENTSO-E) 10 illik inkişaf planına (TYNDP) daxil edilməsi üçün həyata keçirilən proseslər, dəhlizin elektrik enerjisi ilə yanaşı, fiber-optik komponenti, eləcə də növbəti mərhələdə "yaşıl" enerjinin tədarük imkanları barədə məlumat verilib. Bu dəhlizin "Mərkəzi Asiya – Azərbaycan Yaşıl Enerji Dəhlizi" ilə əlaqələndirilməsi perspektivi diqqətə çatdırılıb.

Nazir Pərviz Şahbazov bildirib ki, layihə Avropa ilə Mərkəzi Asiyanı Azərbaycan vasitəsilə birləşdirə bilər, bu da gələcəkdə Qazaxıstan və Özbəkistandan böyük həcmlərdə enerji resurslarının Avropaya ötürülməsini təmin edə və Ai-nin enerji təchizatının şaxələndirilməsi baxımından mühüm rol oynaya bilər.

Görüşdə, həmçinin Azərbaycan – Avropa İttifaqı enerji dialoqunun üçüncü iclasının keçirilməsi ilə bağlı da fikir mübadiləsi aparılıb.

# Sağlam rəqabətə "yaşıl" işıq

**2025-ci ilin birinci rübündə Azərbaycanda bazar subyektləri tərəfindən haqsız rəqabətə yol verilməsi ilə əlaqədar 59 müraciətə baxılıb. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 47,5 faiz artım deməkdir. Əvvəlki ilin eyni dövründə bazar subyektləri tərəfindən haqsız rəqabətə yol verilməsi ilə əlaqədar 40 müraciətə baxılıb. Bu barədə XQ-yə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyindən məlumat verilib.**



Bildirilib ki, ölkədə rəqabət mədəniyyətinin mövcud olduğu mühitdə şirkətlər bazar payı əldə etmək üçün keyfiyyətin artırılması, innovativ yanaşmaların tətbiqi və istehlakçı məmnuniyyətinin yüksəldilməsi kimi müsbət hallərə üstünlük verirlər. Bu isə haqsız rəqabət hallarının qarşısını almaqla yanaşı, ədalətli və şəffaf bazar mühitinin təmin olunmasına şərait yaradır.

Qeyd edək ki, haqsız rəqabət dedikdə, bazarda fəaliyyət göstərən sahibkarların (şirkətlərin və ya fərdi sahibkarların) rəqiblərinə qarşı qanunsuz və ədalətsiz metodlarla üstünlük əldə etməyə çalışmasıdır. Bu kimi hallara isə başqa bir şirkətin məhsulunu və ya brendini təqlid etmək, yalan reklam vermək, saxta endirim kampaniyaları keçirmək, rəqib şirkət barədə yanlış və zərərli məlumat yaymaq və sair məlumatlar aid edilə bilər.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

(əvvəli 1-ci səhifədə)

# Azad Qarabağ "ağıllı" layihələrlə dirçəldilir



Qarabağ və Şərqi Zəngəzurun bərpası zamanı xristian irsinə də eyni həssas münasibət bəslənilir. Prezident İlham Əliyevin siyasi iradəsi nəticəsində Qazançı kilsəsi, Xudavəng monastırı və digər dini abidələrin təmiri Azərbaycan xalqının multikultural və tolerant dəyərlərə sadiqliyinin parlaq nümunəsidir.

Ərazilərdə yaşayışın bərpası və əhalinin geri qayıdışı ilə bağlı ən vacib məsələlərdən biri də səhiyyə sisteminin əsaslı şəkildə yenidən qurulmasıdır. Bu istiqamətdə artıq bir sıra uğurlu addımlar atılıb. Füzuli, Zəngilan və Laçın rayonlarında yeni xəstəxanalar inşa olunub və müasir tibbi avadanlıqlarla təchiz edilib. Tibbi personal üçün yaradılan şərait onların bölgədə uzunmüddətli və keyfiyyətli fəaliyyətini gerçəkləşdirib.

"Rəqəmsal səhiyyə" modeli əsasında uzaq kəndlərdə yaşayan əhalinin müasir tibbi xidmətlərə çıxışının təmin olunacağı da nəzərdə tutulur. Elektron səhiyyə sistemləri mərhələli şəkildə regionda tətbiq olunmaqdadır. Bu, xüsusilə dağlıq və uzaq yaşayış məntəqələrində yaşayan insanlar üçün mühüm önəm daşıyır.

Şuşada müasir tibb ocağının yaradılması, mayın 9-da isə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə həmin səhiyyə müəssisəsinin açılışı mərasiminin keçirilməsi də Qarabağda səhiyyə sisteminin inkişafının diqqət mərkəzində saxlanılmasından xəbər verir. Şuşa Müalicə-Sağlamlıq Mərkəzi şəhərdə yaşayan əhalinin tibbi təminatı və sağlamlığının qorunması istiqamətində icra olunan sosial infrastruktur layihəsi kimi çox mühüm rol oynayır.

Yeri gəlmişkən, Azərbaycanın mədəniyyət paytaxtı sayılan Şuşa 2020-ci il noyabrın 8-də işğaldan azad edildikdən sonra burada genişmiqyaslı tikinti-quruculuq prosesinə başlanılıb. Şəhərin tarixi simasının və mədəni irsinin qorunub saxlanılmaqla bərpa olunması qarşıya mühüm vəzifə kimi qoyulub. İndiyədək Şuşada 376 ailə, ümumilikdə, 1409 nəfərdən artıq keçmiş məcburi köçkün məskunlaşdırılıb. Qeyd edək ki, Şuşada 450 mənzildən ibarət 23 bina artıq sakinlərin istifadəsinə verilib. Növbəti mərhələdə isə daha 3 layihənin icrası nəzərdə tutulub.

Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, Qarabağ regionu ən müasir texnologiyalarla, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları ilə qurulacaq. Bu konsepsiya artıq bir sıra bölgələrdə tətbiq olunub. Zəngilan rayonunun Ağalı kəndində inşa olunan ilk "ağıllı kənd" layihəsi uğurla həyata keçirilib və sakinlərin qayıdışı gerçəkləşib.

Şuşa şəhərində və Ağdamda salınan yeni yaşayış kompleksləri, çoxmənzilli binalar, məktəblər, uşaq bağçaları və digər sosial obyektlər bölgədə yeni bir həyatın, səmərəli, faydalı fəaliyyətin əsasını qoyur. Bu komplekslər müasir urbanistik planlama ilə tikilir və enerji effektivliyi baxımından yüksək göstəricilərə malikdir. Tikinti "yaşıl bina" prinsiplərinə əsasən gerçəkləşdirilir.

Qarabağ və Şərqi Zəngəzur bölgələrinin "yaşıl enerji zonası" elan olunması mühüm strateji qərarlardan biridir. Bu ərazilərdə Günəş, külək və hidroenerji potensialının yüksək olduğu nəzərə alınaraq, bərpaolunan enerji mənbələri üzrə layihələr həyata keçirilir. Xüsusilə, Laçın və Kəlbəcər rayonlarında külək enerjisi, Zəngilan və Cəbrayılda isə Günəş enerjisi stansiyalarının qurulması planlaşdırılır.

Prezident İlham Əliyevin 2021-ci il 3 may tarixli sərəncamı ilə Azərbaycan Respublikasının işğaldan azad edilən ərazilərində "yaşıl enerji zonası"nın yaradılması istiqamətində tədbirlərə başlanılıb. Sərəncamın icrasını reallaşdırmaq məqsədilə Nazirlər Kabinetinin 2022-ci il 21 iyun tarixli sərəncamı ilə prioritet isitqamətləri özündə ehtiva edən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə "yaşıl enerji zonasının yaradılması üzrə Tədbirlər Planı" təsdiqlənib.





"Azərişıq" ASC-nin Qarabağ Regional Enerji Təchizatı və Satışı idarəsinin baş mühəndisi Mübariz Zərbəliyevin mediaya bildirdiyinə görə, Ağdam, Əsgəran, Xocalı və Xankəndi şəhərləri arasında dairəvi elektrik təchizatı sxemi yaradılacaq. 3200 KVA gücündə "Xocalı" yarımstansiyası bir neçə sahəni fasiləsiz elektrik enerjisi ilə təmin edəcək.

"Xocalı" Yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzi Xocalı rayonu ərazisində inşa edilən yeni yaşayış komplekslərinin, həmçinin kənd təsərrüfatı və turizm obyektlərinin, xüsusilə də sosial-iqtisadi təyinatlı müxtəlif sahələrin fasiləsiz elektrik enerjisi təminatını həyata keçirmək məqsədi daşıyır.

Yarımstansiyanın elektrik təchizatı üçün "Xankəndi-1" və "Əsgəran" yarımstansiyalarından müvafiq elektrik verilişi xətləri çəkilib. Bu yarımstansiya, həmçinin tikintisi aparılan 35 kV-luq elektrik verilişi xətti vasitəsilə "Ağdam-2" yarımstansiyası ilə əlaqələndiriləcək ki, bununla da Ağdam, Əsgəran, Xocalı, Xankəndi şəhərləri arasında dairəvi elektrik təchizatı sxemi yaradılacaq.

Yarımstansiya elektrik enerjisinin ötürülməsi zamanı itkilərin və ümumi istismar xərclərinin azaldılmasına da şərait yaradır. Rəqəmsal İdarəetmə Mərkəzində 52 kVt gücündə Günəş panelləri də quraşdırılıb və istehsal olunan enerjinin şəbəkəyə ötürülməsi təmin edilib.

Bölgənin iqtisadi potensialını reallaşdırmaq üçün, ilk növbədə, müasir infrastrukturun qurulması zəruridir. Bu baxımdan yol-nəqliyyat infrastrukturu strateji əhəmiyyət daşıyır. Azərbaycan dövləti işğaldan azad edilən ərazilərdə 8 beynəlxalq və regional avtomobil yolunun, 3 hava limanının və 2 dəmir yolu xəttinin tikintisini prioritet hesab edir.

Füzuli, Zəngilan və Laçın beynəlxalq hava limanlarının tikilməsi regionun nəqliyyat əlçatanlığını əhəmiyyətli dərəcədə artırıb. Füzuli – Şuşa, Horadiz –Zəngilan – Ağbənd, Kəlbəcər – Laçın kimi yollar təkcə sərnişin və yük daşımalarını asanlaşdırmır, eyni zamanda, bölgənin kənd təsərrüfatı və sənaye imkanlarının ölkə iqtisadiyyatı ilə inteqrasiyasını təmin edir.

İnfrastrukturun qurulması ilə paralel olaraq, Qarabağ və Şərqi Zəngəzurda sahibkarlığın inkişaf etdirilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Dövlət tərəfindən təqdim edilən güzəştli kreditlər, subsidiyalar və texniki dəstək mexanizmləri yerli və xarici investorların bu coğrafiyaya marağını artırır.

Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondu bu bölgədə müxtəlif sahələr üzrə – kənd təsərrüfatı, emal sənayesi, turizm və xidmət sektorunda layihələri maliyyələşdirir. Eyni zamanda, "ağıllı kənd" və "ağıllı şəhər" konsepsiyası çərçivəsində iş adamlarına innovativ texnologiyalarla işləməyə imkan yaradan mühit formalaşdırılır.

Əlavə olaraq, sənaye parklarının və aqroparkların salınması regionun iqtisadi xəritəsində özəl sektorun fəallığını daha da artırır. Zəngilan rayonunda yaradılan "Araz Vadisi İqtisadi Zonası" bu baxımdan əhəmiyyətli təşəbbüslərdən biridir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında quruculuq və sahibkarlıq fəaliyyəti yalnız fiziki infrastrukturla deyil, həm də güclü hüquqi-normativ baza ilə dəstəklənir. Azərbaycan hökumətinin bölgə üçün xüsusi inzibati-hüquqi rejimin formalaşdırılmasına yönələn bir sıra normativ sənədlər qəbul etməsi də bunun bariz ifadəsidir.

"İşğaldan azad olunmuş ərazilərin bərpası və davamlı inkişafı haqqında Dövlət Proqramı" bu istiqamətdə əsas yol xəritəsi kimi dəyərləndirilir. Ərazilərdə torpaq münasibətləri, vergi güzəştləri, investisiya təşviqi, gömrük imtiyazları və ətraf mühitin qorunması ilə bağlı qanunvericilik aktları sahibkarların hüquqlarını təmin etməklə yanaşı, rəqabətədavamlı mühitin yaranmasını da şərtləndirir.

Onu da xatırladaq ki, "Yaşıl enerji zonası" statusunun verilməsi ilə ərazilərdə alternativ enerji layihələrinin həyata keçirilməsi üçün hüquqi baza formalaşdırılıb. Bu yanaşma həm dayanıqlı iqtisadi artımı təmin edib, həm də xarici investorların marağını artırıb.

İşğaldan azad olunmuş torpaqlarımıza Böyük Qayıdış Azərbaycanın iqtisadi potensialının artmasına geniş imkanlar yaradır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında sahibkarlıq fəaliyyətinin təşviqi biznes cəlbediciliyinin yüksəlməsində, regionun inkişafında və əhalinin rifahının yaxşılaşdırılmasında mühüm rol oynayır. Bölgədə yeni istehsal müəssisələrinin qurulması, məşğulluğun təmin olunması məqsədilə yerli və xarici investorların cəlbi istiqamətində dəstək tədbirləri həyata keçirilir.

İşğaldan azad edilmiş ərazilərin zəngin resurs və infrastruktur potensialından səmərəli istifadə, dövlət-özəl sektor tərəfdaşlığı və ən əlverişli biznes mühiti əsasında iqtisadi fəaliyyətin canlandırılması və dayanıqlı məskunlaşmanın gerçəkləşdirilməsi məqsədilə Prezident İlham Əliyevin 2021-ci il 10 dekabr tarixli "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Sərəncamı təsdiqlənib.

Adıçəkilən sərəncamın icrası istiqamətində güzəşt və azadolmalar müəyyənləşdirilib. İlk növbədə, vergi və gömrük güzəştlərinin tətbiqi diqqətdə saxlanılıb. Belə ki, işğaldan azad edilən ərazilərin rezidentlərinin 10 il müddətində mənfəət (gəlir), əmlak, torpaq, sadələşdirilmiş vergidən azad edilməsi qərara alınıb. Müvafiq sahələr üzrə idxal olunan avadanlıqlar 10 il müddətinə ƏDV və gömrük rüsumlarından azad olunub.

İşğaldan azad edilən ərazilərdə fəaliyyət göstərən qeyri-dövlət sektoru üzrə sığortaedənlər tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqqının subsidiyalaşdırılması, muzdlu işə aid olmayan fəaliyyətdən (fərdi sahibkarlar, ailə-kəndli təsərrüfatları) gəlir əldə edən sığortaolunan tərəfindən ödənilmiş məcburi dövlət sosial sığorta haqqının 10 il müddətinə 100 faiz həcmdə subsidiyalaşdırılması təsdiqlənib.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa-quruculuq layihələrinin geniş vüsət almasını dövlət büdcəsindən bu məqsədlə ayrılan vəsaitin həcmi də aydın göstərir. Məsələn, 2020-2024-cü illərdə işğaldan azad olunan ərazilərin yenidən qurulması və bərpası üçün dövlət büdcəsindən 17,6 milyard manat, o cümlədən 2024-cü ildə 5,3 milyard manat vəsait ayrılıb, 2025-ci ildə isə bu məqsədlə 4 milyard manat vəsait xərclənməsi nəzərdə tutulub.

***V.BAYRAMOV***
***XQ***





# Prezident İlham Əliyev: Erməni faşizmi faşizmin ən yüksək nöqtəsidir

(əvvəli 1-ci səhifədə)

Dövlətimizin başçısının Ermənistanın işğalçı mövqeyi ilə bağlı "erməni fazişmi" ifadəsini növbəti dəfə dilə gətirməsi adi məsələ sayıla bilməz və bu məqamı nə üçün qabartdığımıza aydınlıq gətirəcəyik. Hələlik isə bildirək ki, Prezident İlham Əliyev ilk dəfə 2020-ci il dekabrın 10-da Bakıda keçirilmiş Zəfər paradındakı çıxışı zamanı bildirmişdi ki, "erməni faşizmi bir daha baş qaldırsa, nəticə də eyni olacaq. Azərbaycanın dəmir yumruğu yenə onların belini qıracaq".

Ölkəmizin lideri 2022-ci ilin yanvarında AZƏRTAC-a müsahibəsində "elə etməliyik ki, erməni faşizmi bundan sonra heç vaxt baş qaldırmasın" fikrini dilə gətirmişdi. Prezident İlham Əliyev 2025-ci ilin yanvarında yerli televiziya kanallarına müsahibəsində Ermənistanı "faktiki olaraq faşist dövləti" adlandırmış və əlavə etmişdir ki, faşizm ya Ermənistan rəhbərliyi tərəfindən məhv edilməlidir, ya da onu Azərbaycan məhv edəcək. "Erməni faşizmi faşizmin ən yüksək nöqtəsidir" fikrini isə dövlətimizin başçısı bu ilin martında Ağdamın Sarıcalı kəndində səsləndirmişdi. Nəzərə alaq ki, cənab Əliyevin bütün sözləri reallıqla dərin fiksasiya təbiətinə malikdir.

*

Baş nazir Nikol Paşinyan İkinci Dünya müharibəsində qələbənin 80 illiyi ilə bağlı təbrik mətnində bildirib ki, savaş Almaniyada və ona müttəfiq olan bir sıra digər ölkələrdəki nasist (faşist) ideologiyası səbəbindən başlamışdı və sözügedən ideologiyanın mahiyyəti bir millətin və ya millətlər qrupunun digərinə qarşı üstünlüyünü irəli sürmək idi. Bir çox xalqlar və dövlətlər birləşərək bunun əksini sübut etdilər və qələbə qazandılar. Məsələ ondadır ki, Ermənistan Azərbaycana qarşı məhz faşist siyasəti həyata keçirib. Əslində, bu, erməni cəmiyyətinin marginallaşmasından qaynaqlanır.

Marginallaşmada faşizm elementlərinin mövcudluğunu sübuta yetirməyə ehtiyac yoxdur. Məsələ ondadır ki, özünü üstün tutmaq istəyən, Azərbaycan xalqını heçə sayan ermənilər olub və bu xarakter torpaqlarımızın işğalı reallığını doğurub.



Dövlətimizin başçısının da bildirdiyi kimi, 44 günlük müharibə erməni faşizminə sarsıdıcı zərbə vurdu. Ancaq bu faşizmin tamamilə aradan qalxdığını söyləmək olmaz. Birincisi, elə həmin Paşinyan administrasiyası Azərbaycanla sülhdən uzaq mövqe tutur və ölkəmizin barış sazişinin imzalanması üçün irəli sürdüyü şərtləri qəbul etmir. İkicisi isə Ermənistanda hələ də revanşist və şovinistlər at oynadırlar. Erməni cəmiyyətində bu xəstə düşüncə sahiblərinin tərəfdarları var, onların təmsilçiləri hətta ölkə parlamentində mandat sahibidirlər. Söhbət Ermənistanın ikinci və üçüncü prezidentləri Robert Koçaryanın və Serj Sarkisyanın nümayəndələrindən gedir.

Qeyd edək ki, bu iki məxluq da 9 may faşizm üzərində qələbənin 80 illiyi ilə bağlı erməni xalqına təbrik ünvanlamışdı. Xüsusən, Sarkisyanın təbriki özünün miqyası və aqressiv subliminalizmi baxımından diqqət çəkmişdi. O da bütün Ermənistanın katolikosu II Qaregin kimi 9 may tarixi fonunda təcavüzkar ritorikanı gündəmə gətirmişdi: "İllərdir ki, əziz 9 may tarixini üçqat bayram kimi qeyd edirdik. Təəssüflər olsun ki, son onilliklərdə qazandığımız şanlı qələbələrimizin sübutu olan bu bayramlardan ikisi – Şuşinin azad edilməsi və Artsaxın Müdafiə Ordusunun yaradılmasının ildönümü Ermənistanın mövcud antimilli siyasətçilərinin itkiləri ucbatından əldən gedib. Bizim şanlı qələbələrimiz oldu və bu qələbələr gələcək nəsilləri yeni cəsarətli işlər görməyə, zəfər bayramlarımızı bərpa etməyə səsləyir".

Tam aydındır ki, Xocalı cəlladı olan Sarkisyan bu fikirləri ilə erməni cəmiyyətində revanşist baxışları aşılayır, qədim şəhərimiz Şuşanı yenidən işğal etməkdən dəm vurur. Məlumdur ki, Şuşanın işğalı təkcə bir şəhərimizin qəsbi deyildi. Ondan sonra biz neçə-neçə işğallara şahidlik etdik. Bu yerdə Prezident İlham Əliyevin Ağdam Muğam Mərkəzinin açılışındakı çıxışı zamanı səsləndirdiyi daha bir fikri yada salaq: "Otuz iki il ərzində bir çox hadisələr baş vermişdir. Ancaq bütün hadisələrə, bütün çətinliklərə baxmayaraq, biz inkişaf yolumuzdan dönmədik. O vaxt müharibəni dayandırmaq gənc dövləti xilas etmək üçün yeganə yol idi. Ağır bir qərar idi. Torpaqlarımızın böyük hissəsi işğal altında idi, bir milyondan çox insan evsiz-eşiksiz qalmışdı. Ancaq müharibə dayanmasaydı, biz daha böyük faciə ilə üz-üzə qala bilərdik. Bu, çox müdrik, amma çətin qərar idi. Bu, bizə imkan verdi ki, Azərbaycan inkişaf yoluna qədəm qoysun. İmkan verdi ki, sabitlik bərpa edilsin, nizami ordu qurulsun, iqtisadi inkişaf üçün ilkin imkanlar yaransın, nizami ordu yaradılsın. Yəni, biz bütün keçmiş tarixə nəzər salarkən, təbii ki, görürük, nə qədər məqsədyönlü, düşünülmüş addımlar atılmışdır. O addımlar ki, bugünkü Azərbaycan reallıqlarını təmin edir".

S.Sarkisyanın Azərbaycan torpaqlarının işğalı ilə bağlı vaxtilə dilə gətirdiyi "biz öz işimizi gördük, bizdən sonra gələn nəsillər də öz işlərini görməlidirlər" fikrinin mövcudluğunu nəzərə alsaq, tam əminliklə deyə bilərik ki, avantürizmə söykənmiş erməni faşizmi Qarabağla kifayətlənməyəcəkdi. Vaxtilə İrəvanla, sonra Göyçə və Zəngəzurla kifayətlənmədiyi kimi. Deməli, ulu öndər Heydər Əliyev 1994-cü ildə atəşkəsə nail olmaqla belə bir qorxunc ssenarinin qarşısını almışdı.

Digər tərəfdən, erməni faşizminin azərbaycanlıları Kür çayınadək qovmaq planlarının olduğunu, məsələn, Gəncə kimi qədim şəhərimizi "Qanzak" adlandırdıqlarını bilirik. Sarkisyanın vaxtilə dediyi sözlərdən isə belə çıxmışdı ki, gələcək erməni nəsilləri Azərbaycanın yerdə qalan ərazilərini işğal etməli imişlər. Üstəlik, bu Xocalı cəlladının "Qərbi Ermənistan" deyib Türkiyə torpaqlarına da göz dikdiyi kimsəyə sirr deyil.

Sonda qeyd edək ki, N.Paşinyan 9 may təbrikinin sonunda Azərbaycanla sülhün mütləq əldə olunacağından söz açmış, gəlişigözəl beynəlmiləl notlu barış "zəngulələri vurmuşdur". Bu, həmin Paşinyandır ki, "Qarabağ Ermənistandır və nöqtə" bəyanatını vermiş, onun o zamankı müdafiə naziri isə "yeni ərazilər uğrunda yeni müharibə" şüarını səsləndirmişdi. Deməli, Nikol və tərəfdarları mahiyyətcə nə Sarkisyandan, nə də Koçaryandan geri qalırlar.

Hesab edirik ki, erməni faşizmi canını tapşırmayıb. Hesab edirik ki, məcburən düz yola gətirdiyimiz Paşinyan administrasiyası qarşıdakı müddətdə sülh yolunda səmimi olmaq istəyirsə, bunun daha bir xoş niyyəti kimi Xocalı cəlladları olan Sarkisyanı və Koçaryanı Azərbaycana təhvil verməlidir. Bu məxluqlar da ərazilərimizdə çoxsaylı cinayətlərdə ittiham olunan ermənilər kimi Bakıda məhkəmə qarşısında dayanmalıdırlar. Ermənistan Cənubi Qafqaz coğrafiyasında mövcud olmaq istəyirsə, faşizmi yox etməlidir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Sülh prosesinə raketdən atəş

(əvvəli 1-ci səhifədə)

Əlbəttə, bu əməkdaşlığa yalnız silah alqı-satqı əməliyyatı kimi yanaşılmamalıdır. Bu, eyni zamanda, siyasi mesajdır: Hindistan Cənubi Qafqazda öz mövcudluğunu formalaşdırmağa çalışır və Ermənistan bu məqsəd üçün alətə çevrilib. Bu, həm də Hindistanın qlobal güc statusuna iddiasının regional təzahürüdür. Hindistan Ermənistana bu cür dəstək göstərməklə Cənubi Qafqazda özünü siyasi və hərbi aktor kimi göstərmək istəyir.

Digər tərəfdən, Hindistanın Ermənistana yönəlmiş silah siyasətinin arxasında yalnız iqtisadi və ya texniki maraqlar dayanmır, daha dərin geosiyasi məqsədlər mövcuddur. Nyu–Dehli Pakistanla qarşıdurmada Azərbaycanın İslamabadla sıx tərəfdaşlığını diqqətlə izləyir. Azərbaycan–Pakistan–Türkiyə üçbucağı Hindistan üçün strateji narahatlıq doğuran güc mərkəzinə çevrilməkdədir. Beləliklə, Ermənistanın silahlandırılması Hindistan üçün həm bu "üçlüyə" cavab, həm də bölgədə nüfuz qazanmaq cəhdidir.

Bundan əlavə, Hindistanın Ermənistana silahları İran üzərindən çatdırması bu məsələyə əlavə strateji ölçü qazandırır. İran–Hindistan əlaqələrinin logistik və təhlükəsizlik baxımından bu prosesə daxil edilməsi həm də Tehranın Cənubi Qafqazdakı roluna yenidən baxılmasını aktuallaşdırır.

*

Hindistanın Ermənistanı silahlandırması istiqamətində yeni xəbər var. Bu da iyul ayında Ermənistana "Akash" zenit-raket komplekslərinin ikinci partiyasının göndəriləcəyi ilə bağlıdır. Bu barədə "Hindistan Aerokosmik Müdafiə Xəbərləri" (IADN) saytı məlumat yayıb. Ötən il noyabrın sonunda KİV-də Hindistanın Ermənistana "Akash" hava hücumundan müdafiə sistemlərinin ilk batareyasının göndərildiyi barədə məlumat yayılmışdı. "New Indian Express"in məlumatına görə, 2022-ci ildə Ermənistan Hindistanla təxminən 60 milyard rupi (710 milyon dollar) dəyərində 15 "Akash" raket kompleksinin alınmasına dair müqavilə imzalayıb və bu raket sistemini alan ilk xarici ölkə olub.

Qeyd edək ki, Ermənistan 2022-ci ildə Hindistanla təxminən 60 milyard rupi (710 milyon dollar) dəyərində 15 ədəd "Akash" raket kompleksinin alınmasına dair müqavilə imzalayıb. Beləliklə, Hayastan bu raket sistemini satın alan ilk xarici ölkə olub.

Silahın xarakteristikasına gəldikdə isə qeyd etmək lazımdır ki, Hindistanın müdafiə tədqiqatı və istehsalı təşkilatı tərəfindən hazırlanan "Akash" sistemi qırıcı




təyyarələri, qanadlı və "hava-yer" tipli raketləri, pilotsuz uçuş aparatlarını və 25 kilometrə qədər məsafədə digər hava vasitələrini vura bilən "hava-hava" tipli raketdir. Dövlətə məxsus "Bharat Electronics Limited" tərəfindən istehsal edilən hər bir "Akash" batareyası bir passiv elektron skanlı 3D radardan və hər birində üç raket olan dörd buraxılış qurğusundan ibarətdir və vahid idarəetmə sisteminə daxildir.

*

Silahın texniki xarakteristikası da bu alqı-satqının çox ciddi və strateji baxımdan narahatedici bir məsələ olduğunu deməyə əsas verir. 710 milyon dollar dəyərində bu silah müqaviləsi Hindistan–Ermənistan münasibətlərində tarixi miqyasda ən böyük hərbi razılaşmadır. Qeyd etdiyimiz kimi, bu, sadəcə bir ticarət əməliyyatı deyil – siyasi, strateji və diplomatik mesaj daşıyır. Hindistan öz hərbi sənayesini beynəlxalq səviyyədə tanıtmaq istəyir və Ermənistan bu baxımdan "uyğun müttəfiq" rolunu oynayır. Eyni zamanda, bu alqı-satqı göstərir ki, Hindistan Ermənistanla uzunmüddətli hərbi əməkdaşlığa girir. Bu, Hindistanın Cənubi Qafqazda daha aktiv rol almaq niyyətindən xəbər verir – xüsusilə, Azərbaycan–Pakistan–Türkiyə üçbucağı fonunda.

Bu silahların Ermənistana verilməsi birbaşa Azərbaycanın hava məkanına, sərhəd ərazilərinə və sülh prosesinə təhlükə yaradır. "Akash" sistemləri Ermənistanın müdafiə qabiliyyətini artırmaqla yanaşı, onun təcavüzkar ritorikasını da gücləndirə bilər. Ölkəmiz üçün narahatlıq doğuran əsas məqamlara hava məkanında Ermənistanın üstünlük əldə etmək potensialının artmasını, sərhəd yaxınlığında hərbi balansın pozulmasını, postmüharibə sülh gündəminin təhlükəyə düşməsini aid etmək olar. Bu, həm də o deməkdir ki, Ermənistan sülh sazişinin imzalanması ilə bağlı Azərbaycanın tələblərindən yayınmaq xəttini davam etdirə bilər. Çünki arxasında güclü silah dəstəyi hiss edir.

Məhz bu kimi addımlar bizi də adekvat tədbirlər görməyə məcbur edir. Bu il bizim hərbi büdcəmiz rekord büdcədir. Bu, təxminən 5 milyard dollardır. Prezident İlham Əliyevin bildirdiyi kimi, bu məbləğin, ən azı, 60 faizini xərcləməyə məcburuq, belə təhdidlər olmasaydı, xərcləməzdik. Qarabağın bərpası, sosial ödənişlər və sair üçün istifadə edərdik: "Lakin biz bunu etməyə məcburuq və edəcəyik. Məncə, bu, fəlakətə aparan yoldur. Birincisi, Ermənistan silahların əksəriyyətini Qərbdən pulsuz və ya kreditlə almasına, onların təbii ki, silinəcəyinə baxmayaraq, bizimlə silah yarışında tab gətirməyəcək. Hətta bu halda da bizimlə silah yarışında tab gətirməyəcəklər".

Haylar İkinci Qarabağ müharibəsinin və 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatının nəticələrini də unutmamalıdırlar. Həmçinin başa düşməlidirlər ki, onlara verilən maksimum dəstəyə baxmayaraq, bizə qarşı növbəti təxribat planlaşdırsalar, onlara heç kim kömək etməyəcək.

Bu müqavilə 2020-ci il 10 noyabr razılaşmasının ruhuna da ziddir. Razılaşmadan sonra tərəflər silahlı qarşıdurmadan çəkinməli, regionda sülh və əməkdaşlıq şəraiti yaradılmalı idi. Hindistanın bu addımı isə bölgədə silahlanmanı körükləyir. Eyni zamanda, bu, beynəlxalq ictimaiyyətin ikili standartlarla hərəkət etdiyini bir daha sübut edir: Ermənistana ölümcül silahlar ötürülür, amma Azərbaycanın öz müdafiə tədbirləri daim tənqid olunur. Onu da bildirək ki, Hindistan uzun illərdir özünü beynəlxalq arenada sülhsevər və neytral aktor, "beynəlxalq sülhə və təhlükəsizliyə töhfə verən dövlət" kimi təqdim edir. Lakin Ermənistan kimi işğalçı keçmişi olan və revanşist iddialarını hələ də dayandırmayan bir ölkəyə ölümcül silahlar satmaq bu imiclə ziddiyyət təşkil edir. Belə davranış Hindistanın beynəlxalq hüquqa sadiqlik bəyanatlarını sual altına alır. Bu proses həm də Ermənistanın sülh danışıqlarına qeyri-konstruktiv mövqe ilə yanaşmasının stimullaşdırılması kimi qiymətləndirilə bilər. Beynəlxalq ictimaiyyətin Hindistanın bu siyasətinə səssiz qalması isə ikili standartların növbəti nümunəsi kimi ortaya çıxır. Qərb dövlətləri və beynəlxalq təşkilatlar isə bu əməkdaşlığa hələ də səssiz qalmaqda davam edirlər.

Azərbaycan bu məsələ ilə bağlı narahatlığını dəfələrlə bildirib. Hindistanın Ermənistana göstərdiyi hərbi dəstəyə qarşı prinsipial və ardıcıl mövqe sərgiləyib. Rəsmi Bakı Hindistanın Ermənistanı silahlandırmasının bölgədə sülhə və sabitliyə təhdid yaratdığını, eyni zamanda, 2020-ci il 10 noyabr tarixli üçtərəfli bəyanatın ruhuna və məqsədinə zidd olduğunu vurğulayıb. Çünki bu silahlanma tendensiyası regionda yeni münaqişə risklərini artırır və postmüharibə reallıqları ilə ziddiyyət təşkil edir. Azərbaycanın cavab strategiyası çoxşaxəlidir: bir tərəfdən diplomatik kanallar vasitəsilə Hindistana narazılıq çatdırılır, digər tərəfdən Türkiyə və Pakistanla hərbi və təhlükəsizlik əməkdaşlığı daha da gücləndirilir. Eyni zamanda, Azərbaycan məsələni İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində də beynəlxalq gündəmə gətirməyə çalışır. Azərbaycanın Hindistan və Ermənistan arasındakı son silah tədarükünə diplomatik və təhlükəsizlik prizmasından ciddiliklə yanaşacağı, həm ikitərəfli, həm də beynəlxalq platformalarda məsələni qaldıracağı şübhə doğurmur.

***Səxavət HƏMİD***
***XQ***

**Ekspert rəyi**



**İlyas HÜSEYNOV,**
**politoloq**

– Son vaxtlar bölgədə sülh və sabitliyə ən çox təhlükə yaradan ölkələr arasında Hindistanın adını çəkmək olar. Əvvəlki dövrlərdə Fransa açıq-aydın ermənipərəst mövqedən çıxış edirdisə, yeni geosiyasi reallıqda Nyu–Dehli də Cənubi Qafqazda əsas oyunçuya çevrilmək üzrədir. Bu, qlobal geosiyasi mübarizə müstəvisində də özünü göstərir. Eyni zamanda, Hindistan özünün geoiqtisadi maraqlarını hərbi kontekstdə bölgədə güdməkdədir. Belə görünür ki, 710 milyon dollarlıq silah satışını həyata keçirən Hindistan müxtəlif mərhələlərlə hava hücumundan müdafiə sistemlərini Ermənistana tədarük edir. Növbəti "Akash" sistemlərinin Hayastana tədarükü həyata keçiriləcək.

Texniki göstəricilərinə baxdıqda görmək olar ki, bu, "hava-hava" tipli hava hücumundan müdafiə sistemidir. Özü radarla təchiz olunub, raketlərlə sinxron şəkildə fəaliyyət göstərir. Hesab edirəm ki, ölkəmizin Müdafiə Nazirliyi və Dövlət Sərhəd Xidməti baş verən prosesləri diqqətlə izləyir. Bir tərəfdən, təhlükəsizliyin təmin edilməsi üçün daha üstün və operativ addımlar atılmalı, digər tərəfdən Hindistana qarşı beynəlxalq müstəvidə çağırışların sayı artmalıdır. Çünki Ermənistan işğalçı keçmişə malik dövlətdir. Belə bir ölkəyə silah satılması heç bir məntiqə, çərçivəyə sığmır. Eyni zamanda, Ermənistanda revanşizmi gücləndirən qüvvələr var və məhz revanş dalğasının alovlanmasına Hindistan sanki benzin tökür.

# “Ağdam Muğam Mərkəzi xalqımıza misilsiz bir töhfədir”




**Əslində, bu qeydlərimə “Qafqazın Xirosiması”nda möhtəşəm muğam mərkəzi” sərlövhəsini vermək istəyirdim. Amma qonşumuz – ömrünün xeyli hissəsini Qarabağda – müəllimliklə keçirmiş İsrafil müəllimdən eşitdiyim bir ifadə “yolumu kəsdi”: “ İndiyədək elə güman edirdim ki, biz heç zaman Mehriban Əliyevanın Azərbaycan muğamına göstərdiyi qayğının, diqqətin tayı-bərabəri ola biləcək bir fakt görməyəcəyik. Xüsusən, onun təşəbbüsü və dəstəyi ilə ərsəyə gəlmiş “Qarabağ xanəndələri” albomunun tayı- bərabəri yoxdur. Ancaq cənab Prezidentin Ağdam Muğam Mərkəzinin açılışındakı çıxışı, orada ilk muğam konsertinin tamaşaçısı olması, gənc muğam ifaçılarının səsini eşidəndə kövrəlməsi, onları ayaq üstdə dinləməsi, uşaqları ruhlandırmaq üşün əzəmətli kütlə və telekameralar qarşısında əyilərək onları öpməsi... mənim ürəyimi dağa döndərdi. Ağdam Muğam Mərkəzi xalqımıza, Qarabağa, qarabağlılara misilsiz bir töhfədir”.**

İsrafil müəllimin bu qənaəti mənim də ürəyimi riqqətə gətirdi. Elə ona görə də bu yazının adını belə qoydum: “Ağdam Muğam Mərkəzi xalqımıza misilsiz bir töhfədir”.

Sonra isə müxtəlif görkəmli muğam mütəxəssislərindən eşitdiyim fikirlərə istinad eləmək istədim. Məsələn, Xalq artisti, rəhmətlik Əlibaba Məmmədov deyirdi ki, Mehriban Əliyevanın Heydər Əliyev Fondunun prezidenti təyin edilməsi ölkə əhalisinin hamısı tərəfindən alqışlandı. Ancaq həmin təyinatdan hamıdan çox biz muğam sənətkarları qazandıq. Məhz onun təşəbbüsü ilə Bakıda Beynəlxalq Muğam Mərkəzi tikilib istifadəyə verildi, orada çoxsaylı muğam tədbirləri, xüsusən, gənclər arasında Muğam müsabiqələri keçirildi, Qarabağ xanəndələri” muğam albomu ərsəyə gəldi ...”

Xalq artisti Habil Əliyevin fikirləri isə daha kövrək idi: “O, (Mehriban Əliyevanı nəzərdə tutur – İ.M.) mənim qızım, bəlkə də nəvəm yerindədir. Ancaq o mənə, tay-tuşlarıma, bütün həqiqi muğam sənətkarlarına analıq elədi. Biz muğam ifaçıları bu qayğını heç zaman görməmişdik”.

Xalq artisti, professor Tofiq Bakıxanov isə deyir ki, mənim yazdığım dörd simfonik muğam illər idi ki, iş otağımda “yatıb qalırdı”. Mehriban xanım həmin muğamları kitab şəklində nəşr etdirməklə mənə də böyük qayğı göstərmiş oldu, muğama da.

Ancaq bunlar sadə sənət adamlarının mülahizələridir. Mehriban xanımın Azərbaycan muğamına qayğı və diqqəti ən ali dövlət qurumlarının toplantılarında da dilə gətirilir. Məsələn, 2017-ci il fevralın 21-də Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclasında yeni təyin olunmuş Birinci vitse-prezidenti Təhlükəsizlik Şurasının üzvlərinə təqdim edən dövlət başçımız demişdir: “Heydər Əliyev Fondunun mədəniyyətlə, incəsənətlə bağlı layihələri bizim mənəvi, tarixi, mədəni irsimizin qorunması işində əvəzolunmaz rol oynamışdır. Bizim milli sərvətimiz olan muğam sənətinin yenidən inkişafı və beynəlxalq arenaya çıxarılması məhz Heydər Əliyev Fondunun və Mehriban Əliyevanın şəxsi təşəbbüsü nəticəsində mümkün olmuşdur. Azərbaycanda keçirilən muğam müsabiqələri artıq həyatımızın ayrılmaz hissəsinə çevrilmişdir. Bu, sadəcə olaraq sənət növü deyil, bu, bizim mədəni sərvətimizdir. Gənc nəslin tərbiyə olunmasında milli-mənəvi dəyərlər, ənənələr xüsusi rol oynayır. Bu baxımdan belə təşəbbüslər çox böyük ictimai məna daşıyır. Eyni zamanda, dünya miqyasında muğamın məhz Azərbaycan sənəti kimi təqdim olunmasında Heydər Əliyev Fondunun çox böyük rolu olmuşdur”.

Bəlkə də çoxlarının yadındadır. 2008-ci il dekabrın 27-də Bakıda, Dənizkənarı Milli parkda Beynəlxalq Muğam Mərkəzinin açılış mərasimində dövlət başçımıza məlumat verilmişdi ki, Heydər Əliyev Fondunun milli-mənəvi dəyərlərimizin qorunması və dünyada geniş təbliği ilə bağlı reallaşdırdığı möhtəşəm layihələr sırasında xüsusi əhəmiyyəti olan bu mərkəzin inşası fondun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilmişdir. Belə bir mədəniyyət ocağının tikilməsi, muğamın daha da inkişaf etdirilməsi və təbliği üçün görkəmli xanəndələrin, muğam bilicilərinin iştirakı ilə “dəyirmi masa” keçirilmiş və Bakıda Beynəlxalq Muğam Mərkəzinin yaradılması qərara alınmışdı.

Bundan sonra 2005-ci il aprelin 6-da Prezident İlham Əliyev Bakıda Beynəlxalq Muğam Mərkəzinin yaradılması haqqında sərəncam imzalamışdı. Beləliklə, xalqımızın qədim mədəni irsinin ölməz nümunəsi, Azərbaycan musiqisinin zəngin fəlsəfi təməl üzərində təşəkkül tapmasında əvəzsiz rol oynayan muğama möhtəşəm abidə ucaldılması istiqamətində ciddi addım atılmışdır. Azərbaycan muğamının bəşər mədəniyyətinin nadir inciləri ilə bir sırada Dünya irs siyahısına daxil edilməsi isə bütövlükdə, onun nə dərəcədə bənzərsiz sənət növü olduğunu bir daha təsdiqləyir.

Xüsusilə vurğulanmalı məqamlardan biri də odur ki, Bakıdakı Beynəlxalq Muğam Mərkəzi ümumi sahəsi 7,5 min kvadratmetr olan üçmərtəbəli binadan ibarətdir. Binanın forması Azərbaycanın qədim musiqi alətlərindən olan tarın hissələrini xatırladır. Ən müasir texnologiyadan istifadə edilməklə tikilən bina üçün lazımi avadanlıq İtaliya, Avstriya, Fransa və Türkiyədən gətirilmişdir. İnşaat işləri zamanı 2 mindən çox müxtəlif ölçülü şüşədən istifadə olunmuşdur.

Ancaq muğam sənətinə dövlət qayğısı təkcə müstəqillik illərində reallaşdırılan tədbirlərdən ibarət deyil. Vərəqlədiyim köhnə materiallardan birində Xalq artisti Arif Babayevin cümlələrini oxudum: “Mənim yadımdadır, ötən əsrin 70-ci illərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin birinci dəfə hakimyyətə gəlməsindən sonra, məhz onun rəhbərliyi ilə milli-mənəvi dəyərlərimizin yaşadılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində muğam sənətimiz də yeni inkişaf mərhələsinə qədəm qoydu, biz muğam ifaçılarına və bu sənəti yaşadanlara xüsusi diqqət və qayğı göstərildi. 1971-ci ildə UNESCO-nun 50 albomdan ibarət olan “Dünya ənənəvi musiqisinin antologiyası” seriyasına “Azərbaycan musiqisi plastinkası” da daxil edildi, 1975-ci ildə Azərbaycan muğamları “Musiqi mənbələri” seriyasında buraxıldı”.

Onu da xatırladaq ki, dövlət başçımız mayın 10-da Ağdamdakı şıxışında bir neçə il Quzanlı kəndində açılmış Muğam mərkəzini də yada salmışdı. Biz də həmin tədbiri yada salmaq istərdik. Çünki cənab Prezident Quzanlıda muğam sənətimizə çox böyük qiymət vermişdi: “Bizim mənəvi dəyərlərimizin, Azərbaycan dəyərlərinin inkişafı, qorunması üçün ədəbiyyatımızın, musiqimizin çox böyük əhəmiyyəti var. Muğam həm ədəbiyyatdır, həm musiqidir, həm də Azərbaycan dilinin saflığını qoruyan sənətdir”.



Elə ona görə də böyük şairimiz Bəxtiyar Vahabzadə yazırdı ki:

***O, ürək yanğısı, göz yaşları,***
***bir çəngə bulud,***
***Oyadıb yaddaşı, vicdanı***
***utandırdı muğam.***

Bəli, həmin bir çəngə bulud yenə də oralarda – otuz ildən çox ürək yanğımıza, göz yaşlarımıza dönmüş, yaddaşımızı korşalmağa qoymayan, vicdanımızın üstündə nəzarətə çevrilmiş Qarabağ torpaqlarındadır. O “bir çəngə bulud”u həmin müqəddəs torpaqlarımıza hansısa külək yox, Ali Baş Komandanımızın qətiyyəti, Azərbaycan xalqının əzmi və ordumuzun şücaəti, mətanəti aparıb. Daimi olsun, İnşallah!

Muğam bizim milli sərvətimiz, tarixi dəyərimizdir. Onun özünə və yayıldığı coğrafiyaya əl uzadanlar ya peşman olacaqlar, ya da elə taylarını tapacaqlar.

***İttifaq MİRZƏBƏYLİ***

# İranda “erməni matahlığı”

## *Sayca az olsalar da, imtiyazları azərbaycanlılardan çoxdur*

**İran coğrafiyası əsrlər boyu müxtəlif etnik qrupların məskəni olub. Təxminən, min il türk hakimiyyəti altında qalan İranda ən sıx məskunlaşan əhali bu gün də türklər hesab olunur. İranda etnik qrupların böyük əksəriyyəti şiə olsa da, sünnilər bölgə əhalisinin, təxminən, 10 faizini təşkil edir. Bundan başqa, qeyri-müsəlman əhalini təmsil edən mühüm azlıqlardan biri ermənilərdir. Müxtəlif mənbələrə görə, sayı 100–120 min arasında göstərilən erməni azlıq parlamentdə və yerli hakimiyyət qurumlarında öz nümayəndələri ilə təmsil olunur. Eyni zamanda, dini ayinlərini digər azlıqlara nisbətən daha rahat yerinə yetirirlər. İranda ermənilərin 200 kilsəsi fəaliyyət göstərir, 30 məktəbdə erməni dili tədris olunur...**



Amma bu hüquq sayı 30–40 milyon arasında dəyişən Azərbaycan türklərinə verilmir. Bəzi universitetlərdə erməni dili və mədəniyyəti adlı kafedralar var. Erməni dilində kitablar, jurnallar nəşr olunur. İranın siyasi və ictimai həyatında ermənilərə geniş şərait yaradılıb. Tehranda yalnız ermənilərə xidmət edən “Ararat” adlı böyük xəstəxana var. Ermənilərə aid bir neçə şərab zavodu var ki, onların da ən böyüyü Urmiyadadır. Daim dini faktoru önə çəkmək və regionda dini liderlik rolunu öz üzərinə götürmək amili İran üçün o qədər də önəmli deyil. Türkiyə və Azərbaycan üçün həssas məsələlərdə İranın Ermənistanın yanında durması bölgənin problemlərinin həllinə mane olur.

Ermənilərin İranla əlaqələri Əhəmənilər dövrünə (e.ə.VI əsr) təsadüf edir. Əhəmənilər imperiyası dövründə Anadolunun fəthi ilə bir çox etnik qruplar, o cümlədən ermənilər İranın hakimiyyəti altına keçdilər. Əhəmənilər imperiyasından sonra Parfiya və Sasanilər dövründə də ermənilər İran torpaqlarında öz varlıqlarını davam etdirmiş və bu mədəniyyətlərlə intensiv əlaqədə olmuşlar. Xüsusilə, Sasanilər dövründə ermənilər bəzən müttəfiq, bəzən də müxalif qüvvə kimi İran tarixinin mühüm bir parçası olmuşlar. İranşünas erməni alimlər qeyd edirlər ki, İranda tarix boyu ermənilər farslarla həmişə həm maddi, həm də mənəvi təmasda olublar. İranda ilk erməni icmasının yaranması eramızdan əvvəl 3000-ci ilə aiddir. Onlar VI əsrdə Əhəmənilər dövründə ordu legionerləri kimi xidmət etmişlər. I Daranın dövründə ordu içərisində erməni sərkərdələr də olub. Ermənilər əsasən Təbriz, Mərənd, Urmiya, Marağa, Salmas, Maku və Qaradağda yaşayırdılar.

Onların İrana ilk köçü eramızın III əsrində Sasani padşahı Ərdəşirin dövründə baş verib. Bu köç Şapurun hakimiyyəti zamanında da davam edib. Buradan gələn mühacirlərin əksəriyyəti Xuzistanda və ölkənin cənub-qərbində məskunlaşıb. Bəzi tarixçilərə görə, miladın 1048–1049-cu illərində Səlcuqlular təxminən 150 min ermənini əsir götürərək İrana gətiriblər. Monqolların İrana hücumları zamanı iranlılar kimi ermənilər də kütləvi şəkildə qətlə yetirilib və onların sayı xeyli azalıb. Lakin bir müddət sonra monqollar buraya yeni erməni əsirləri gətiriblər və bunun nəticəsində İranda ermənilərin sayı artıb. Monqol hakimiyyətinin sonlarına doğru ölkədə sülh hökm sürür və erməni icması Təbriz, Sultaniyyə, Mərənd, Marağa, Rəşt və Rey kimi şəhərlərdə yaşamağa davam edib. İranda Elxanilər dövründə ən böyük erməni icması İranın paytaxtı Sultaniyyədə ticarət və sənaye ilə məşğul olurdu. Ağqoyunlu və Qaraqoyunlu dövlətləri arasında uzun sürən müharibələr zamanı iranlılar və ermənilər İran və Osmanlıların nəzarəti altında idi. Səfəvilər dövründə, 1555-ci ildə Amasiya müqaviləsinin imzalanması ilə ermənilərin bir hissəsi İran, digər hissəsi isə Osmanlı hakimiyyətinin tabeliyinə keçib.

Birinci Dünya müharibəsi illərində Şərqi Anadolu, Qafqaz və Rusiyadan İrana daxil olmuş haylar Təbriz və Səlmasdan gələn ermənilərlə birlikdə Tehran ətrafında məskunlaşdıqları və bununla da saylarının artdığı iddia edilir.

Ermənilərin tarix boyu İran mərkəzli dövlətlərlə əlaqələri hazırda bu ölkədə ermənilərin mövcudluğunun əsas təməllərindən biri hesab olunur. Bu kontekstdə hay mənbələri İranda erməni əhalisinin 70 min ətrafında olduğunu göstərərkən, bəziləri bu rəqəmin 20-25 min olduğunu bildirirlər. Ehtimal olunur ki, İranda erməni əhalisinin sayının süni surətdə artırılması parlamentdə iki erməni nümayəndəsinin olması üçün edilir. Bu, guya, plüralizmə hörməti vurğulamaq məqsədi daşıyır. Lakin İranın dövlət qurumlarının erməni əhali ilə bağlı təqdim etdiyi heç bir məlumata rast gəlinmir. Yəni İran bu cür məlumatların paylaşılması ilə bağlı şəffaf siyasət yürütmür.

Ermənilərin xristianlığı qəbul etməzdən əvvəl zərdüştiliyə inandıqları hamıya məlumdur. Onların xristianlıqla əlaqəsi Bizans imperiyası dövrünə gedib çıxır. Ermənilər xristianlığı IV əsrdə qəbul edib, təxminən, yarım əsr sonra Bizans kilsəsindən ayrılıblar. Bu ayrılıq türklərin Anadoluda məskunlaşma siyasətini həyata keçirdikləri dövrə qədər ermənilərlə Bizans arasında davam edən qarşıdurmalara yol açıb. Bu münaqişələr nəticəsində ermənilər assimilyasiya və deportasiya proseslərinə məruz qalıblar. Lakin türklərin Anadolunu fəth etməsindən sonra digər qeyri-müsəlman ünsürlərdə olduğu kimi, ermənilərin dilinə və dini inanclarına heç bir müdaxilə edilməyib. Bu kontekstdə məhz tolerant türk idarəçiliyi sayəsində ermənilərin etnik və dini kimliklərinin Bizans assimilyasiyasından qorunduğunu söyləmək olar.

Ermənilərin tarix boyu İranın ticarət sahəsində fəal rol oynadıqları məlumdur. Qacarlar dövründəki intensiv ticarət fəaliyyəti buna misal göstərilə bilər. Bu baxımdan erməniləri İranın xarici aləmə açılan qapısı kimi qələmə vermək yanlış olmaz. Çünki, həmin dövrdə ermənilər İranın xarici ölkələrlə ticarətində vasitəçilik edirdilər.

İranın əvvəlki hakimiyyətləri də bölgədə yaşayan qeyri-müsəlmanların öz dini ayinlərini sərbəst yerinə yetirmələrinə mane olmamış və bu səbəbdən onların ibadət yerləri qorunub saxlanılaraq günümüzə qədər gəlib çatmışdır. Bu gün İranda ermənilər konstitusion hüquqlar çərçivəsində özlərinin Qriqorian kilsələrində ibadətlərini davam etdirirlər. Bu ibadət yerlərindən biri də İsfahanın Culfa erməni məhəlləsindəki Vank kilsəsidir.

**(ardı var)**

***Qfi a ÇAXMAQLI,***
***XQ-nin Türkiyə müxbiri***

# Qlobal güc paritetinin dəyişən koordinatları

## *Çin kontekstində yeni güc arxitekturası*

**V məqalə**

***XXI** əsrdə beynəlxalq güc balansı təkcə hərbi və iqtisadi göstəricilərlə deyil, normativ üstünlük uğrunda gedən mübarizə ilə də müəyyənləşir. Dünyanın diqqəti Çinin artan hərbi və texnoloji imkanlarına yönəlsə də, daha dərin və strateji proses hüquq sahəsində baş verir: Çin beynəlxalq hüququ təkcə tətbiq etməyə yox, həm də onu öz maraqları və dəyərləri əsasında yenidən tərif etməyə çalışır. Bu isə artıq geosiyasi deyil, geohüquqi bir reallıqdır.*



Çin Xalq Respublikası liberal Qərb dünyasının qurduğu hüquqi nizama formal olaraq inteqrasiya olunsa da, bu sistemin ideoloji əsaslarını qəbul etmir. Əksinə, Çin beynəlxalq hüququ universal və neytral bir norma toplusu kimi deyil, güc balansından qaynaqlanan siyasi alət kimi görür. Onun bu yanaşması yalnız Çinlə Qərb arasında normativ fikir ayrılığı deyil, həm də beynəlxalq hüququn gələcəyi üçün sistemli bir çağırışdır: post-liberal, çoxqütblü və kontekstual hüquq modelinə doğru yönəlmək.

Bu məqalədə hüququn klassik universalizmi ilə Çinin suverenlik mərkəzli yanaşması arasında artan ziddiyyətlər fonunda qlobal güc paritetinin hüquqi koordinatlarının necə dəyişdiyini təhlil etməyə çalışacağıq. Beynəlxalq hüququn yalnız qaydalar toplusu deyil, həm də güc münasibətlərinin ifadəsi olduğunu nəzərə alaraq, Çin kontekstində yeni normativ düzənin yaranma ehtimalı və bu transformasiyanın geosiyasi nəticələri müzakirə olunur.

Çinin beynəlxalq hüquqa yanaşması onun normativ müstəvidə mövcud dünya nizamına alternativ təklif etməyə çalışdığını nümayiş etdirir. Qərb dövlətlərinin rəhbərlik etdiyi liberal beynəlxalq hüquq sistemi uzun müddət ərzində universal dəyərlərə və qaydalara əsaslanan bir çərçivə kimi təqdim olunub. Bu sistemin dayaqları olan insan haqları, dövlətlərin suverenliyi, sərhədlərin toxunulmazlığı və dəniz hüququ kimi prinsiplər Qərb siyasi və hüquqi təcrübəsinə əsaslanaraq formalaşıb. Lakin Çin bu çərçivəyə tənqidi yanaşaraq, beynəlxalq hüququ milli maraqların ifadəsi kimi dəyərləndirir və onun tətbiqinin güc balansına əsaslandığını iddia edir.



Qərb hüquq sistemi, xüsusilə beynəlxalq hüququn formalaşmasında II Dünya müharibəsindən sonra ortaya çıxan liberal beynəlxalq nizamın hüquqi sütununu təşkil etmişdir. Bu sistemin əsasında liberal dəyərlər dayanır. Burada hüquqi çərçivə beynəlxalq münasibətlərdə güc deyil, qayda əsaslı yanaşmanı təşviq etməyi qarşısına məqsəd qoyur və dövlətlər arasında qarşılıqlı etimad, hüquqi öhdəliklərə riayət və beynəlxalq hüquqi institutların legitimliyini təmin etməyə çalışır.

Qərb hüquq sistemi universalist yanaşmanı əsas tutur; yəni hüquqi prinsiplərin mədəni və siyasi kontekstdən asılı olmayaraq bütün dövlətlərə tətbiq edilməli olduğunu müdafiə edir. Bu, xüsusilə insan hüquqları konvensiyaları, beynəlxalq cinayət hüququ, silahlı münaqişələr zamanı mülki əhalinin qorunması və müstəqil beynəlxalq məhkəmə orqanlarının yaradılması kimi təşəbbüslərdə özünü göstərir. Beynəlxalq Cinayət Məhkəməsi, Avropa İnsan Haqları Məhkəməsi və BMT-nin müxtəlif hüquqi mexanizmləri bu sistemin konkret alətləridir.

Qərbin universal hüquq yanaşması, həmçinin beynəlxalq ictimaiyyət anlayışına əsaslanır: yəni beynəlxalq hüquq yalnız dövlətlərin razılaşmasından doğan müqavilələrlə deyil, həm də bütün bəşəriyyətin ümumi maraqlarına xidmət edən prinsiplərlə müəyyənləşir. Elə bu səbəbdən Qərb tez-tez insan hüquqları və demokratik idarəetmə kimi məsələlərdə suverenlik prinsipini arxa plana keçirərək, "insani müdaxilə" və "müdafiə məsuliyyəti" kimi doktrinaları müdafiə edir.

Lakin məhz bu universalist və normativ yanaşma Çinin ciddi tənqid obyektinə çevrilmişdir. Çin bu yanaşmanı Qərbin normativ hegemoniyası kimi qiymətləndirir. Pekin hesab edir ki, bu sistem Qərb dəyərlərinin digər dövlətlərə təlqin edilməsi və onların daxili işlərinə qarışmaq üçün bir vasitəyə çevrilmişdir. Beləliklə, Çin beynəlxalq hüququn mərkəzində "suverenlik", "qarışmama prinsipi" və "milli kontekstlərə uyğun interpretasiya" kimi anlayışları yerləşdirir ki, bu da Qərbin universalist hüquq sisteminə qarşı kontekstual alternativin təşəkkül tapdığını göstərir.

Beləliklə, Qərb hüquq sisteminin beynəlxalq səviyyədə təməl daşı olan universalizm və qayda əsaslı nizam prinsipləri hazırda Çin kimi yüksələn güclərin milli maraqlara əsaslanan, güc balansını nəzərə alan və hüququ siyasətdən ayrılmaz sayan yanaşmaları ilə qarşı-qarşıya gəlir. Bu normativ qarşıdurma XXI əsrdə beynəlxalq hüququn gələcəyi üçün əsas istiqamətlərdən birini müəyyənləşdirir.

Xüsusilə, Cənubi Çin dənizi məsələsində Pekinin mövqeyi beynəlxalq hüququn bu yeni interpretasiyasının konkret nümunəsidir. Çin BMT-nin Dəniz Hüququ üzrə Konvensiyasına qoşulsa da, 2016-cı ildə Haaqa Arbitraj Məhkəməsinin Filippinin xeyrinə çıxardığı qərarı tanımadı. Bu hadisə Çinin beynəlxalq hüququn müstəqil və universal xarakterini qəbul etmədiyini, əksinə, onu siyasi alət kimi gördüyünü ortaya qoydu. Çin öz tarixi hüquqlarına və "Doqquz xətt xəritəsi" arqumentinə əsaslanaraq, beynəlxalq hüququ öz interpretasiyası ilə məhdudlaşdırır və bu addım müasir beynəlxalq hüququn əsas qayəsi olan "prinsipial bərabərlik" və "universal normativlik" anlayışlarına ziddir.

Sözügedən yanaşma hüquqi realizm nəzəriyyəsi çərçivəsində başa düşülə bilər. Hüquqi realizmə görə beynəlxalq hüquq güc balansının və dominant aktorların maraqlarının məhsuludur. Bu da o deməkdir ki, normativ qaydalar güc mərkəzlərinin razılığı və siyasi iradəsi əsasında formalaşır və tətbiq olunur. Çin də bu kontekstdə beynəlxalq hüququ "idealist universalizm" kimi deyil, "praqmatik maraqlar hüququ" kimi təqdim edir və nəticədə, beynəlxalq hüququn təbiəti barədə qlobal diskussiyalarda Çin modelinin çəkisini artır.

Eyni zamanda, Çin öz hüquqi baxışlarını beynəlxalq platformalarda da irəli sürür. "Kiber suverenlik" anlayışı bu kontekstdə mühüm nümunədir. Çin internet idarəetməsində dövlətlərin öz suveren hüquqlarına əsaslanmasını müdafiə edir və bu modeli beynəlxalq normalara çevirmək üçün BMT və digər çoxtərəfli forumlarda təşəbbüslərlə çıxış edir. Bu təşəbbüslər liberal Qərb modelindən kəskin fərqlənir və ön planda fərdi azadlıqları deyil, ictimai sabitlik və dövlət nəzarətini əsas götürür.

Çinin hüquqi yanaşması xüsusilə Asiya, Afrika və Latın Amerikasında inkişaf etməkdə olan dövlətlər üçün alternativ hüquqi baxış bucağı kimi qəbul olunur. Qərbin ikili standartlarda ittiham olunması və normativ qərəzləri dövlətləri Çin modelinə daha açıq və simpatiyaya meyilli edir. Beləliklə, Çin yalnız fiziki güc və texnoloji üstünlük üzərində qurulmuş qlobal rola yox, həm də ideya və normativ hegemonluğa iddia edir.

Bu kontekstdə beynəlxalq hüququn gələcəyi getdikcə daha çox "normativ plüralizm" və "geohüquq" kimi yeni nəzəri yanaşmaların çərçivəsində formalaşmaqdadır. Ənənəvi olaraq Qərb liberalizmi əsasında formalaşmış beynəlxalq hüquq nizamı – insan hüquqları, demokratik institutlar və universal hüquqi normativlik kimi anlayışlara əsaslanaraq – uzun müddət qlobal legitimliyin əsas çərçivəsini təşkil etmişdir. Lakin Çinin yüksəlişi bu normativ təməl daşlarını sual altına almağa və onları alternativ hüquqi və siyasi baxışlarla əvəz etməyə çalışır.

Çin beynəlxalq hüququ universal və dəyişməz bir norma toplusu kimi deyil, tarixi, mədəni və siyasi kontekstə bağlı, dövlətlərin suverenliyini əsas götürən dəyişkən və çoxşaxəli bir sistem kimi təqdim edir. Bu yanaşma "geohüquq" konsepti ilə səsləşir: yəni beynəlxalq hüququn regional və geosiyasi maraqlar əsasında fərqli təzahürlər alması və mərkəzsiz, çevik hüquqi məkanların yaranması. Çin üçün hüquqi qaydalar daha çox güc balansının elementi, beynəlxalq münasibətlərin siyasi konfiqurasiyasının bir vasitəsidir.

Müxtəlif güc mərkəzlərinin öz hüquqi interpretasiyalarını və normativ çərçivələrini yaratmaları yalnız Çinlə də məhdudlaşmır. Çin bu prosesi təkbaşına həyata keçirmir – əksinə, Rusiya, İran, Cənubi Afrika və digər BRICS ölkələri ilə koordinasiyalı şəkildə, Qlobal Cənubun artan narazılıqlarını da nəzərə alaraq, alternativ hüquqi dil və normativ yanaşmalar üzərində əməkdaşlıq edir. Məsələn, BMT sistemində "kiber suverenlik", "internetin milli tənzimlənməsi" və "müdaxiləsizlik hüququ" kimi anlayışların təşviqi bu çərçivədə baş verir.

Rusiya ilə Çin arasında beynəlxalq hüquq məsələlərində artan sinxronluq, xüsusilə də ABŞ və Avropanın sanksiyaları, insan hüquqları və demokratik müdaxilələr vasitəsilə təsirini artırmaq istədiyi sahələrdə daha aydın şəkildə ortaya çıxır. Çin və Rusiya liberal normativ sistemə qarşı "müdafiəçi suverenlik" anlayışını irəli sürür və beynəlxalq hüququ Qərbin ideoloji təsirindən azad etməyə yönəlmiş "post-liberal transformasiya" xəttini gücləndirirlər.

Beləliklə, bu yeni tendensiya – geohüququn yüksəlişi – qlobal hüquq sisteminin vahid, universal model kimi fəaliyyət göstərmək qabiliyyətini zəiflədir, lakin əvəzində daha rəqabətli, çoxtərəfli və fərqli dəyərlərin yarışdığı bir hüquqi məkan yaradır ki, bu da öz növbəsində həm perspektivlər, həm də risklər doğurur. Bir tərəfdən dövlətlərin hüquqi müstəqilliyi və normativ özünütəyinetməsi güclənir, digər tərəfdən isə qlobal nizamın sabitliyini və proqnozlaşdırıla bilməsini təhdid edən fragmentasiya (parçalanma) riski artır.

Bu baxımdan, Çin və onun tərəfdaşlarının təşviq etdiyi çoxqütblü hüquq arxitekturası yalnız mövcud sistemə alternativ deyil, həm də beynəlxalq münasibətlərin gələcək strukturunu və normativ nizamını müəyyən edəcək əsas amillərdən birinə çevrilməkdədir.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

**2025-ci ilin may ayının 6-dan 7-nə keçən gecə Hindistan–Pakistan münaqişəsinin çağdaş tarixində dönüş nöqtəsi kimi yadda qaldı. Pakistan Hərbi Hava Qüvvələrinin həyata keçirdiyi yüksək texnologiyalı cavab əməliyyatı təkcə Hindistanın hərbi müdafiə qabiliyyətini deyil, həm də onun regionda liderlik iddialarını ciddi şəkildə sual altına aldı. Hindistanın Fransadan baha qiymətə satın aldığı "Rafale" qırıcılarına olan etibar sarsıldı, Pakistan isə yüksək müharibə taktikası və operativ çevikliyi ilə bölgədə yeni bir hərbi reallıq formalaşdırdı.**

# Pakistanın taktiki qələbəsi

## *Hindistanın hərbi nüfuzu isə sarsıldı*

*Oğuz ARİF*
*oguzarif2000@gmail.com*



Əməliyyatın uğuru Pakistanın sistemli hazırlığı, real döyüş təcrübəsi və strateji koordinasiyası ilə izah olunur. Hindistanın "hava üstünlüyü" simvolu kimi təqdim etdiyi "Rafale" qırıcıları Pakistanın cavab zərbələri nəticəsində gözlənilməz və ağrılı itkilərlə üzləşdi. Rəsmi məlumatlara əsasən, 3 "Rafale" təyyarəsi məhv edilib. Hətta bu itkilərdən biri Fransanın öz hərbi mənbələri tərəfindən də təsdiqlənib. Bundan əlavə, Hindistan ordusu Rusiyadan alınmış Su-30MKI və MiG-29K tipli iki təyyarəsini də itirib. Ümumilikdə isə 77 pilotsuz uçuş aparatı Pakistan qüvvələri tərəfindən sıradan çıxarılıb.

Ən simvolik məqam isə ilk "Rafale" qırıcısının – BS-001 bort nömrəli təyyarənin qalıqlarının Hindistanın Batinda bölgəsində tapılması oldu. Bu təyyarə Hindistanın Fransadan aldığı 36 Rafale içərisində birinci idi və ölkənin hərbi modernləşməsinin simvoluna çevrilmişdi. Tapılan MICA raketinin qalıqları isə döyüşün şiddətini və real miqyasını göstərən əlamətdir.

Hadisədən sonra Hindistan ictimaiyyətində və beynəlxalq ekspert dairələrində ciddi suallar doğdu: niyə bahalı hərbi texnologiya real döyüş meydanında bu qədər aciz göründü? Cavab isə aydındır – texnologiya hər şeyi həll etmir. Pakistanın üstünlüyü taktiki çeviklikdə, elektron müharibə vasitələrinin ustalıqla istifadəsində və düşmənin zəif cəhətlərini öncədən tanımasında idi.




Qeyd edilməlidir ki, Pakistan bu üstünlüyü əvvəlcədən qazanmışdı. 2021-ci ildə Türkiyədə keçirilmiş "Anatolian Eagle" beynəlxalq təlimləri zamanı pakistanlı pilotlar Qətər Hərbi Hava Qüvvələrinin "Rafale" təyyarələrinin təlim ssenarilərini işləyib, onların zəif cəhətlərini dərindən öyrənmişdilər. Bu təcrübə son əməliyyatlarda öz bəhrəsini verdi.

Pakistanda istehsal edilən və Çin raketləri ilə silahlandırılmış JF-17 Block 3 təyyarələri bu əməliyyatın real qəhrəmanları oldular. PL-15E tipli raketlər, fransız silah sistemlərini geridə qoyaraq, yüksək dəqiqlik və uzaq məsafədən zərbə imkanları ilə diqqət çəkdi. Məhz bu taktika Hindistanı yaxın döyüşə girmədən neytrallaşdırmağa imkan verdi.

İndiki vəziyyət Hindistan üçün yalnız texniki deyil, həm də siyasi və strateji fiasko anlamına gəlir. Müasir ordu və texnologiya konsepsiyasına sərf edilən milyardlarla dollar, genişmiqyaslı hərbi alış-veriş və beynəlxalq PR kampaniyaları qarşısında Pakistanın daha çevik, kreativ yanaşması qalib gəldi. Bu hadisə, Hindistanın regiondakı hərbi çəkisini və deterrens (qorxutma) strategiyasını ciddi şəkildə zəiflətdi.

Pakistan tərəfi, xüsusilə baş nazir Şahbaz Şərifin ölə parlamentdə çıxışında bu əməliyyatı milli qürur kimi təqdim etdi. Onun sözlərinə görə, Hindistan tərəfi əməliyyatda 80 döyüş təyyarəsi və müxtəlif növ dronlar işlətsə də, Pakistanın cavab zərbəsi Hindistan komandanlığı üçün tam bir şok effekti yaratdı. Sosial mediada yayılan real görüntülər Hindistanı bu itkiləri formal şəkildə tanımağa məcbur etdi.

"Hava dueli" hadisəsinin nəticələri daha dərindir. Sübut olundu ki, hərbi münaqişələrdə zəfər yalnız silahın keyfiyyətindən deyil, həm də ağıldan, təlimdən və strateji uzaqgörənlikdən asılıdır. Pakistan məhz bu amillərlə Hindistanı alt-üst etdi. Bu, təkcə cəbhədə deyil, həm də qlobal informasiya müharibəsində böyük bir üstünlükdür.

Beləliklə, Cənubi Asiyada balans bir daha dəyişdi. Reallıq budur ki, hərbi texnologiyanın deyil, hazırlığın və zəkanın üstün olduğu bir dövr başlayır. Hindistan bu hadisədən dərs çıxaracaqmı? Bunu zaman göstərəcək. Amma Pakistan artıq göstərdi ki, müasir döyüşdə ağıllı olan qalib gəlir.

# Zelenski Putinlə dialoqa hazırdır

## *Liderlərin İstanbul görüşü baş tutacaqmı?*

**Rusiya–Ukrayna müharibəsinin tənzimlənməsi dünya ictimaiyyətinin diqqət mərkəzindədir. Prezident Vladimir Putinin ilkin şərtsiz Türkiyədə danışıqlara başlamaq barədə irəli sürdüyü təklifdən sonra hamı görüşün baş tutub-tutmayacağı barədə müxtəlif fikirlər səsləndirir. Ukrayna prezidenti Vladimir Zelenskinin də rusiyalı liderlə görüşməyə hazır olmasını deməsi belə görüşün keçiriləcəyinə ümidləri artırır. Ancaq ortadakı dərin fikir ayrılığı belə bir görüşün baş tutacağına inamı azaldır.**



Mayın 11-də ABŞ dövlət katibi Marko Rubio Böyük Britaniyanın xarici işlər naziri David Lemmi və Almaniyanın yeni kansleri Fridrix Merts ilə telefon danışığı aparıb. Əsas müzakirə mövzusu Ukraynadakı müharibə və onun sülh yolu ilə həlli səyləri olub. Rubio qeyd edib ki, ABŞ-ın prioriteti hərbi əməliyyatlara son qoymaq və Rusiya ilə Ukrayna arasında dərhal atəşkəsə nail olmaqdır. Vaşinqton sülhün bərqərar olması üçün səylərini davam etdirəcək. ABŞ dövlət katibi vurğulayıb ki, ABŞ və müttəfiqlərinin ümumi məqsədi var – Ukraynada müharibəyə son qoymaq və Avropada sabitliyi təmin etmək.

Xatırladaq ki, mayın 10-da Vladimir Zelenski Avropa liderləri ilə birlikdə Vladimir Putinə ultimatum veriblər: ya Rusiya bazar ertəsindən etibarən hərtərəfli, qeyd-şərtsiz atəşkəslə razılaşacaq, ya da Avropa və Amerikanın yeni sanksiyalar paketi ilə üzləşəcək. Qeyd etmək yerinə düşər ki, Qərb uzun müddət ərzində ilk dəfə olaraq öz tələblərini ultimatum formasında səsləndirib. Bu onu göstərir ki, "Qoca qitə"nin münaqişənin diplomatiya vasitəsilə həll olunacağına inamı azdır. Buna görə də, əgər Rusiya mayın 15-dək atəşkəs elan etməsə, Avropa İttifaqının və Böyük Britaniyanın həftənin sonuna qədər yeni sanksiyalar paketini açıqlayacaqları bildirilir.

Diplomatik təzyiq beynəlxalq ictimaiyyətin arsenalında mühüm alət olaraq qalır. Bu təzyiqin davam etdirilməsi və gücləndirilməsi bir çoxları tərəfindən ədalətli və davamlı sülhə nail olmaq üçün zəruri element kimi qəbul edilir. Avropa Birliyinin diplomatiya rəhbəri Kaja Kallas bazar ertəsi Londonda Avropa nazirlərinin "Veymar+" görüşündən əvvəl Rusiya və Ukraynanı atəşkəslə razılaşmağa çağırıb. O, müvafiq razılaşma olmadan sülh danışıqlarının mümkünsüzlüyünü bəyan edib və Moskvanı siyasi "oyun" oynamaqda ittiham edib: "Atəşkəs olmasa, atəş altında danışıqlar da ola bilməz".

Rusiya prezidenti Vladimir Putin ölkəsinin atəşkəsə razı olub-olmayacağına birbaşa cavab verməsə də, Ukrayna ilə Türkiyədə birbaşa sülh danışıqlarına başlamağı təklif edib. ABŞ prezidenti Donald Tramp sosial şəbəkədə buna cavab verərək bildirib ki, Ukrayna Türkiyədə Rusiya ilə danışıqlara dərhal razılıq verməlidir. Prezident Vladimir Zelenski isə öz növbəsində Türkiyəyə cümə axşamı gələcəyini və Putinin də danışıqlara gələcəyinə ümid etdiyini bildirib.

Bununla yanaşı, Ukrayna prezidenti Vladimir Zelenski də vurğulayıb ki, diplomatiyaya real şans vermək üçün atəşkəs 30 gün davam etməlidir. Onun sözlərinə görə, atəşkəsdən (ilk addım) diplomatiyaya keçid sxemi təkcə Avropa müttəfiqləri deyil, həm də ABŞ tərəfindən dəstəklənir. Bundan əlavə, Kiyev qeyd edib ki, "istəklilər koalisiyası"nın liderləri təşəbbüsü elan etməzdən əvvəl prezident Donald Trampa zəng ediblər. Bundan sonra ABŞ prezidentinin Ukrayna üzrə xüsusi nümayəndəsi Keyt Kelloq "X" sosial şəbəkəsində yazıb ki, "30 günlük hərtərəfli atəşkəs II Dünya müharibəsindən sonra Avropada ən böyük və ən uzun müharibəyə son qoymaq prosesinə start verəcək".

Bununla belə, vəziyyətin gələcək inkişafının proqnozu bir çox amillərdən, o cümlədən potensial danışıqların nəticələrindən, müttəfiqlərin gələcək hərbi yardımından və geosiyasi vəziyyətin dəyişməsindən asılı olacaq. Vladimir Putin və Vladimir Zelenski arasında görüşün perspektivi də son dərəcə çətin və qeyri-müəyyən olaraq qalır. Tərəflər arasında dərin fikir ayrılıqlarını nəzərə alan politoloqlar iddia edirlər ki, iki lider arasında birbaşa görüş ehtimalı aşağıdır. Əgər belə görüş keçirilsə belə, danışıqların uğuru tərəflərin güzəştə getmək istəyindən və cəbhədəki hərbi vəziyyətin dəyişməsindən asılı olacaq. "Bloomberg" agentliyi də hesab edir ki, sülh təşəbbüsü hələ də təhlükə altındadır – onun ətrafında çoxlu həll olunmamış problemlər və inamsızlıq var.

*Səbuhi MƏMMƏDOV*
*XQ*

SAĞLAMLIQ

**“Bədəndə hər hüceyrənin öz ömrü var. Bu ömür nüvələrindəki genetik materialda yazılır. Yaşlanan hüceyrənin toxumadakı işi başa çatandan sonra ölür. Bu prosesin son hissəsinə “planlı hüceyrə ölümü” deyilir. Xərçəng hüceyrələri isə fərqlidir. Onlar “planlı hüceyrə ölümü”nə tabe olmur, idarəedilməz şəkildə çoxalır. Sağlam hüceyrə neçə dəfə bölünəcəyini və nə vaxt öləcəyini bilir. Amma xərçəng hüceyrələri bu məlumatı itirir, idarə olunmayan şəkildə bölünməyə başlayır və şişlər əmələ gəlir”.**



# Xəstəlik yerə yıxmamış...

## *Vaxtında aparılan müayinə və müalicə sağlamlıq qalxanıdır*

**Bu fikirləri Milli Onkologiya Mərkəzinin baş həkimi, Səhiyyə Nazirliyinin baş onkoloqu Azad Kərimli XQ-yə müsahibəsində bildirdi. “Bəs bu bəla digər orqanlara necə yayılır?” – sualımıza həkim belə aydınlıq gətirdi:**

– Xərçəng hüceyrələri yarandıqları şişdən qopub ayrıldıqdan sonra, qan ya da limfa dövranı vasitəsilə ilə bədənin digər bölgələrinə gedir. Həmin yerlərdə çoxsaylı şişlər əmələ gətirir və böyüməyə davam edirlər. Xərçəngin bu formada bədənin digər bölgələrinə yayılması metastaz adlanır.

Süd vəzi xərçəngi digər orqanların şişlərinə nisbətən çox yavaş inkişaf edir. Bir hüceyrənin bölünərək 1 kubsantimetrə çatmasına 7–10 il vaxt lazımdır. Əgər hər il müayinə aparılsa müalicənin də səmərəsi olar.

Mammoqrafiya, ultrasəs və həkim müayinəsindən başqa, hər qadın öz süd vəzi haqqında məlumatlı olmalı, bəzi nüanslara diqqət etməlidir. Süd vəzi xərçəngində ən çox müşahidə edilən əlamət ələ gələn kütlədir. Bir xəstə əllə hiss edilən kütlə simptomu ilə həkimə müraciət edəndə, öncə bu kütlənin kista, yoxsa şiş olduğu öyrənilir.

***– Xəstəliyin diaqnozu hansı üsullarla təyin edilir?***

– Süd vəzi xərçənginin erkən diaqnostikası üçün istifadə olunan əsas üsullar ultrasəs müayinəsi və mammoqrafiyadır. Amma xərçəngin diaqnostikası üçün radioloji metodlara, biopsiyalara əlavə olaraq, özünü müayinə və periodik olaraq həkim müayinəsindən keçmək də vacibdir. Bu



***– Qadın həkimə nə vaxt müraciət etməlidir?***

– Süd vəzi xərçənginin müalicəsində müsbət nəticə almağın və sağalmanın əsas şərti erkən diaqnozdur. Şiş bir neçə millimetr böyüklüyündə olanda mammoqrafiyada görünür. Həmin vaxt aparılan müalicənin nəticələri uğurlu olur. Buna görə də süd vəzi müayinələrinə tez-tez gələn xəstələr daha şanslı olurlar. Xərçəng simptomları ortaya çıxdığı zaman şiş ən az 1 santimetr və ya daha böyük ölçülərə çatmış olur. Buna baxmayaraq, xəstəliyin tamamən sağalma ehtimalı hələ də qalır.

üsullardan yalnız biopsiya vasitəsilə dəqiq diaqnoz qoymaq olur. Digər müayinə metodları biopsiya aparılması qərarını verməyə kömək edir.

***– Qadınlara erkən müalicə olunmaq üçün nə tövsiyə edirsiniz?***

– Bədənlərinə qarşı həssas olmalarını tövsiyə edərdim. Qadınlarımız nə qədər özlərinə diqqət etsələr, hər hansı dəyişiklik hiss edən kimi həkimə müraciət etsələr, şübhəsiz ki, hətta xərçəng diaqnozu təsdiqlənsə belə, müalicə çox uğurla nəticələnər.

Süd vəzi üzərində uzun müddət qalan qızartı, yara, portağal qabığına bənzər bir görüntü alması, dərinin bir nöqtədə içəriyə doğru çəkilməsi həkimə müraciət etmək üçün səbəbdir. Xəstəliklə mübarizədə ideal variant simptomlar ortaya çıxmazdan əvvəl diaqnozun qoyulması və müalicənin başlanmasıdır.

Bu günlərdə Binəqədi rayonunda tibbi-sosial aksiya keçirdik. Aksiyada rayonun mənzil-kommunal istismar sahələrində çalışan 200-dən çox qadın müayinə olundu. Skrininq müayinələrin nəticələri Milli Onkologiya Mərkəzinə yönləndirildi.

Onu da deməliyəm ki, mərkəzimiz mütəmadi olaraq bölgələrdə profilaktik baxışlar həyata keçirir. Aksiya çərçivəsində işləyən qadınlar müayinə olundular. Məlumdur ki, dünyada, o cümlədən respublikamızda onkoloji xəstəliklər arasında süd vəzi xərçəngi öndədir. Məqsəd xəstəliyin vaxtında aşkarlanmasıdır. Müayinələr zamanı aşkarlana xəstəliyin gələcək müayinə və müalicəsi Milli Onkologiya Mərkəzində aparılacaq.

Erkən diaqnoz və skrininq xəstəliklərin müalicəsində mühüm rol oynayır. Aksiyada qadın sağlamlığı çərçivəsində həm ginekoloji-kliniki müayinə, süd vəzi ultrasəs müayinəsi, həm də kliniki müayinə aparıldı. Aksiyanın statistik nəticəsi mayın 25-də “Qadın Sağlamlığı Mərkəzi” İctimai Birliyin keçirəcəyi I Ginekoloji Simpoziumda açıqlanacaq. Təşəbbüsə dəstək olan İctimai Birliyə və Bakı Patologiya Mərkəzinə təşəkkür edirik.

Qadınların bir hissəsinin tibb müəssisələrinə vaxtında müraciət edib müayinədən keçməməsi səbəbindən, sonradan aşkarlanan xəstəliklər onların həyatı və sağlamlığı üçün böyük problemlər yaradır. Bu nöqteyi-nəzərdən aksiya qadınların sağlamlığı üçün çox mühüm əhəmiyyət kəsb edir. Aksiyanın təşkili ictimaiyyət üçün də mühüm mesajdır. Vətəndaşlar, xüsusilə də qadınlar bilməlidirlər ki, öz işlərinə vaxt ayırarkən, sağlamlıqlarını da düşünməlidirlər. Ümid edirəm ki, gələcəkdə bu tədbirdən nəticə çıxaran xanımlar vaxtında tibb müəssisələrinə müraciət edəcəklər.

*Şəhidlərimiz*

# Vətən sevgisi ilə böyümüş oğul

**Sadə, səmimiyyəti ilə diqqət çəkən bir ailə ilə yaxından tanış olduqda, xalqımızla, onun mərd, istiqanlı övladları ilə, milli-mənəvi dəyərlərə qiymət verən insanları ilə qürur duymamaq olmur. Qəbələ rayonundan olan şəhid Aqşin Ənvərlinin ailəsi kimi.**



Ailə başçısı Faiq Abdullayev Qəbələ rayonunun Xırxatala kənd sakinidir. Həmin kəndin orta məktəbində oxuyub. Təhsilinə Azərbaycan Politexnik İnstitutunun memarlıq fakultəsində davam edib və arxitektor ixtisasını bitirib. 32 ildir Qəbələ İncəsənət Məktəbinin rəssamlıq şöbəsinin müdiridir. Şagirdlərinin beynəlxalq sərgilərdə ölkəmizi layiqincə təmsil etdiklərinə görə, onlarla fəxr edir. Faiq müəllim şəhid atasıdır. Qəlbinin yarasına toxunmamaq üçün onunla birbaşa igid şəhidimizlə yox, ailəsi ilə bağlı söhbətə başlayıram. **F.Abdullayev deyir:**

– Həyat yoldaşım Dilrubə Səmədova ilə eyni kənddənik. 41 ildir birgə yol gəlirik. O, Xırxatala kənd orta məktəbində təhsil aldıqdan sonra Bakı şəhər Maliyyə Kredit Texnikumunun hüquq fakultəsində təhsil alıb. Bir müddət Qəbələ Konserv zavodunda çalışıb. Hal-hazırda işləmir, ailənin qayğıları ilə məşğuldur. 3 övladımız olub, 3 nəvəmiz var.

Böyük oğlum Rəşad Abdullayev 1985-ci ildə anadan olub. Azərbaycan Dövlət Pedoqoji Universitetinin rəssamlıq fakültəsinin təsviri incəsənət ixtisasını bitirib. Bir müddət müəllim kimi işləsə də hazırda mühəndis kimi çalışır. Ailəlidir, 2 övladı var. Qızım İlahə Abdullayeva 1987-ci ildə anadan olub. Azərbaycan Müəllimlər İnstitutunun filologiya fakültəsini bitirib, Dizaxlı kənd orta məktəbində müəllim işləyir. Ailəlidir, 1 övladı var.

**Söz 3-cü övladına çatanda gözləri dolur, səsi titrəyir:**

– Kiçik oğlum Aqşin Ənvərli 1994-cü ildə doğulmuşdu. Çox zirək uşaq idi. 2001–2012-ci illərdə Qəbələ şəhərinin N.Apayev adına 4 nömrəli tam orta məktəbində təhsil alıb. Təhsilində əlaçı olmaqla yanaşı gözəl əl qabiliyyəti vardı. O, uşaqlıqdan rəsm sənətinə maraq göstərir və maraqlı rəsmlər çəkirdi. Həkim olmaq arzusu vardı. Buna görə, orta məktəbi bitirəndən sonra sənədlərini Azərbaycan Tibb Universitetinə verdi və daxil oldu. 2012–2018-ci illərdə Azərbaycan Tibb Universitetində təhsil alan oğlum Aqşin 2018-ci ildə tibb xidməti leytenantı rütbəsi ilə Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan şəhərində yerləşən “N” saylı hərbi hissəsində xidmətə başladı. Bir müddət sonra isə Xüsusi Təyinatlı Qüvvələrin Tibb Xidmətinin rəisi vəzifəsinə təyin edildi.




Şəhid haqqında rəsmi məlumatlardan öyrənirik ki, Azərbaycan Ordusunun leytenantı olan Aqşin Ənvərli Vətən müharibəsi zamanı Cəbrayıl, Füzuli, Qubadlı, Şuşa və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə yaralanan 200-ə yaxın hərbçiyə yerindəcə yardım edib. Döyüşlər zamanı səngərdə baş leytenant rütbəsi alıb. Aqşin noyabrın 6-da Xocavənd döyüşləri zamanı şəhid olub. Qəbələ rayonunda dəfn edilib.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən, Aqşin Ənvərli ölümündən sonra “Azərbaycan Bayrağı”, “Vətən uğrunda”, “Xocavəndin azad olunmasına görə” və “Füzulinin azad olunmasına görə” medalları ilə təltif olunub.

**Faiq Abdullayev söhbətinə davam edir:**

Mən şəhid atasıyam. Qürurla deyirəm ki, mənim oğlum bu torpaq uğrunda canını fəda edib. Mənim ailəm bu gün bir yerdədir. Oğlumun anası, bacısı, qardaşı və mən onun yolunu, adını yaşatmaq üçün bir yumruq kimi birləşmişik. Biz yas saxlamırıq, biz qürur saxlayırıq. Oğlumun adı bu gün məktəbdə, küçədə, kitabda yaşadılırsa, demək, biz ata və ana olaraq vəzifəmizi yerinə yetirmişik. Ailə Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin “Ailələrimizi tanıyaq” layihəsinin qonağı olmuşduq. Orada da bu barədə söhbət etdik. Azərbaycan ailəsi olmaq təkcə övlad böyütmək deyil, onu şəxsiyyət kimi yetişdirməkdir. Biz övladımıza tərbiyə ilə bərabər, həm çörək verdik, həm də ruh verdik. Və bu ruh onu şəhidlik zirvəsinə apardı. Aqşinə sual verilən zaman deyərdi ki, mənim idealım atamdır. İndi mən deyirəm ki, mənim idealım oğlum Aqşindir.

Faiq Abdullayev ailədə xoşbəxt evliliyin əsas sirrini qarşılıqlı hörmət və anlayışda görür. Deyir ki, ər-arvad bir-birinin fərqliliklərini qəbul etməli və bir-birinə dəyər verməlidir. Heç elə ailə yoxdur ki, orada söz-söhbət olmasın. Fikir ayrılıqları hər ailədə olur, bu normaldır. Əsas məsələ odur ki, problemi böyütmədən, ona sakit və anlayışla yanaşasan, səbirli olasan.

**“Vətənə, dövlətə layiqli övadların yetişməsi üçün nə etmək lazımdır?”– sualına Aqşinin anası Dilrubə Səmədova belə cavab verdi:**

– Hər şey ailədən başlayır. Övlad birinci tərbiyəni evdə alır. Ana-ata öz davranışı ilə uşağa nümunə olur. Ataların belə məsəli var. “Uşaq dediyini yox, daha çox gördüyünü götürür”. Buna görə də valideyn ailədə elə davranmalıdır ki, uşaq ondan yaxşı münasibətləri əxz etsin. Biz övladlarımızı Vətənə sevgi ilə böyütmüşük. Onlar bilirlər ki, torpaq, bayraq nə deməkdir. Məncə uşağa bu dəyərlər kiçik yaşlarından aşılanmalıdır.

Bizim ailədə qarşılıqlı hörmət və anlayış əsas prinsiplərdir. Övladlarımızla dost münasibəti qurmağa çalışmışıq, amma, eyni zamanda, onlara məsuliyyətli olmağı, böyüyün-kiçiyin yerini bilməyi də öyrətmişik. Ailə həyatında hər şey gözəl olsa da, zaman-zaman çətinliklər də olur. Bu çətinlikləri birlikdə aşmaq üçün bir-birini başa düşmək, dinləmək və fədakar olmaq vacibdir. Ailənin uzunömürlü olması üçün güzəşt ən vacib amildir. Güzəşt həm də ailənin qorunması üçün ən önəmli silahdır.

**Faiq Abdullayev həyat yoldaşının fikirlərinə dəstək verir:**

– Gənclərə deyərdim ki, ailə qurmaq asandır. Sev, elçi getsinlər, el adəti ilə toy elə. Bununla hər şey bitdi sanmasınlar. Əsas ailə qurmaq yox, onu qorumaqdır. Ailə kiçik dövlətdir, onun sərhədləri də var. Bax, o sərhədlərin qorunması çətindir. Hər şey sevgi ilə başlayır, amma ailəni saxlayan sevgi deyil, qarşılıqlı anlayış, hörmət və səbirdir.

Bu görüşdə sadə, səmimi və qürurlu bir ailənin başçılarını dinlədik. Çalışdıq ki, Vətən yolunda qurban vermiş şərəfli bir ocağın timsalında yurd sevgisini gənclərə göstərək.

*Səhifəni hazırladı:*
*Zərifə BƏŞİRQIZI*
*XQ*

Sosial xəbərlər

## *Mərakeşlə məşğulluq təcrübəsi mübadiləsi*




**Dövlət Məşğulluq Agentliyi ilə Mərakeş Krallığının İqtisadi İnklüzivlik, Kiçik Biznes, Məşğulluq və Bacarıqlar Nazirliyinin tabeliyində fəaliyyət göstərən Məşğulluğun və Bacarıqların Təşviqi üzrə Milli Agentlik arasında əməkdaşlıq üzrə 2025–2026-cı illəri əhatə edən Fəaliyyət Planı imzalanıb.**

Fəaliyyət Planının imzalanma mərasimi Ümumdünya Məşğulluq Xidmətləri Assosiasiyası (WAPES) tərəfindən Kot-d'İvuar Respublikasının Abican şəhərində keçirilən Dünya Konqresi çərçivəsində baş tutub.

Qarşılıqlı əlaqələrin və birgə fəaliyyətin təkmilləşdirilməsi məqsədilə imzalanan sənəd aktiv məşğulluq tədbirləri, məşğulluq xidmətlərinin rəqəmsallaşdırılması peşə hazırlığı, işsiz şəxslərin, xüsusilə, gənclərin məşğulluq imkanlarının artırılması və karyera məsləhəti xidmətlərinin göstərilməsi istiqamətində əməkdaşlığı nəzərdə tutur. Sənədə əsasən, əməkdaşlıq çərçivəsində iki qurum arasında qarşılıqlı tanışlıq səfərlərinin, birgə tədbirlərin təşkil edilməsi də həyata keçiriləcək.



## *Bölgələrdə 30 günərzi qayğı mərkəzi yaradılıb*

**Sosial Xidmətlər Agentliyinin sifarişi ilə icra olunan layihələr əsasında bölgələrdə 30 günərzi qayğı mərkəzi yaradılıb.**

Yeni mərkəzlərdə həssas qruplara aid, o cümlədən əlilliyi olan uşaqların korreksiya, abilitasiya, bərpa və s. xidmətlərlə, psixoloji dəstəklə təminatı həyata keçirilir. Ümumilikdə, 900 uşağın bu mərkəzlərin xidmətləri ilə əhatə olunması, müxtəlif dərnəklər vasitəsi ilə onlarda özünəxidmət qabiliyyətlərinin artırılması və təxəyyüllərinin inkişaf etdirilməsi üçün də işlər aparılması nəzərdə tutulub.

Günərzi qayğı mərkəzlərinin fəaliyyətə başlamasının məqsədi uşaqların dövlət uşaq müəssisələrinə düşməsinin qarşısının alınmasına, çətinlikləri olan uşaqların və ailələrin sosial xidmətlərə çıxışının təmin edilməsidir.

## *Gecikdirilmiş vəsait işçilərə ödənilib*

**Dövlət Əmək Müfəttişliyi Xidməti 2025-ci ilin yanvar–aprel ayları ərzində işəgötürənlərin sosial xarakterli 110 min manata yaxın vəsaiti işçilərə ödəmədiyini müəyyən edib.**

Görülən tədbirlər nəticəsində işəgötürənlər həmin vəsaiti işçilərə ödəyib. Onun 88,9 faizi əməkhaqlarından, qalan hissəsi işəgötürənlərin ödəməli olduqları müavinət və kompensasiyalardan, zərərə görə ödənclərdən ibarət olub. Müraciətlərin araşdırılması zamanı müfəttişlik 30 işçinin əmək müqaviləsinə qanunvericiliyin tələbləri pozulmaqla xitam verildiyini də müəyyən edib. Xidmətin qanunvericiliyə əsasən, gördüyü tədbirlər nəticəsində həmin işçilər əvvəlki işlərinə bərpa olunublar.



Azərbaycan milli mətbuatı – 150

# Müstəqil dövlətin çağdaş media çağırışı

## İdarəetmənin informasiya təminatının səmərəli təşkili

**Milli mətbuatımızın 150 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamında anadilli jurnalistikamızın əsryarımlıq tarixinə yüksək qiymət verilməklə yanaşı, onun çağdaş tendensiyaları cavablandırmaqla bağlı vəzifələri də qeyd olunub.**




Sənəddə bildirilir ki, bu gün mediamız Azərbaycanın tərəqqisinin və müasir cəmiyyət quruculuğu prosesinin fəal iştirakçısı olaraq, beynəlxalq əlaqələrini və qlobal informasiya məkanında təsir imkanlarını genişləndirmiş, rəqabət qabiliyyətini artırmışdır. Dünya nizamının dəyişikliklərə məruz qaldığı, siyasi proseslərin intensivləşdiyi, yeni fəaliyyət prinsiplərinin bərqərar olduğu müasir dövr ölkə mediasının qarşısında dayanan yeni vəzifələri belə müəyyənlşdirib: "Media müasir tendensiyaları nəzərə almaqla Azərbaycanın dövlət maraqlarını həmişə uca tutmalı, ölkəmizin müasir beynəlxalq münasibətlər sistemində yeri və rolu, həyatımızda baş verən pozitiv dəyişikliklər ilə bağlı ictimaiyyətimizin məlumatlandırılması sahəsində daha fəal olmalıdır".

Müasir dövrün tələbləri və texnologiyanın sürətli inkişafı dövlət idarəetməsində də informasiya təminatının və media ilə işin təşkilinin əhəmiyyətini artırıb. Dövlətin şəffaf və səmərəli fəaliyyət göstərməsi, vətəndaşların dövlət orqanları ilə əlaqələrinin optimallaşdırılması, cəmiyyətin müxtəlif sahələrində dövlətin fəaliyyəti barədə məlumatlılığın təmin edilməsi üçün düzgün, effektiv informasiya siyasətinin həyata keçirilməsi vacibdir. İnformasiya əldə etmək hüququ və media azadlığı Azərbaycanın Konstitusiyasında qorunan əsas hüquqlar sırasındadır. Konstitusiyanın 50-ci maddəsi vətəndaşların informasiya əldə etmək hüququnu təmin edir və dövlət orqanlarının fəaliyyətinə dair məlumatların açıq olmasını şərtləndirir. Bu sahədə müvafiq konkret qanunlar, xüsusilə "İnformasiya əldə etmək haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunları dövlətin informasiya siyasətinin əsas çərçivəsini müəyyən edir.

Azərbaycan hökuməti informasiya təminatının gücləndirilməsi və ictimaiyyətlə əlaqələrin inkişaf etdirilməsi istiqamətində bir sıra islahatlar həyata keçirmişdir. Bu islahatlar arasında açıq hökumət təşəbbüsləri, elektron hökumət layihələri və media sahəsindəki yeni təşəbbüslər xüsusilə diqqət çəkir. Dövlətin fəaliyyətini cəmiyyətə çatdırmaq və ictimai rəyi formalaşdırmaq baxımından media ilə qarşılıqlı əlaqələrin düzgün qurulması vacibdir. Azərbaycan Respublikasında Medianın İnkişafı Agentliyinin yaradılması islahatlar və peşəkar jurnalist hazırlığında mühüm addım olmuşdur. Agentlik media sahəsinin tənzimlənməsi, jurnalistlərin hüquqlarının qorunması və peşəkar inkişafının təmin edilməsi istiqamətində fəaliyyət göstərir.

Dövlət idarəetməsində media ilə işin düzgün təşkili ictimaiyyətin dövlət siyasətinə olan inamını artırır, informasiya təhlükəsizliyini təmin edir və şəffaflığı gücləndirir. Bu sahədə media ilə əməkdaşlığın inkişafı və kommunikasiya strategiyalarının təkmilləşdirilməsi müasir dövlət idarəetməsinin ayrılmaz hissəsinə çevrilib. Ölkəmizdə bu istiqamətdə atılan addımlar – dövlət qurumlarında peşəkar mətbuat xidmətlərinin formalaşdırılması, sosial media vasitəsilə məlumatlandırmanın gücləndirilməsi və şəffaflığın artırılması dövlət-media münasibətlərinin sağlam əsaslar üzərində qurulmasına xidmət edir.

Sosial media və rəqəmsal platformalar dövlət idarəçiliyi üçün getdikcə daha çox əhəmiyyət kəsb edir. Son illərdə dövlət qurumlarının "X" (Twitter), "Facebook", "Instagram" və sair bu kimi sosial media platformalarında fəaliyyəti ictimai ünsiyyətdə yeni dövr başladıb. Bu platformalar vətəndaşların dövlətin fəaliyyəti haqqında operativ, dəqiq məlumatlarla təmin edilməsi, ictimai rəy və təkliflərin qəbulu üçün səmərəli vasitəyə çevrilib.

Müasir dövrdə məlumatların doğruluğu və etibarlılığı, eləcə də internet üzərindən yayılan saxta xəbərlər və dezinformasiyanın qarşısının alınması məsələləri dövlətin informasiya siyasətinin mühüm tərkib hissəsinə çevrilmişdir.

Dezinformasiyaya qarşı mübarizə məqsədilə müxtəlif təhlil və araşdırmalar aparılır, jurnalistlər və ictimaiyyət məlumatlandırılır. Kibertəhlükəsizlik sahəsində atılan addımlar və müxtəlif kibermüdafiə tədbirləri dövlətin informasiya təhlükəsizliyini qorumağa yönəlmişdir. Bu tədbirlərdən biri də dövlət başçısının müvafiq sərəncamı ilə Azərbaycan Respublikasında süni intellektin inkişafını sürətləndirmək, bu sahədə tədqiqatların aparılmasını təşviq etmək, süni intellekt üzrə informasiya texnologiyalarının və onların idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsini, infrastrukturunun əlçatanlığını təmin etmək, habelə ixtisaslı kadr potensialını gücləndirmək məqsədilə "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt strategiyası"nın qəbul edilməsidir. Bu strategiya yalnız texnoloji yenilikləri dəstəkləməklə kifayətlənmir, eyni zamanda, dövlət idarəçiliyi, iqtisadiyyat, elm və təhlükəsizlik sahələrində süni intellektin effektiv istifadəsini təmin etməyə yönəlib. Süni intellektin inkişafı ilə bağlı qəbul edilən Dövlət Proqramı bu sahənin planlı şəkildə inkişafına və gələcək çağırışlara uyğun olaraq idarə edilməsinə imkan yaradır.

Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da hər bir sivil cəmiyyətin inkişaf göstəricisi hesab olunan söz və məlumat azadlığının təmin olunması, medianın fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb. Bu gün muxtar respublikadakı yaradıcılıq mühiti jurnalistlərin istənilən mövzuda sərbəst material hazırlamasına, araşdırma aparmalarına imkan verir. Bütün sahələrdə əldə olunan inkişaf və yüksəliş Naxçıvan mediasını da əhatə edib. Mətbuat orqanlarına, teleradiolara olan hərtərəfli dövlət qayğısı yeni keyfiyyət dəyişikliklərinin yaranmasına səbəb olub.

Naxçıvan televiziyasının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin rəsmi orqanı olan "Şərq qapısı" qəzetinin internet saytlarının, media hesablarının operativ fəaliyyətinin təmin olunması, Naxçıvan televiziyasının və radiosunun internet üzərindən yayımlanması, muxtar respublikada ölkə telekanallarının və informasiya agentliklərinin müxbir postlarının fəaliyyət göstərməsi, mərkəzi media qurumlarının muxtar respublikadakı nümayəndələri ilə sıx əlaqələrinin yaradılması, bununla da Naxçıvan mediasının vahid komanda şəklində hərəkət etməsi, işin daha da optimallaşdırılması, yeni texnologiyaların iqtisadiyyatın və həyatın bütün sahələrində tətbiqi, sürətli internetə çıxış imkanlarının yaradılması Naxçıvanın informasiya blokadasının yarılmasına, qədim diyarın müasir sosial-iqtisadi inkişafı, tarixi və bugünü haqqında məlumatların oxucu, tamaşaçı və dinləyicilərə daha operativ çatdırılmasına imkan verir.

Dövlət orqanlarının fəaliyyəti ilə bağlı mətbuata açıq informasiyalar – ümumiləşdirilmiş statistik məlumatlar, aylıq və rüblük hesabatlar, əhaliyə göstərilən ictimai xidmətlər haqqında məlumatlar, açıqlanması qanunvericiliklə müəyyənləşdirilən digər informasiyalar internet saytlarında ictimailəşdirilərək geniş oxucu kütləsinə çatdırılır. Dövlət qurumlarının internet saytları mütəmadi yenilənir və informasiya yükü artırılır. Naxçıvan Muxtar Respublikasının müasir inkişafı, tarixi-mədəni irsi və turizm potensialı haqqında qurumların internet saytlarında məlumatlar, fotoşəkillər və videolar yerləşdirilir, təbliğat işi aparılır.

***Rəmzi İBRAHİMOV,***
***Naxçıvan MR Ali Məclisi mətbuat və ictimaiyyətlə əlaqələr sektorunun müdiri***

# Gülüstanda Bilik Forumu



**Gənclər Fondunun tərəfdaşlığı, "Fred's English"in təşkilatçılığı ilə ölkəmizdə ilk dəfə "Olimpiada Bilik Forumu" təşkil olunub. "Gülüstan" sarayında 600 iştirakçının qatıldığı forum çərçivəsində 7-29 yaş arası şagird, yeniyetmə və gənclər ingilis dili üzrə olimpiadada biliklərini sınamaq imkanı qazanıblar. Eyni zamanda, iştirakçılar tanınmış mentorların çıxışlarını dinləyərək şəxsi və peşəkar inkişafla bağlı dəyərli tövsiyələr əldə ediblər.**

Bilik yarışının sonunda bütün iştirakçılar sertifikatlarla təltif olunub, sponsorlar tərəfindən müxtəlif hədiyyələrlə mükafatlandırılıb.

Forumda iştirak etmiş tədqiqat metodları üzrə mütəxəssis, Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi Qoşqar Bəylərov "Xalq qəzeti"nə deyib ki, bu, ölkəmizdə ilk dəfə təşkil edilsə də, maraq yüksəkdir. Forum Azərbaycanda gənclərin intellektual inkişafına, xarici dil bacarıqlarının artırılmasına və onların sosial fəallığının təşviqinə yönəlib.

Təhsil və dayanıqlı inkişaf üzrə ekspert, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının müəllimi Tapdıq Nəcəfəliyev isə bildirib ki, olimpiadaların əhəmiyyəti böyükdür, təhsil sahəsində görülən işlərin nəticəsi meydana çıxır, uşaqlar arasında rəqabət yaradılır. İstənilən olimpiada təhsilin inkişafının göstəricisidir.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

*Vətən, sənə canım fəda!*



# Qalib Azərbaycan əsgərinin Moskva keçidi

*Qarabağ Zəfərinin Rusiyanın baş meydanında əks-sədası*

**Hələ də Moskva şəhərindəki Qırmızı meydanda faşizm üzərində qələbənin 80-ci ildönümü münasibətilə Qələbə paradında yenilməz Azərbaycan Milli Ordusunun 80 nəfər hərbçisinin Türk marşı ilə təntənəli keçidinin təəssüratı könüllərimizi duyğulandırır. Rusiya Prezidenti Vladimir Putinin qəbul etdiyi həmin parada 13 ölkənin silahlı qüvvələri çıxmışdı və 27 ölkənin liderləri, müdafiə nazirliklərindən nümayəndə heyətləri keçidləri izləyirdilər.**



***Dün gedənlər mərdcə getdi,***
***Nə xoşca qal, nə əlvida!***
***Sıra mənə gəldi çatdı,***
***Vətən, sənə canım fəda!***

Vətənin oğul dediyi "Komando" cəngavərlərimiz polkovnik-leytenant Samiq Məmmədovun rəhbərliyi ilə meydandan şəstlə keçərək, hər birimizə hədsiz iftixar duyğuları yaşatdılar. Tam əminik ki, Qarabağ və Şərqi Zəngəzurda 44 günlük Vətən müharibəsində misilsiz Zəfər qazanmış Azərbaycan Ordusunun mətin addım sədaları dünyanın qulaqlarından uzun müddət getməyəcək.

Yeri gəlmişkən, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyev 80 illik parada dəvət olunsa da, ora getmədi. AZAL-ın sərnişin təyyarəsinin qəzaya uğramasından 5 ay keçsə də, Rusiya tərəfindən hər hansı əməliyyat-istintaq tədbirləri aparılmaması, bir müddət əvvəl Azərbaycanın media resurslarına kiberhücumların Rusiyadan edildməsinin təsdiqlənməsi, Milli Məclisin deputatı Azər Badamovun Moskva aeroportunda saxlanılaraq deportasiya olunması kimi xoşagəlməz olayların müqabilində Azərbaycan rəhbərinin belə bir qərarı hamılıqla təqdir edildi.

Eyni zamanda, cəmiyyət arasında hərbçilərimizin Qırmızı meydana getməli olmadıqları ilə bağlı bəzi subyektiv fikirlər də səslənirdi ki, paradda igidlərimizin məğrur keçidinin, Türk marşının dalğa-dalğa ətrafa yayılmasının yaratdığı möhtəşəm assosiasiya bu iddiaları tamamilə heçə çıxardı. Hələ paraddan öncə düzənlənən məşq prosesində Azərbaycan əsgərinin gur səslərinin Moskva küçələrində polifonik bir prelüdiya kimi geniş əks-səda verdiyi də qeyd olunmalıdır. Sosial şəbəkə seqmentində yayılan videokadrlara çox sayda "Maşallah"larla rəylər yazılması isə bir başqa zövq idi.

Onu da vurğulayaq ki, paradda iştirak edən MDB dövlətləri arasında torpağını işğalçılardan təmizləmiş ordusu ilə təmsil olunan yeganə qalib ölkə Azərbaycan idi və keçidə postsovet respublikaları sırasından 1-ci buraxılmışdı. Belarus, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Özbəkistan hərbçiləri... yalnız bizimkilərdən sonra keçid etdilər. Başqa sözlə desək, alman faşizmi üzərində qələbənin 80 illik paradında rus ordusunun aşkar-gizli himayədarlıq etdiyi erməni faşizmini diz çökdürməsinin 5 illik qürurunu yaşayan Azərbaycan xüsusi təyinatlılarının mətin addımlarla keçidinin özünəməxsus rəmzi mənası vardı. Bu, Silahlı Qüvvələrimizə xas cəngavərlik mentalitetinin nümayişi idi. Marş sədaları ilə bir ahəngdə vuran bu addımlar ən keçilməz sədləri belə arxada qoymaq qüdrətini nidalayırdı.

Müzəffər Ali Baş Komandanımızın hələ Vətən müharibəsindən əvvəl səsləndirdiyi "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır" – deyiminin, hərbi anda dönməz sədaqətin əyani sübutu idi bu görüntülər. Şair demişkən, Azərbaycan oğlunun tətik sıxan barmağı təntiyən yerin-göyün güman ilmələrini misra-misra sökürdü...

Bəli, 80 il əvvəl nasist Almaniyasını məğlub edən babaları Qırmızı meydandan keçmiş igidlərimiz indi özləri faşist Ermənistanını diz çökdürüb buraya gəlmişdilər. Elə seyrçilər arasından döyükə-döyükə baxan Paşinyan Nikol Vovayeviç nə kol tapırdı gizlənsin, nə də sanki "Vay, dədə" deməkdən özünü saxlaya bilirdi. Çünki onun əsgərlərindən fərqli olaraq qalib Azərbaycan əsgəri qətiyyətlə oxuyurdu:

***Sənin bir çağrınla ölmək,***
***O qanlı bağrında ölmək,***
***Şərəfdir uğrunda ölmək***
***Vətən, sənə canım fəda!..***

***XQ***

# Mədəni irsimiz Aşqabad festivalında

**Aşqabad Beynəlxalq Məktəbində keçirilən "Beynəlxalq mətbəx festivalı"nda Azərbaycan zəngin mədəni irsi və turizm potensialı ilə təmsil olunub.**



Ölkəmizə aid guşədə Azərbaycanın tarixi, mədəniyyəti, incəsənəti, xalçaçılıq ənənələri, milli geyimləri, memarlıq üslubu və turizm imkanlarını əks etdirən təqdimatlar nümayiş etdirilib.

Guşədə "azerbaijan.travel" turizm portalı və "Made in Azerbaijan" brendinə dair bannerlər quraşdırılıb, milli məhsullar və sənətkarlıq nümunələri nümayiş olunub. Azərbaycanın milli mətbəxinə məxsus yeməklər və şirniyyatlar da festival iştirakçıları tərəfindən maraqla qarşılanıb.

***XQ***

# PKK özünü buraxdığını elan etdi

## *Bu, regionda sabitliyin güclənməsinə səbəb olacaq*

**2025-ci ilin may ayında Kürdüstan Fəhlə Partiyası (PKK) 40 ildən artıq davam edən silahlı mübarizəsinə son qoyduğunu və təşkilatın özünü buraxdığını elan etdi. Bu qərar partiyanın 5-7 may tarixlərində İraqın şimalında keçirilən XII qurultayda qəbul edildi və təşkilatın həbsdə olan lideri Abdullah Öcalanın fevralda etdiyi çağırışa cavab olaraq verildi. PKK-nın bu qərarı, Türkiyə və Yaxın Şərqdə yeni bir geosiyasi dövrün başlanğıcı kimi qiymətləndirilir.**



PKK-nın silahlı mübarizədən imtina etməsinin əsas səbəbləri arasında Abdullah Öcalanın çağırışı, regional və qlobal təzyiqlər, eləcə də Türkiyədəki daxili siyasi dəyişikliklər yer alır. Həbsdə olan PKK lideri Abdullah Öcalan 2025-ci ilin fevral ayında təşkilatın silahlı mübarizədən imtina etməsi və özünü buraxması çağırışını etdi. Bu çağırış, PKK-nın 12-ci qurultayında əsas müzakirə mövzusu oldu və nəticədə təşkilatın ləğvi qərarı qəbul edildi. Türkiyənin son illərdə PKK-ya qarşı həyata keçirdiyi hərbi əməliyyatlar və beynəlxalq ictimaiyyətin təzyiqləri təşkilatın zəifləməsinə səbəb oldu. Eyni zamanda, PKK-nın fəaliyyət göstərdiyi bölgələrdəki siyasi və hərbi dəyişikliklər də təşkilatın fəaliyyətini çətinləşdirdi. Hökumətin kürd məsələsinə daha demokratik yanaşması və kürd siyasi partiyalarının parlamentdə təmsil olunması bu prosesə müsbət təsir etdi.

PKK-nın silahlı mübarizədən imtina etməsi, Türkiyənin Cənub-Şərq bölgəsində uzun illərdir davam edən qarşıdurmaların sona çatması və bölgədə sülhün bərqərar olması üçün bir fürsət yaradır. Bu, həm də ölkənin ümumi sabitliyinə və təhlükəsizliyinə müsbət təsir göstərəcək. Eyni zamanda, kürd məsələsində yeni yanaşmalar və siyasi dialoqun inkişafı üçün imkanlar yaranır. PKK-nın fəaliyyətlərinin sona çatması ilə bölgədəki iqtisadi sahələrin canlanması və xarici sərmayələrin artması gözlənilir. Bu, xüsusilə Cənub-Şərq bölgəsinin inkişafına və ölkənin ümumi iqtisadiyyatına müsbət təsir göstərəcək.

Qeyd etmək lazımdır ki, ABŞ-ın Suriyadakı kürd yaraqlıları ilə əlaqələri və Türkiyənin bu məsələyə kəskin mənfi münasibəti artıq yeni bir mərhələyə keçə bilər. Belə ki, PKK-nın buraxılması ilə ABŞ və Türkiyə arasında kürd məsələsindəki gərginliyin azalması mümkündür. PKK-nın silahlı fəaliyyətlərinin sona çatması ilə bölgədəki digər silahlı qrupların və dövlətlərin mövqeləri dəyişə bilər. Bununla da Yaxın Şərqdə yeni bir güc balansının formalaşması gözlənilir.

PKK-nın silahlı mübarizədən imtina etməsi və özünü buraxması, Yaxın Şərqdə və xüsusilə Türkiyədə yeni bir dövrün başlandığını göstərir. Bu hadisə bölgədə sülh və əməkdaşlıq üçün yeni imkanlar yaradacaq. Eyni zamanda, "kürd məsələsi"nin siyasi yollarla həlli və bölgədə uzunmüddətli sabitliyin təmin olunması üçün yeni fürsətlər açacaq.

***Renat DADAŞOV,***
***hüquqşünas***



# Uşaq və yeniyetmələrə velosipedlər hədiyyə olunub

**Mayın 11-də Xızı, Quba, Qax və Yevlax rayonlarında yaşayan uşaq və yeniyetmələr üçün Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə xüsusi sosial aksiya keçirilib.**

IDEA İctimai Birliyinin mətbuat xidmətinin məlumatına görə, Azərbaycan Velosiped İdmanı Federasiyasının dəstəyi ilə keçirilən aksiya çərçivəsində hər rayondan 50 nəfər olmaqla, 6–18 yaş arası ümumilikdə 200 uşaq və yeniyetməyə velosipedlər, onlara uyğun təhlükəsizlik ləvazimatları hədiyyə olunub.

Mütəmadi olaraq icra edilən bu təşəbbüsün əsas məqsədi regionlarda yaşayan uşaqların asudə vaxtlarını daha səmərəli şəkildə keçirmələrinə şərait yaratmaq, onların idmana və sağlam həyat tərzinə marağını artırmaq, fiziki aktivliyi təşviq etmək, eləcə də ekoloji nəqliyyat vasitəsi kimi velosiped istifadəsini təşviq etməkdir. Tədbirdə iştirak edən uşaqlar hədiyyələri böyük sevinclə qarşılayıb, təşəbbüsə görə təşkilatçılara minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həm ölkəmizin müxtəlif regionlarında, həm də dünyanın bir sıra ölkələrində humanitar, təhsil, səhiyyə, sosial, ekoloji və digər sahələri əhatə edən genişmiqyaslı layihələr mütəmadi olaraq həyata keçirilir. Müxtəlif hədəf və yaş qruplarını əhatə edən bu təşəbbüslər insanların sosial rifahının yaxşılaşdırılmasına, onların həyat keyfiyyətinin yüksəldilməsinə, təbiətin və biomüxtəlifliyin qorunmasına, ekoloji tarazlığın bərpasına mühüm töhfələr verir. Bu layihələr yüz minlərlə insanın həyatına bilavasitə müsbət təsir göstərərək, həm cəmiyyətin rifahına, həm də planetimizin davamlı inkişafına xidmət edir.

***XQ***

## "ALMET" ASC səhmdarlarının nəzərinə!

"ALMET" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 30 iyun 2025-ci il saat 11.30-da "Şüşəplastmas" ASC-nin yerləşdiyi ünvanda (Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəbəsi, Qəsəbə küçəsi 24 nömrəli ünvanda ) keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. Bakı Şəhər İcra Hakimyyətinin rəhbərliyi ilə, Xətai Rayon İcra Hakimiyyəti tərəfindən "ALMET" ASC-nin yerləşdiyi ərazidə parkın salınması məqsədilə cəmiyyətə məxsus olan bina və qurğuların (balansındakı daşınmaz əmlakın) tamam sükülməsinə aid məsələ.

2. Cəmiyyətin 2024-cü ilin yekunlarının və mühasibat balansının təsdiqi.

Səhmdarların ümumi yığıncağının gündəliyinin materialları ilə (050) 2654887 nömrəli telefonla əlaqə saxlayıb və yaxud cəmiyyətin yerləşdiyi ünvanda tanış olmaq mümkündür.

***Müşahidə şurası***

## "Bakı Hövsan Beynəlxalq Dəniz Limanı" ASC səhmdarlarının nəzərinə!

"Bakı Hövsan Beynəlxalq Dəniz Limanı" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 25 iyun 2025-ci il saat 11.00-da Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi Şakir Ziyadov küçəsi 1 nömrəli ünvanda yerləşən inzibati binada aşağıdakı gündəlikdə keçiriləcəkdir:

Ümumi yığıncağın gündəliyi:

1."Bakı Hövsan Beynəlxalq Dəniz Limanı" ASC-nin maliyyə-təsərrüfat fəaliyyətinin 2024-cü il üzrə hesabatı və təsdiqi.

2. Direktorlar şurasının tərkibinin yenidən seçilməsi və təsdiqi.

3. Digər məsələlər.

Səhmdarlar ümumi yığıncağın gündəliyinin materialları ilə iş günləri saat 10.00-dan 17.00-dək səhmdar cəmiyyətin Bakı şəhəri, Suraxanı rayonu, Şakir Ziyadov küçəsi (Hövsan qəsəbəsi) 1 nömrəli ünvanda yerləşən inzibati binasında səhmdar cəmiyyətin rəhbərliyinə müraciət etməklə tanış ola bilərlər. Yığıncaqda iştirak etmək vacibdir.

Ünvan- Bakı şəhəri, Suraxanı rayonu, (Hövsan qəsəbəsi) Şakir Ziyadov küçəsi 1.

***Direktorlar şurası***

## "Alatava – Avtonəqliyyat 2" ASC səhmdarlarının nəzərinə!

30 iyun 2025-ci il saat 16.00-da "Alatava – Avtonəqliyyat 2" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Cəmiyyətin 2024-cü il üçün maliyyə-təsərrüfat fəaliyyəti barədə idarə heyətinin hesabatı.

2. Digər məsələlər.

***İdarə heyəti***

## "Nəsimi Məişət Malları" ASC səhmdarlarının nəzərinə!

"Nəsimi Məişət Malları" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 30 iyun 2025-ci il saat 11.00-da "Şüşəplastmas" ASC-nin yerləşdiyi ünvanda (Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəbəsi, Qəsəbə küçəsi 24 nömrəli ünvanda) keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. Cəmiyyətin 2024-cü ilin yekunlarının müzakirəsi və mühasibat balansının təsdiqi.

Səhmdarların ümumi yığıncağının gündəliyinin materialları ilə (050) 265-48-87 nömrəli telefonla əlaqə saxlayıb və yaxud cəmiyyətin yerləşdiyi ünvanda tanış olmaq mümkündür.

***Müşahidə şurası***

## "Şüşəplastmas" ASC səhmdarlarının nəzərinə!

"Şüşəplastmas" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 30 iyun 2025-ci il saat 10.00 da "Şüşəplastmas" ASC-nin yerləşdiyi ünvanda (Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəbəsi Qəsəbə küçəsi 24 nömrəli ünvanda) keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. Cəmiyyətin 2024-cü ilin yekunlarının müzakirəsi və mühasibat balansının təsdiqi.

2. İdarə heyəti sədrinin seçilməsi .

3. "Şüşəplastmas" ASC-nin nizamnaməsinin yeni redaksiyada təsdiqi.

Səhmdarların ümumi yığıncağının gündəliyinin materialları ilə (050) 265-48-87 nömrəli telefonla əlaqə saxlayıb və yaxud cəmiyyətin yerləşdiyi ünvanda tanış olmaq mümkündür.

***Müşahidə şurası***

## "Kəpəz Mehmanxana" ASC səhmdarlarının nəzərinə!

28 iyun 2025-ci il saat 10.00-da "Kəpəz Mehmanxana" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. 2024-cü ilin hesabatı və maliyyə hesabatlarının təsdiq edilməsi.

2. Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələlərlə bağlı sənədlərlə hər həftənin iş günləri saat 13.00-dək tanış ola bilərlər.

Əlaqə telefonu-070 - 242 – 52 – 92.

Ünvan- Gəncə şəhəri, Cavadxan küçəsi 1.

## "Sumqayıt Şirniyyat" ASC səhmdarlarının nəzərinə!

6 iyul 2025-ci il saat 12.00-da "Sumqayıt Şirniyyat" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

İclasın gündəliyi:

1. "Sumqayıt Şirniyyat" ASC-nin idarəetmə orqanının 2024-cü il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin müzakirəsi və təsdiqi.

2. Digər məsələlər.

Bütün səhmdarların iştirakı vacibdir.

Telefon-050-210-68-38.

Ünvan- Sumqayıt şəhəri, Lermontov küçəsi 13.

## "Goranboy ƏT" ASC səhmdarlarının nəzərinə!

30 iyun 2025-ci il saat 11.00-da Goranboy şəhəri, S.Vurğun küçəsi 92 nömrəli ünvanda səhmdarların növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Cəmiyyətin 2024-cü il üçün maliyyə-təsərrüfat fəaliyyətinə aid hesabatın müzakirəsi və təsdiqi.

2. Digər məsələlər.

Yığıncağın gündəliyinə aid sənədlərlə cəmiyyətin yerləşdiyi ünvanda tanış olmaq mümkündür. Yığıncaqda bütün səhmdarların şəxsiyyəti təsdiq edən sənədlə (vəkil olunmuş nümayəndələr notarial təsdiqlənmiş etibarnamə və şəxsiyyəti təsdiq edən sənədlə) iştirakı vacibdir.

Əlaqə telefonu-055-226-24-24.

***İdarə heyəti***

## "Gəncə Mexanizasiya-5" ASC səhmdarlarının nəzərinə!

27 iyun 2025-ci il saat 10.00-da "Gəncə Mexanizasiya-5" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1.Səhmdar cəmiyyətin 2024-cü ilə aid fəaliyyətinin müzakirəsi.

2. Səhmdar cəmiyyətin gələcək fəaliyyət planlarının müzakirəsi.

Əlaqə telefonu – (055) 335-35-25, (050) 567-52-54.

Ünvan – Gəncə şəhəri, N. Nərimanov prospekti 38.

## "Bakı Yüksək Gərginlikli Elektrik Avadanlıqları" ASC səhmdarlarının nəzərinə!

27 iyun 2025-ci il saat 10.00-da səhmdarların illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyindəki məsələlər:

1. Cəmiyyətin illik hesabatlarının dinlənilməsi və təsdiq edilməsi.

2. Nizamnamədə dəyişiklik edilməsi.

3. Digər məsələlər.

Əlaqə telefonu – (012) 514-46-20.

Ünvan – Bakı şəhəri, Nərimanov rayonu, Ağa Nemətulla küçəsi 2.

***İdarə heyəti***

## "Goranboy Tikinti-Quraşdırma" ASC səhmdarlarının nəzərinə!

30 iyun 2025-ci il saat 11.00-da "Goranboy Tikinti-Quraşdırma" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Cəmiyyətin 2024-cü il üçün maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarına aid hesabatın müzakirəsi və təsdiqi.

2. Mənfəət və zərərin bölüşdürülməsi.

3. Digər məsələlər.

Yığıncağın gündəliyinə aid sənədlərlə cəmiyyətin yerləşdiyi ünvanda tanış olmaq mümkündür. Yığıncaqda bütün səhmdarların şəxsiyyəti təsdiq edən sənədlə (vəkil olunmuş nümayəndələr notarial təsdiqlənmiş etibarnamə və şəxsiyyəti təsdiq edən sənədlə) iştirakı vacibdir.

Əlaqə telefonu-055-745-33-19.

Ünvan-Goranboy şəhəri, V.Bayramov küçəsi 13.

***İdarə heyəti***

## "Billur elektroniks" ASC səhmdarlarının nəzərinə!

30 iyun 2025-ci il saat 11.00-da "Billur elektroniks" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. Cəmiyyətin 2024-cü il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin hesabatı.

2. Digər məsələlər.

Əlaqə telefonu- (022)264-07-76, (055)342-65-44.

Ünvan-Gəncə şəhəri, Şəmkir şossesi 1.

***Müşahidə şurası***

## "İsmayıllı Quşçuluq" ASC səhmdarlarının nəzərinə!

30 iyun 2025-ci il saat 12.00-da "İsmayıllı Quşçuluq" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Cəmiyyətin 2024-cü il üçün maliyyə yekunlarının müzakirəsi, illik balansının təsdiqi və dividendlərin verilməsi .

2. İdarə heyəti üzvlərinin və sədrinin seçilməsi.

Əlaqə telefonu- +99420-282-11-00.

* Yığıncaq onlayn formatda keçiriləcəkdir.

( Zoom) Linklə bağlı məlumatı almaq üçün əlaqə telefonu: 051-484-93-60

***İdarə heyəti***

## "Sabunçu Əyrici" ASC səhmdarlarının nəzərinə!

27 iyun 2025-ci il saat 11.00-da "Sabunçu Əyrici"ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. "Sabunçu Əyrici" ASC-nin idarəetmə orqanlarının 2024-cü il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin müzakirəsi.

2. "Sabunçu Əyrici" ASC-nin idarəetmə orqanlarının 2024-cü il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin təsdiqi.

3. Digər məsələlər

İclas onlayn qaydada keçiriləcəkdir.

Hörmətli səhmdarlar!

2025-ci il iyunun 27-də ümumi yığıcaqda iştirak etməyinizi təsdiqləmək üçün saat 10.00-dək şəxsiyyətinizi təsdiqləyən sənədin surətini 050-453-94-61 nömrəli mobil telefona "WhatsApp" nömrəsi vasitəsi ilə göndərməyiniz tələb olunur. Saat 10.30-dək (yəni iclasın başlanmasına 30 dəqiqə qalmış) "ZOOM" proqramı ilə keçirilən ümumi yığıncağa qoşulmaq və iştirak etmək üçün "WhatsApp" vasitəsilə "Sabunçu Əyrici" ASC onlayn qrupa daxil olaraq qrupun təşkilatçısı kimi ümumi yığıncağın adından paylaşdığımız linkə daxil olmalısınız.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 97 (30791) 13 may 2025-ci il, çərşənbə axşamı

İdman

## Ədalətli oyun mükafatlandırması



**Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) Ədalətli Oyunlar Komissiyasının 2024-cü ilin yekunlarına həsr olunmuş mükafatlandırma mərasimi keçirilib.**

MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə və Ədalətli Oyunlar Komissiyasının sədri Xəzər İsayev çıxış edərək Azərbaycan idmanında əldə olunan uğurlardan danışıblar. Sonra ədalətli oyun sahəsində fərqlənənlərə mükafatlar verilib.

Ədalətli oyun prinsiplərinə sadiq bədən tərbiyəsi və idman xadimi nominasiyası üzrə mükafat Azərbaycan Cüdo Federasiyasının prezidenti Rəşad Nəbiyevə təqdim edilib. Digər nominasiyalar üzrə mükafatlar, idmançı Qaşım Maqomedov (taekvondo), məşqçi Tərlan Həsənov (cüdo), hakim Emil Qurbanəliyev (boks) və ədalətli oyun prinsiplərinin ən yaxşı təbliğatçısı seçilən "İctimai TV"yə təqdim olunub.

## Dünya çempionatında 9 mükafat




**Mayın 8-11-də Polşanın Pulavı şəhərində ənənəvi karate üslubu fudokan üzrə 10-cu dünya çempionatında yığmamız 9 medal qazanıb.**

Böyüklər arasında Hacıəli Vəlizadə (+80 kq), Vüsal Seyidov (60 kq, U21), gənclər arasında Tahir Ələkbərov (75 kq), Şəfaqət Zeynallı (60 kq) və yeniyetmələrdə isə Qorxmaz Səfərli (60 kq) qızıl medala sahib olublar. Mütləq çəki dərəcəsində Babək Qələmzadə, gənclərdə Məhəmməd Bağırov (+65 kq) 2-ci yeri tutublar. Böyüklərin yarışında Kamran Heydərzadə (80 kq), veteranlar arasında isə Siyavuş Bayramov (+75 kq) bürünc mükafata yiyələniblər.

## Parapauerliftinqçimiz 2 qızıl medal qazanıb




**Azərbaycanın parapauerliftinqçisi Rəsul Zəkiyev Tbilisidə keçirilən Dünya kubokunda iki qızıl medal qazanıb.**

Gənclər arasında yarışan 19 yaşlı idmançımız 88 kq çəkidə mübarizəyə qoşulub. O, həm ümumi qaldırmada üç hərəkətin cəmində 321 kq nəticə ilə, həm də ən yaxşı qaldırmada 112 kq nəticə ilə qızıl medallar əldə edib.

*L.AZAD*
*XQ*

*Aktual müsahibə*

# Azərbaycan şahmatı dünya zirvəsində

## Onun sabahı və gələcəyi necə olacaq?

**May ayının ilk həftəsində şahmatsevərlər "Baku Open-2025" turnirinin həyəcanını yaşadılar. Yarışda dünyanın güclü oyunçuları ilə yanaşı, aşağı yaş qruplarında yüzlərcə təmsilçimiz də mübarizə aparırdı. Şahmatçılarımızın turnirdə nəticələrini qənaətbəxş saymaq olarmı? Ümidlər özünü doğrultdumu?**

İdman ekspertləri bildirirlər ki, "Baku Open", həm təşkilati, həm də şahmatın kütləviliyi baxımından uğurlu turnir oldu. Yarışda həm yerli, həm də beynəlxalq səviyyədə çox güclü şahmatçılar iştirak etdi. Nəticələrə gəlincə, əlbəttə ki, müəyyən fərdi ümidlər var idi, amma bu cür yüksək səviyyəli yarışlarda əsas məqsəd təcrübə toplamaq, gənc nəsli beynəlxalq turnirlərə hazırlamaqdır. Ümumilikdə, "Baku Open" Azərbaycan şahmatının inkişafı üçün çox vacib idi və buna görə də nəticələri qənaətbəxş hesab edə bilərik.

Müsahibimiz Azərbaycan Şahmat Federasiyasının uşaq və gənclər komissiyasının sədri Fərid Abbasov uşaq şahmatı ilə bağlı "Xalq qəzeti"nin suallarını cavablandırdı.

***– Fərid müəllim, Azərbaycanda uşaq şahmatının inkişafı ilə bağlı nə deyə bilərsiniz?***

– Son illər uşaq şahmatına marağın yüksəlməsi və istedadlı uşaqların sayının artması sevindirici haldır. Regionlarda getdikcə daha çox turnir təşkil edilir, məktəblərdə şahmat dərsləri bərpa olunur, yeni klublar yaranır. Bu, çox müsbət haldır. Lakin inkişafın davamlı olması üçün həm metodik baza, həm də sistemli məşqçi hazırlığı üzərində daha çox işləməliyik. İstedad var, indi əsas məsələ onları düzgün istiqamətləndirməkdir.



***– Qadın şahmatçılarımızdan 5-i hazırda dünya reytinqində ilk 100-lükdə yer alıb. Qızlar arasında reytinqdə isə nəticələr zəifdir. Bu, o demək deyilmi ki, qadın şahmatında da geriləmələr olacaq?***

– Hazırda qadınlar arasında 5 şahmatçımızın ilk 100-lükdə olması böyük nailiyyətdir və bu, illərlə görülən işlərin nəticəsidir. Qızlar arasında zəif nəticələr isə qısamüddətli problem kimi qiymətləndirilməlidir. Əsas səbəblərdən biri, yeniyetmə idmançıların karyera və təhsil arasında seçim etməsidir. Bu mərhələdə dəstək sistemi zəif olarsa, istedadlı qızlarımız itirilə bilər. İrəliləyiş olaraq son dövrlərdə keçirilən xüsusi qız turnirlərini, master-klasları və beynəlxalq təcrübə proqramlarını qeyd edə bilərik.

***– Kişilərdə ilk 100-lükdə şahmatçılarımızın nəticələri çox zəifləyib. İlk 10-luqda isə xeyli vaxtdır oyunçularımız yer almır. Gənc nəsil şahmatçılarımızı ilk pillələrdə nə vaxt görə biləcəyik?***

– Bu, çox real və haqlı müşahidədir. Artıq rəqabət dünya miqyasında çox güclüdür. İlk 10-luğa düşmək üçün təkcə istedad yox, həm də beynəlxalq təcrübə, yüksək səviyyəli hazırlıq və peşəkar idarəetmə lazımdır. Gənc nəsil içərisində çox perspektivli şahmatçılar var və biz onlara 3–5 illik dövrdə bu pillələrə yaxınlaşmağı hədəf qoymuşuq. Bu, həm fərdi hazırlıq, həm də federasiya və məşqçilər birliyinin birgə planlaması ilə mümkündür.

***– Aşağı yaş qruplarında perspektivli şahmatçılar yetişirmi? Yeniyetmələrin reytinqində, səhv etmirəmsə, Aydın Süleymanlı ön sıralardadır.***

– Bəli, Aydın Süleymanlı artıq dünya səviyyəsində özünü göstərmiş istedadlı bir gəncdir. Onunla yanaşı, çoxlu perspektivli şahmatçılar var. Bəzi adlar mediada az görünür, amma məşqçilər və federasiya bu istedadların arxasınca yaxından izləmə aparır. Məsələn, Xəzər Babazadə, Read Səmədov, Xaqan Əhməd, Rüstəm Rüstəmov, Səadət Bəşirli, Mehriban Əhmədli, Zəhra Əhmədli və digərlərinin adlarını çəkə bilərəm. Əgər bu istedadlar doğru sistemlə irəliləyəcəklərsə, gələcəkdə Azərbaycanı yüksək səviyyədə təmsil edəcəklər.

***– Sizcə uşaq şahmatının inkişafını ləngidən səbəblər hansılardır?***

– Əsas məsələ – sistemli yanaşmadır. Bizə bütün ölkə üzrə vahid metodika, yaşa uyğun proqramlar və məşqçilər üçün daimi təkmilləşdirmə təlimləri lazımdır. Əlavə olaraq, istedadların erkən yaşda aşkarlanması və onların fərdi inkişaf planı üzrə istiqamətləndirilməsi vacibdir. İnkişafı ləngidən əsas səbəblər arasında regionlarda kadr çatışmazlığı, maliyyə məhdudiyyətləri və valideynlərin kifayət qədər məlumatlı olmamasını göstərə bilərik. Amma bu çətinliklər aradan qaldırıla bilən məsələlərdir və bu istiqamətdə artıq konkret işlər görülür.



***Söhbəti apardı:***
***Leyla QURBANOVA***
***XQ***

## Avropa və MDB poçt şəbəkəsinin Bakı Forumu

**Bakıda Avropa və MDB Poçt Liderlərinin I Forumu keçirilir. Məclisi Ümumdünya Poçt İttifaqı, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin tərkibində fəaliyyət göstərən "Azərpoçt" MMC ilə birgə təşkil edib.**

"Növbəti üfüqlər: Gələcək mükəmməllik üçün elektron ticarət, innovasiya və təchizat zəncirinin naviqasiyası" mövzusuna həsr olunmuş forumda 30-dan çox ölkənin 150-dən artıq təmsilçisi iştirak edir. Onlar arasında milli poçt xidmətlərinin rəhbərləri, e-ticarət və texnologiya şirkətlərinin yüksək vəzifəli nümayəndələri, eləcə də sahə üzrə beynəlxalq ekspertlər də yer alıb.

Məclisin məqsədi regional müzakirələr və müqayisələr, bilik mübadiləsi və innovasiyalar üçün strateji bir platforma yaratmaqdır. Müzakirələr qlobal tendensiyalar və rəqəmsal pozuntulara cavab olaraq poçt sektorunun transformasiyasına yönələcək. Gündəliyə poçt şəbəkələrində elektron ticarətin artan rolu, rəqəmsal transformasiya, davamlı logistika təcrübələrinin tətbiqi, poçt əməliyyatlarında inam və təhlükəsizliyin qorunması üçün kibertəhlükəsizliyin əhəmiyyətinin artırılması kimi aktual mövzular daxildir.

Bakı Poçt Forumu sənaye liderləri və maraqlı tərəflər arasında dialoqu asanlaşdırmaqla müştərilərin və bizneslərin dəyişən tələblərinə uyğun, gələcəyə yönəlik strategiyaların və innovativ həllərin inkişaf etdirilməsinə təkan verəcək.




*Qəzənfər QASIMOV*
*XQ*

HAVA

## Abşeronda yağmursuz, bölgələrdə yağış, duman və külək...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, mayın 13-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var.**

Şimal-qərb küləyi əsəcək. Gecə 14-16°, gündüz 21-26° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 754 mm civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 55-60 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 15-19°, gündüz 23-28°, dağlarda gecə 5-9°, gündüz 12-17° isti olacaq.



*Q.QASIMOV*
*XQ*

*Sağlamlıq*

## Qanınız duru – canınız sulu

**Qan laxtalanması təhlükəli haldır. Bu, damarlarda trombların əmələ gəlməsinə səbəb olur. Tromb qan axını ilə daha nazik damarlara düşüb onları bağlaya bilir. Bu laxta ürək damarına düşdükdə infarkt, beyin damarlarını bağladıqda isə insult yaranır.**

Müasir dövrdə insanların oturaq həyat tərzi, yağlı, qızardılmış qidalar yeməsi, üstəlik, az su içməsi qanı qatılaşdırır.

Fitoterapevtlər qanı təmizləyən, duruldan, tərkibini yaxşılaşdıran, xolesterin səviyyəsini aşağı salan məlhəm tövsiyə edirlər. Bu qarışımı hazırlamaq üçün 1/2 stəkan noxud, 2 xörək qaşığı zeytun yağı, 2 diş sarımsaq, 1 xörək qaşığı limon şirəsi, hərəsindən 1 çimdik qırmızı istiot, zəncəfil, sarıkök və 2 ədəd mixək (üyüdülmüş) lazımdır.

Qarışımın hazırlanma qaydası belədir:

**1.** Öncə noxud yuyulur və axşamdan bir qədər soda əlavə olunmuş suda isladılır. Səhər suyu süzülür, bişirilir.

**2.** Bişmiş noxudun qabıqları soyulur və blenderdə əzilir.

**3.** Zeytun yağı, əzilmiş sarımsaq, limon şirəsi, ədviyyatlar əlavə edilib qarışdırılır.



**4.** Hazır qarışım soyuducuda saxlanır.

Bu məlhəmdən gündə 2–3 xörək qaşığı qəbul edilir. Onu çörəyə yaxmaq da olar.

*Z.HÜSEYNLİ*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3469
SİFARİŞ 978
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV
Çapa imzalanmışdır 00:00